RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 217 (9096) CÜMƏ AXŞAMI, 6 oktyabr 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az






# Qarabağı və Zəngəzuru yenidən quracağıq - Bu bizim milli ideyamızdır!

**İLHAM ƏLİYEV:**

- **Bir zamanlar həyat dolu olan şəhərdən heç nə qalmayıb. O dağıdılıb, işğal dövründə dağıdılıb. O, Birinci Qarabağ müharibəsi dövründə dağılmamışdı. O, sonradan, demək olar ki, 30 il ərzində daşları bir-bir sökülməklə dağıdılıb, bütün binalar viran qoyulub və sökülüb, daşlar oğurlanıb və satılıb. Burada - Ağdamda gördüklərinizi Qarabağ ərazisində hər bir kənddə görə bilərsiniz.**
- **Bu gün Azərbaycan özü beynəlxalq hüququ bərpa edib, BMT qətnamələrini icra edib, BMT-nin Nizamnaməsini, xüsusilə də onun özünümüdafiə ilə bağlı müddəasından istifadə edərək bizim milli ləyaqətimizi bərpa edib.**
- **Bizim hər hansı vasitəçiliyə ehtiyacımız yoxdur. Azərbaycanın Qarabağ bölgəsində yaşayan erməni əhalisinə gəlincə, onlar bizim vətəndaşlarımızdır və biz indi onların öz ərazimizdə həyatını necə təşkil edəcəyimizi heç bir beynəlxalq oyunçu ilə müzakirə etməyəcəyik. Qarabağ Azərbaycandır! İkinci Qarabağ müharibəsi bunu meydanda sübut etdi.**
- **Daxili işlərimizlə bağlı məsələləri heç vaxt beynəlxalq qurumlarla və ya böyüklüyündən və potensialından asılı olmayaraq, heç bir ölkə ilə müzakirə etmirik.**
- **Bir milyondan çox vətəndaşımızın çəkdiyi zülmlərə baxmayaraq, biz düşmənçiliyə, qarşılıqlı nifrətə son qoymaq və yeni sülh səhifəsi açmaq istəyirik. Müvəffəq olub-olmayacağıq, görəcəyik. Əmin deyiləm, amma ən azından biz bu istiqamətdə irəliləyirik.**
- **Bu gün biz yeni çağırışlarla üzləşirik. Ancaq bunlar xoş çağırışlardır - Qarabağın və Şərqi Zəngəzurun yenidən qurulması, insanların geri qayıtması və Azərbaycanın hər hansı bölgəsində yaşayan keçmiş məcburi köçkünlər üçün daha yaxşı şəraitin yaradılması.**
- **Qarabağ və Şərqi Zəngəzur ərazisində ümumi uzunluğu 50 kilometrdən çox olan 33 tunel olacaq, uzunluğu 12 kilometr olan 84 yeni körpü salınacaq. Bu bizim gördüyümüz işlərin yalnız bir hissəsidir.**
- **Sovet İttifaqının vaxtında Ağdam Qarabağda ən böyük şəhər idi, həyatla coşub-daşan şəhər idi və Azərbaycanda hər kəs bunu bilir. Əraziləri işğaldan azad etdikdən sonra xarici ekspertlər, jurnalistlər buraya gəldilər və Ağdama bir neçə ad verdilər. Bu adlardan biri "urbisid qurbanı" idi, bu da tamamilə doğru idi. Digər ad "ruhlar şəhəri" idi, bu da tamamilə doğrudur. Biri də "Qafqazın Xirosiması" idi. Lakin Xirosimadan fərqli olaraq, dağıntılar atom bombasının partlaması nəticəsində baş verməmişdir, bu, qonşularımızın vandalizmi və barbarlığı nəticəsində olmuşdur.**

## Prezident İlham Əliyev Ağdamdan bütün dünyaya səsləndi:

### "Biz güc yolu ilə geri qayıtdıq, biz beynəlxalq hüquq normalarından istifadə edərək geri qayıtdıq və biz burada əbədi yaşamağa geri qayıtdıq"

**Oktyabrın 5-də BMT-nin Məskunlaşma Proqramı (UN-HABITAT) və Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin birgə əməkdaşlığı, ADA Universitetinin təşkilati dəstəyi ilə Ağdamda "Dayanıqlı İnkişaf Məqsədləri" və "Yeni Şəhər Gündəliyi" - postmünaqişə dövründə bərpa və yenidənqurmanın aparıcı qüvvəsi kimi" mövzusunda Azərbaycan Milli Şəhərsalma Forumu işə başlayıb.**

**AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva forumun açılış mərasimində iştirak ediblər.**

**Dövlət başçısı tədbirdə çıxış edib.**

→ 2

## İlham Əliyev Emoməli Rəhmonı yubileyi münasibətilə təbrik etdi



**Oktyabrın 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmona zəng edib.**

Dövlətimizin başçısı Tacikistan Prezidentini yubileyi münasibətilə təbrik edib, ona Tacikistan xalqının firavanlığı naminə fəaliyyətində yeni-yeni uğurlar, möhkəm cansağlığı arzulayıb.

Emoməli Rəhmon göstərilən diqqətə və təbrikə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirib.

Telefon söhbəti zamanı dövlət başçıları ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin inkişafından məmnunluqlarını bildirib, əməkdaşlığın perspektivləri barədə fikir mübadiləsi aparıblar.

***Prezidentin Mətbuat Xidməti***

## *Maimuna Mohd ŞƏRİF:*

### "Azad olunmuş ərazilərdə genişmiqyaslı şəhərsalma və yenidənqurma işlərinin miqyasından və sürətindən heyranam"



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 5-də Ağdamda BMT-nin Məskunlaşma Proqramının (UN-HABITAT) icraçı direktoru xanım Maimuna Mohd Şərifi qəbul edib.**

→ 4

## İlham Əliyev Avropada ən çox arzuolunan liderdir

### Azərbaycan Prezidentinin təşəbbüsləri ölkəmizin geosiyasi çəkisini artırır, beynəlxalq əlaqələrini daha da gücləndirir

Bir vaxtlar iqtisadi müstəqilliyini təmin edə bilməyən, xaricdən aldığı yardımlarla keçinən, zəngin təbii ehtiyatları ola-ola hətta əhalisinin enerjiyə olan tələbatını idxal hesabına ödəyən Azərbaycan bu gün tarixinin ən qüdrətli dövrünü yaşayır.

Dünya artıq Azərbaycanı regionun lideri, qlobal layihələr həyata keçirən, islahatlar aparan, əməkdaşlığa və Avropanın enerji təhlükəsizliyinə əhəmiyyətli töhfələr verən etibarlı tərəfdaş kimi qəbul edir. Bütün bu uğurlar isə cəmi 30 ildə əldə edilib.

Son 19 ildə isə İlham Əliyevin yürütdüyü siyasətlə Azərbaycan iqtisadi və siyasi müstəqilliyə sahib olan qüdrətli dövlət kimi beynəlxalq nüfuzunu daha da artırıb. Bu bir həqiqətdir ki, İlham Əliyev hər zaman yürütdüyü siyasətdə Azərbaycanın dövlət maraqlarını üstün tutub və milli mənafelərimizin müdafiəsini başlıca vəzifələrindən biri hesab edib. Bu gün də bu qətiyyətli siyasət davam etməkdədir.

→ 6

## Azərbaycan qlobal məsələlərdə ciddi təsir gücünə malikdir

### Ölkəmizin Avropada nüfuzu daha da yüksəlir

Qlobal proseslərin fəal iştirakçılarından biri kimi Azərbaycan beynəlxalq aləmdə əsas söz sahibinə çevrilir. Ölkəmizin uzun illər ərzində formalaşdırdığı etibarlı tərəfdaş imici, eləcə də yaratdığı faydalar respublikamızla əlaqələrin daha da sıxlaşmasına marağı artırır.

Müxtəlif inkişaf modellərinin uğurla tətbiqi və hədəflənən nəticələrin əldə olunması, sosial-siyasi islahatların mütəmadi qaydada həyata keçirilməsi, qanunvericilik bazasının zənginləşdirilməsi, vətəndaş cəmiyyəti və hüquqi dövlətin inkişafına maksimum əlverişli şəraitin yaradılması, möhkəm təməllərə söykənən ictimai-siyasi sabitliyin qorunması hazırda müasir Azərbaycanın gerçəkliklərini təşkil edir.

Bütün bu nailiyyətlərin əsasında təbii ki, güclü lider fenomeni dayanır. Dövlət rəhbərimizin məsələlərə baxışının, bu günün və gələcəyin inkişaf meyillərini dəqiqliklə duya bilmək qabiliyyətinin, prinsiplərinə sadiqliyinin, ölkəmizin milli maraqlarına xidmət edən təşəbbüslərə açıqlığının, ən əsası isə beynəlxalq miqyasda Prezident İlham Əliyev şəxsiyyətinə olan böyük inamın mühüm rolu var.

→ 6



## Kəlbəcər və Daşkəsəndə aşkar olunan növbəti minalar zərərsizləşdirilib

→ 12

# Qarabağı və Zəngəzuru yenidən

## Prezident İlham Əliyev Ağdamdan bütün dünyaya səsləndi:

"Biz güc yolu ilə geri qayıtdıq, biz beynəlxalq hüquq normalarından istifadə edərək geri qayıtdıq və biz burada əbədi yaşamağa geri qayıtdıq"

## Prezident İlham Əliyevin çıxışı






- Hörmətli BMT-nin Məskunlaşma Proqramının icraçı direktoru Maimuna Mohd Şərif.

Hörmətli qonaqlar.

Xanımlar və cənablar.

Ağdama xoş gəlmisiniz. Mən çox şadam ki, biz Azərbaycan Milli Şəhərsalma Forumunu burada - Ağdam şəhərinin bir zamanlar yerləşdiyi məkanda təşkil edirik. İndi görə bilərsiniz ki, bir zamanlar həyat dolu olan şəhərdən heç nə qalmayıb. O dağıdılıb, işğal dövründə dağıdılıb. Mən həmçinin bizimlə birgə olduqlarına, Qarabağ regionunun bir zamanlar ən böyük şəhəri olan Ağdama nə olduğunu görmək və keçmiş məcburi köçkünləri öz evlərinə qaytarmaq üçün bizim həyata keçirdiyimiz və qarşıdakı illərdə planlaşdırdığımız işləri görmək üçün buraya gəldiklərinə görə müxtəlif ölkələrdən olan qonaqlarımıza, - Forumumuzda 40-dan çox ölkənin nümayəndələri iştirak edirlər, - minnətdarlığımı ifadə etmək istərdim. Artıq, qeyd etdiyim kimi, Ağdam işğal illərində dağıdılıb. O, Birinci Qarabağ müharibəsi dövründə dağılmamışdı. O, sonradan, demək olar ki, 30 il ərzində daşları bir-bir sökülməklə dağıdılıb, bütün binalar viran qoyulub və sökülüb, daşlar oğurlanıb və satılıb. Görə bilərsiniz ki, yarıdağılmış yeganə tikili Cümə məscidinin binası olub. Lakin onun keçmiş işğal altında olan ərazilərdə Ermənistanın dağıtdığı digər məscidlərlə birlikdə dağıdılmamasının səbəbi odur ki, onlar minarələrdən müşahidə üçün, Azərbaycan Silahlı Qüvvələrinin potensial hərəkətini görmək üçün istifadə edirdilər. Lakin bizdə Ağdam məscidinin təhqir olunmasına dair foto və videosübutlar var. Ermənilər məsciddə donuz və inək saxlayıblar. Azad etdiyimiz ərazilərdə yerləşən ümumilikdə 67 məsciddən 65-i tamamilə dağıdılıb. Onlardan 2-si - biri burada, digəri Şuşada yarımçıq sökülüb və təhqir olunub.

Burada - Ağdamda gördüklərinizi Qarabağ ərazisində hər bir kənddə görə bilərsiniz. Bilirəm ki, qonaqlarımız buraya təyyarə ilə yeni tikilmiş Füzuli Beynəlxalq Hava Limanına gəliblər. Füzuli şəhəri tamamilə dağıdılıb. Bir tikili belə qalmayıb. Eynilə Cəbrayıl, eynilə Qubadlı, Zəngilan da. Bütün binaların dağıdılmadığı yeganə yerlər Şuşa, Laçın və qismən Kəlbəcər olub. Lakin bunun səbəbi odur ki, Ermənistan dövləti müxtəlif ölkələrdən olan erməniləri işğal edilmiş ərazilərdə yerləşdirmək üçün qanunsuz məskunlaşma siyasəti yürüdürdü. Bu, beynəlxalq hüququn və Cenevrə Konvensiyasının kobud şəkildə pozulması hesab olunur.

Hazırda biz keçmiş məcburi köçkün və qaçqınları öz doğma yurdlarına mümkün qədər tez bir zamanda geri qaytarmaq üçün nəhəng bir çağırışla üz-üzəyik. Lakin genişmiqyaslı bərpa proqramı ilə yanaşı, ən böyük çətinliklərdən biri minalardır. Müharibə, demək olar ki, iki il bundan əvvəl başa çatandan bəri təxminən 250 azərbaycanlı minaların partlaması nəticəsində həlak olub və ya ağır yaralanıb. Əfsuslar olsun ki, bu rəqəm hər həftə artır. Təkcə keçən həftə 2 nəfər həlak olub, 3 nəfər ağır yaralanıb. Ermənilər işğal dövründə 1 milyondan çox mina basdırıblar. Azərbaycana və azərbaycanlılara qarşı olan bu terror siyasəti davam edir. Lap bu yaxınlarda biz İkinci Qarabağ müharibəsi bitəndən sonrakı dövrdə Ermənistan silahlı qüvvələri tərəfindən Laçın rayonunda basdırılmış 1400-dən çox mina aşkar edərək zərərsizləşdirmişik. Beləliklə, Azərbaycana qarşı təcavüz, Azərbaycana qarşı terror davam edir.

Millətimiz ciddi humanitar böhrandan əziyyət çəkib. Çünki Ermənistanın təcavüzü və işğalı nəticəsində Qarabağ, Zəngəzur, həmçinin bugünkü Ermənistanda 1 milyondan çox azərbaycanlı öz doğma torpaqlarından tamamilə etnik təmizləməyə məruz qalıb. Bu, baş verəndə Azərbaycan əhalisi 8 milyondan az idi. Bir milyonun qaçqın və məcburi köçkünə çevrildiyini təsəvvürünüzə gətirə bilərsinizmi? Biz xüsusilə müstəqilliyin ilk illərində, bu dəstəyə ciddi şəkildə ehtiyacımız olan zaman qaçqın və məcburi köçkünlərimizə göstərdiyi dəstəyə görə beynəlxalq təşkilatlara, xüsusilə BMT təsisatlarına çox minnətdarıq. İşğaldan azad edilmiş ərazilərə gələn hər kəs Ermənistanın işğalı və təcavüzünün nəticələrini görür. İkinci Qarabağ müharibəsi başa çatandan bəri minlərlə əcnəbi qonaq, jurnalist, siyasətçi, vətəndaş cəmiyyəti nümayəndələri buraya gələrək bunu öz gözləri ilə görüblər. Erməni barbarlığı və vandalizminin miqyası faktiki olaraq o qədər böyükdür ki, Azərbaycanın bu hissəsinə gələn bir çox insanlar özlərini mənəvi cəhətdən tamamilə tükənmiş hiss edirlər. Siz bizim, azərbaycanlıların, xüsusilə Ağdam, Füzuli, Azərbaycanın işğal altında olmuş digər ərazilərində yaşamış insanların buraya gələndə nə hiss etdiklərini təsəvvürünüzə gətirə bilərsiniz. Onlar hətta evlərinin yerləşdiyi yeri belə tapa bilmirlər, çünki hər şey tamamilə dağıdılıb.

İşğalçılıq siyasəti yürütməklə Ermənistanın əsas hədəfi de-fakto vəziyyəti yerində dəyişmək və bununla Azərbaycanla danışıqlar prosesini sonsuz etmək idi. Məhz buna görə danışıqlar heç bir nəticə olmadan 28 il davam etdi. Nəticə faktiki olaraq sıfır idi. BMT, ATƏT kimi aparıcı beynəlxalq təşkilatların və digərlərinin Ermənistan qoşunlarının Azərbaycan ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən qətnamə və qərarlar qəbul etməsinə, xüsusilə BMT Təhlükəsizlik Şurasının, demək olar ki, 30 il ərzində kağız üzərində qalan 4 qətnaməsinə, bizim Ermənistana sanksiyalar tətbiq etməklə bağlı bütün müraciətlərimizə baxmayaraq, biz buna nail ola bilmədik. Beynəlxalq ictimaiyyət Azərbaycan xalqının humanitar fəlakətinə müəyyən mənada göz yummağa qərar verdi. Ən çox təəssüf doğuran odur ki, ATƏT-dən mandatı olan Minsk qrupu adlandırılan struktur və onun həmsədrləri işğal olunmuş ərazilərə dəfələrlə səfərlər edib, bütün şəhər və kəndlərin qəddarcasına dağıdılmasının, ermənilərin bizim torpaqlarımızda qanunsuz məskunlaşdırılmasının şahidi olublar, lakin Ermənistanı qınamayıblar. İyirmi səkkiz illik belə dırnaqarası fəaliyyətləri dövründə onlar tərəfindən Ermənistanı qınamaq üçün bir söz belə deyilməyib. İndi biz bu Minsk qrupunu yenidən canlandırmaq istiqamətində bəzi səyləri görəndə, əlbəttə ki, bunu dəstəkləyə bilmərik, çünki onlar öz mandatlarını həyata keçirmək üçün heç nə etmədilər, onların gördüyü yeganə iş faktiki surətdə ondan ibarət olub ki, müəyyən mənada erməni təcavüzünü legitimləşdirməyə çalışıblar. Onlar təcavüzkar və təcavüz qurbanı arasında balans yaratmağa çalışıblar. Ona görə də bu gün Azərbaycan özü beynəlxalq hüququ bərpa edib, BMT qətnamələrini icra edib, BMT-nin Nizamnaməsini, xüsusilə də onun özünümüdafiə ilə bağlı müddəasından istifadə edərək bizim milli ləyaqətimizi bərpa edib.

Bizim hər hansı vasitəçiliyə ehtiyacımız yoxdur. Biz İkinci Qarabağ müharibəsi başa çatdıqdan sonra təklif irəli sürdük. Ağdamda gördüklərinizə, 10 min kvadratkilometrdən çox ərazinin Ermənistan tərəfindən dağıdılmasına baxmayaraq, insanlarımızın çəkdiyi zülmlərə baxmayaraq, biz Ermənistana sülh təklif etdik. Sülh müqaviləsi üçün əsas olan beynəlxalq hüququn beş əsas prinsipini, - xüsusən də ölkələrin ərazi bütövlüyünün qarşılıqlı tanınması, gələcəkdə ərazi iddialarından çəkinmək, güc tətbiq etməmək və ya güc tətbiq etmək hədəsindən çəkinmək, dövlət sərhədlərinin müəyyən edilməsi və kommunikasiyaların açılması, - irəli sürdük. Bütün bunlar, əslində, beynəlxalq hüququn əsas prinsipləridir və hesab edirəm ki, münasibətlərini normallaşdırmağa çalışan ölkələr arasında sülh sazişləri və ya hər hansı sazişlər buna əsaslanmalıdır. Hələ də Azərbaycanın Qarabağ bölgəsində yaşayan erməni əhalisinə gəlincə, onlar bizim vətəndaşlarımızdır və biz indi onların öz ərazimizdə həyatını necə təşkil edəcəyimizi heç bir beynəlxalq oyunçu ilə müzakirə etməyəcəyik. Qarabağ Azərbaycandır! İkinci Qarabağ müharibəsi bunu meydanda sübut etdi. İşğal dövründə dünyanın heç bir ölkəsi, o cümlədən Ermənistan bu qondarma qurumu tanımadı. Ona görə də daxili işlərimizlə bağlı məsələləri heç vaxt beynəlxalq qurumlarla və ya böyüklüyündən və potensialından asılı olmayaraq, heç bir ölkə ilə müzakirə etmirik.

Sülh prosesi ilə bağlı bizdə müəyyən nikbinlik var. Çünki bu yaxınlarda Azərbaycanın və Ermənistanın xarici işlər nazirlərinin görüşü, xüsusilə də sülh sazişi layihəsinin hazırlanması gündəliyi ilə bağlı ilk belə görüş keçirilib. Ümid edirik ki, bu, çox vaxt aparmayacaq. Biz bilirik ki, ermənilər 28 ildir Qarabağ münaqişəsi ilə bağlı danışıqlar aparmaq kimi razılığa gəlmək istəmədikdə, adətən, hansı taktikalardan istifadə edirlər. Belə davam edərsə, biz də sülh əldə edə bilməyəcəyik. Əgər bu, Ermənistanın seçimidirsə, bu o deməkdir ki, onlar növbəti ciddi səhvə yol verəcəklər. Onlar bizi düzgün qiymətləndirmədilər, onlar bizim iradəmizi, Azərbaycan xalqının iradəsini, Azərbaycanın potensialını düzgün qiymətləndirmədilər və bunun əvəzini ödəməli oldular. İki il bundan əvvəl baş verən müharibə Azərbaycan ərazisində aparılıb. Bu bir daha bizim mövqeyimizi sübut edir və göstərir ki, bütün bunlara, bir milyondan çox vətəndaşımızın çəkdiyi zülmlərə baxmayaraq, biz düşmənçiliyə, qarşılıqlı nifrətə son qoymaq və yeni sülh səhifəsi açmaq istəyirik. Müvəffəq olub-olmayacağıq, görəcəyik. Əmin deyiləm, amma ən azından biz bu istiqamətdə irəliləyirik.

Eyni zamanda ümid edirik ki, sərhədlərin delimitasiyası üzrə iki müvafiq komissiya - Azərbaycan və Ermənistan komissiyaları da vaxt itirməyəcək və iki ölkə arasında faktiki mövcud olmayan sərhədin müəyyənləşdirilməsi üzərində fəal işləyəcəklər. Demək olar ki, 30 ilə yaxın davam edən işğal illəri ərzində bu sərhəd tamamilə Ermənistanın nəzarəti altında olub. İşğal bitdikdən sonra biz sərhəd hesab etdiyimiz bu sərhədə gəldik və burada qərarlaşdıq. Ona görə də 400 kilometrdən çox olan bu sərhədi müəyyənləşdirmək üçün tarixi sənədlərə, tarixi xəritələrə, beynəlxalq təcrübə və metodologiyaya əsaslanaraq fəal şəkildə işləməliyik. Beləliklə, bu proses artıq gedir. Ancaq yenə də deyirəm, bunun nə qədər uğurlu olacağını demək çətindir.

Beləliklə, bu ötən müddət ərzində baş verən hadisələr idi. Bu gün biz yeni çağırışlarla üzləşirik. Ancaq bunlar xoş çağırışlardır - Qarabağın və Şərqi Zəngəzurun yenidən qurulması, insanların geri qayıtması və Azərbaycanın hər hansı bölgəsində yaşayan keçmiş məcburi köçkünlər üçün daha yaxşı şəraitin yaradılması. Əminəm ki, bu insanlar buna layiqdirlər. Onlar uzun illər boyu çətin şəraitdə yaşayıblar. Baxmayaraq ki, biz 300 mindən çox məcburi köçkünü yeni ev və mənzillərlə təmin etmişik, bu mənzillərin açılışı zamanı onlar bizə minnətdarlıqlarını bildirirdilər və hər dəfə qeyd edirdilər ki, bizi öz torpaqlarımıza qaytarın. Mən onlara hər dəfə söz verirdim ki, bunu reallaşdıracağam və mən fəxr edirəm ki, biz bunu reallaşdıra bildik və artıq Böyük qayıdış proqramı başlayıb.

Bu ilin mayında Zəngilanda ilk kənd qurulub və ilk məcburi köçkünlər artıq qayıdıblar. Mən, həqiqətən, fəxr edirəm və inanıram ki, bütün Azərbaycan xalqı da fəxr edir ki, təkcə orada yaşayanlar deyil, onların uşaqları və nəvələri də buraya qayıdırlar. Bu ilin sentyabrında Zəngilanda məktəb açıldı və gənc zəngilanlılar artıq bu məktəbdə təhsil alırlar. Onlar bu torpaqları görməyiblər, çünki onlar işğaldan sonra dünyaya göz açıblar. Ancaq bu onu göstərir ki, Azərbaycan xalqı öz köklərinə və doğma torpaqlarına bağlıdır. Keçmiş məcburi köçkünlərin öz torpaqlarına qayıtması ilə bağlı keçirdiyimiz sorğu əsasında deyə bilərik ki, əksəriyyət insanların həmin torpaqları belə görmədiklərinə baxmayaraq, bu torpaqlara geri qayıtmaq istəyini bildirməsi, həqiqətən, qürurvericidir. Bu, əlbəttə ki, cəmiyyətimizdə xüsusi mühit, qürur hissi, qələbə hissi, ədalətin bərpa olunması hissi, xalqın ləyaqət hissinin bərpası hisslərini formalaşdırır ki, bunlar ölçüyəgəlməz hisslərdir, bunları siz hiss etməlisiniz. Biz bunu hiss edirik və xoşbəxtik.

İndi biz burada - işğaldan azad olunmuş Ağdamda keçmiş məcburi köçkünlərin öz yurdlarına tezliklə qayıtması üçün bütün potensialımızı səfərbər edirik. İrimiqyaslı infrastruktur layihələri icra olunur. Siz Füzuli Beynəlxalq Hava Limanını gördünüz, bu liman səkkiz ay ərzində tikilib. Bu ay biz Zəngilan Beynəlxalq Hava Limanını açmağı və 2025-ci ildə isə Laçın Beynəlxalq Hava Limanını istifadəyə verməyi planlaşdırırıq. Bərdə-Ağdam dəmir yolu gələn il istifadəyə veriləcək. Dünən mən yeni dəmir yolunun təməl daşını qoydum. Hazırda magistral yollar və kənd yolları tikilməkdədir. Təsdiq olunmuş investisiya planına əsasən, işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur ərazisində ümumi uzunluğu 50 kilometrdən çox olan 33 tunel olacaq, uzunluğu 12 kilometr olan 84 yeni körpü salınacaq. Bu bizim gördüyümüz işlərin yalnız bir hissəsidir. Biz bütün azad olunmuş ərazilərdə elektrik təchizatını tamamilə bərpa etmişik və ümidvaram ki, tezliklə Cəbrayılda 230 meqavat gücündə olan günəş-elektrik stansiyasının tikintisinə başlayacağıq.

# quracağıq - Bu bizim milli ideyamızdır!

## Prezident İlham Əliyev Ağdamdan bütün dünyaya səsləndi:

### "Biz güc yolu ilə geri qayıtdıq, biz beynəlxalq hüquq normalarından istifadə edərək geri qayıtdıq və biz burada əbədi yaşamağa geri qayıtdıq"

Ümumiyyətlə, biz işğaldan azad olunmuş ərazilərdə bərpaolunan enerjinin potensialını qiymətləndirmişik və ilkin təhlillərə görə bu, demək olar ki, on min meqavat təşkil edir. Biz artıq bir neçə su-elektrik stansiyasının açılışını etmişik və su-elektrik enerjisinin ümumi gücü beş yüz meqavatdan çox olacaq. Yerdə qalan güc isə günəş və külək-elektrik enerjisindən qaynaqlanacaq. Bu ərazi nəinki təkcə işğal illərində Azərbaycanın müxtəlif bölgələrində yaşamaq məcburiyyətində qalan insanları bir araya gətirəcək, eyni zamanda gələcəkdə Azərbaycanın iqtisadiyyatı üçün aparıcı qüvvə olacaqdır. Bizim burada işğal dövründə məhrum olduğumuz geniş su ehtiyatlarımız var. Çünki ermənilər təkcə bizim şəhərlərimizi işğal etməmişdilər, onlar bizim ehtiyatlarımızı da işğal etmişdilər. Qanunsuz olaraq dağ-mədən işləri aparılırdı, bizim suya çıxışımızı kəsən qanunsuz işlər görülürdü və biz yüz minlərlə hektar torpağı suvara bilmirdik. İndi biz çaylarımıza, torpağımıza qayıtmışıq. Bütün şəhərlərin baş planları aparıcı beynəlxalq şirkətlər tərəfindən artıq hazırlanmışdır və təsdiqlənmişdir.

Beləliklə, biz artıq burada - Ağdamda bir neçə evin tikintisinə başlamışıq. Mən dünən burada idim və 3 kəndin - Xıdırlı, Kəngərli və Sarıcalının təməlqoyma mərasimlərində iştirak etmişdim. Maksimum iki ildən sonra bu kəndlərdə bir neçə min insan yaşayacaqdır. Ağdam şəhərində biz, demək olar ki, min yerlik məktəb tikirik. Bu məktəb də ola bilsin bu il, ya da gələn il hazır olacaq. Xəstəxana və bir neçə yaşayış binası tikilir. Bu, sadəcə, Ağdamdır. Eyni işlər Füzulidə, Qubadlıda, Zəngilanda da görülür. İki ay bundan əvvəl qayıtdığımız Laçın şəhərini növbəti ilin sonuna kimi bərpa etməyi planlaşdırırıq. Çünki, dediyim kimi, orada qeyri-qanuni məskunlaşma var idi. Heç də bütün binalar sökülməmişdir. Biz artıq bir qrup mütəxəssisi oraya göndərmişik. Beləliklə, biz Qarabağı və Zəngəzuru yenidən quracağıq. Buna heç bir şübhəmiz yoxdur. Necə bahalı olursa-olsun, bunu edəcəyik. Bu bizim milli ideyamızdır. Əvvəllər bizim milli ideya torpaqlarımıza qayıtmaqdan, ədaləti və ərazi bütövlüyümüzü bərpa etməkdən ibarət idi və bütün Azərbaycan xalqı bu ideya ətrafında birləşmişdi, özünü buna hazırlamışdı. Canlarını qurban vermiş gənc nəsil, - müharibə zamanı demək olar ki, üç min nəfəri qurban verdik, - və Qələbəmizi qeyd edən minlərlə insan, bu, həqiqətən də, müasir Azərbaycandır, bu, yeni Azərbaycandır. İndi artıq işğal damğasından azad olunmuş Azərbaycan yüksəlməkdədir və mən əminəm ki, Azərbaycan ən uğurlu ölkələrdən biri olacaq və söhbət təkcə bizim regiondan getmir.

Əziz dostlar, xanımlar və cənablar, bizimlə burada olduğunuz üçün bir daha sizə təşəkkür edirəm. Bu forum, həqiqətən də, bizim üçün çox vacibdir. Mən BMT-nin Məskunlaşma Proqramının icraçı direktoruna minnətdaram. O, altı ay bundan əvvəl bizi ziyarət etmişdi. Onunla çox yaxşı görüşümüz olmuşdu və ondan sonra bizi Polşada keçirilən Dünya Şəhərsalma Forumuna dəvət etdilər. Bizim nümayəndələr orada iştirak etmişdir. İndi biz Milli Şəhərsalma Forumunu təşkil edirik və mən bizimlə bir yerdə olduğu üçün BMT-nin nümayəndəsinə, merlərə və mer müavinlərinə, bütün ölkələrdən olan nümayəndələrə minnətdaram. Bu deyərdim ki, Ağdamın beynəlxalq əlaqələrinin başlanğıcıdır. Mən ümid edirəm ki, Ağdam və dünyanın bir çox şəhərləri qardaş şəhərlər olacaqdır. Bilirsiniz, Sovet İttifaqının vaxtında Ağdam Qarabağda ən böyük şəhər idi, həyatla coşub-daşan şəhər idi və Azərbaycanda hər kəs bunu bilir. Əraziləri işğaldan azad etdikdən sonra xarici ekspertlər, jurnalistlər buraya gəldilər və Ağdama bir neçə ad verdilər. Bu adlardan biri "urbisid qurbanı" idi, bu da tamamilə doğru idi. Digər ad "ruhlar şəhəri" idi, bu da tamamilə doğrudur. Biri də "Qafqazın Xirosiması" idi. Lakin Xirosimadan fərqli olaraq, dağıntılar atom bombasının partlaması nəticəsində baş verməmişdir, bu, qonşularımızın vandalizmi və barbarlığı nəticəsində olmuşdur. Lakin indi biz qayıtmışıq, biz güc yolu ilə geri qayıtdıq, biz beynəlxalq hüquq normalarından istifadə edərək geri qayıtdıq və biz burada yaşamağa, əbədi yaşamağa geri qayıtdıq. Təşəkkür edirəm.

❖ ❖ ❖

Sonra BMT-nin Məskunlaşma Proqramının icraçı direktoru xanım Maimuna Mohd Şərif çıxış edib.






### Xanım Maimuna Mohd Şərifin çıxışı

-Təşəkkür edirəm, cənab moderator.

Zati-aliləri, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev.

Möhtərəm nazirlər.

BMT-nin Azərbaycandakı rezident-əlaqələndiricisi xanım Vladanka Andreyeva.

Hörmətli nümayəndələr, xanımlar və cənablar.

Hamınızın sabahı xeyir olsun. Sabahınız xeyir (Azərbaycan dilində deyir). Ümidvaram ki, düzgün tələffüz etdim, əlimdən gələni etdim, cənab Prezident.

Zati-aliləri Prezident İlham Əliyevin himayəsi altında Azərbaycan hökumətinin təşkil etdiyi ilk Milli Şəhərsalma Forumunda iştirak etmək mənim üçün böyük şərəfdir. Bu xüsusilə ona görə əhəmiyyətlidir ki, biz "Urban October" ayındayıq, ilk dəfə olaraq Dünya Məskunlaşma Günü Avrasiya qitəsində, iki gün əvvəl Türkiyə Respublikasının Balıkesir şəhərində qeyd olundu. "Fərqi aradan qaldır" mövzusu heç kimin, heç bir yerin geridə qalmaması deməkdir.

Cənab Prezident, Ağdamda keçirilən I Azərbaycan Milli Şəhərsalma Forumuna dəvətiniz məni çox məmnun etdi. Bu konfrans zalı, Füzuli Beynəlxalq Hava Limanı və tikinti layihələri Sizin hökumətinizin postmünaqişə ərazisində şəhərlərin bərpası istiqamətində səylər göstərmək əzmini və fədakarlığını nümayiş etdirir. Siz vətəndaşlarınız üçün daha yaxşı gələcək qurursunuz. Təbrik edirəm. BMT-nin Baş katibi cənab Antonio Quterreşin dediyi kimi, müharibə və münaqişələrdə qaliblər olmur, yalnız məğlublar olur. 2022-ci il BMT Məskunlaşma Proqramının Dünya Şəhərləri hesabatına əsasən, münaqişələr səbəbindən 70 milyondan çox insan yoxsulluq həddindən aşağı səviyyədə yaşayır. Təkcə 2021-ci ildə 84 milyon insan zorakılıq, təhlükə və iqlim dəyişikliyinin təsiri səbəbindən evlərindən didərgin düşüb. Məsələn, ərəb regionunda 26 milyon qaçqının əksəriyyəti şəhərlərdə cəmləşib. Pakistanda son vaxtlar güclü daşqınlar 33 milyon insanı evlərindən didərgin salıb. BMT-nin Məskunlaşma Proqramında bizim üçün inkişafın əsas amili sülh və sabitlikdir. Məhz bu səbəbdən bizim İcraiyyə Komitəsi 2022-ci ilin martında keçirilən iclasında məndən postmünaqişə və fəlakətdən sonrakı urban dayanıqlılıq üzrə fəaliyyətimizi genişləndirməyi xahiş edib. BMT-nin Məskunlaşma Proqramı lazımi yaşayış və vacib infrastruktur təmin etməklə Suriya, İraq, Livan, İordaniya, Fələstin, Sudan və Yəməndə məcburi köçkün və qaçqınları dəstəkləyir. Biz həmçinin ictimai məkanları reabilitasiya edirik, torpaq mülkiyyətçiliyinə və mülkiyyət hüquqlarına şərait yaradaraq onları bərpa edirik.



BMT-nin Məskunlaşma Proqramı həmçinin Ukraynada şəhərlərə dəstək vermək üçün şəhərlərin böhranı proqramını hazırlayır. Biz eyni zamanda qonşuluğun təşviqi inteqrasiya proqramı vasitəsilə venesuelalı miqrantların Kolumbiya, Ekvador, Peru, Trinidad və Tobaqo, Panama və Dominikan Respublikasında ev sahibi olan icmalara inteqrasiyasını dəstəkləyirik. COVID, iqlim və münaqişə çağırışları yaşayış məntəqələri və şəhərlərə qeyri-mütənasib şəkildə təsir edir. Bir çox hallarda COVID pandemiyasının şəhərlərə mənfi təsiri davam edir. Müharibə və münaqişələr qaçqınların şəhərlərə üz tutmasına gətirib çıxarır. Bu səbəbdən BMT-nin Məskunlaşma Proqramı 36 ölkədə fəaliyyət göstərir, normativ təlimatlar və texniki dəstəklə ön cəbhədə olanlara bərpa işlərində kömək etmək üçün 1000-dən çox şəhərin "City İQ şəbəkəsi"ni qurub.

Möhtərəm nümayəndələr, biz bərpa işlərini yalnız o zaman daha yaxşı həyata keçirə, sığınacaq və yaşayışla bağlı əsas xidmətlərdəki boşluğu o zaman aradan qaldıra bilərik ki, resursların strateji qaydada ayrılmasına dair məlumatlarımız olsun. BMT-nin bu cür milli şəhərsalma forumunu təşkil etməsi sayəsində üzv dövlətlər və şəhər merləri qərarların qəbul olunmasında onları maarifləndirən məlumatları daha yaxşı toplaya və təhlil edə bilirlər. On birinci Dayanıqlı İnkişaf Məqsədi bütün digər dayanıqlı inkişaf məqsədləri üçün dayaq yeridir. Bu məqsəd bir neçə sahəyə təsir edir, mərkəzi və yerli hökumətlərə yerlərdə müsbət təsirə gətirib çıxaran milli inkişaf siyasətlərinin həyata keçirilməsini təmin etmək üçün daha yaxşı mövqe tutmağa imkan verir.

Bu günədək BMT-nin Məskunlaşma Proqramı milli şəhərsalma proqramlarını təşkil etmək üçün 49 ölkəyə kömək göstərib. Biz dünyanın bütün regionlarında fəaliyyət göstəririk və Afrikanın 17, Avropanın 13, Latın Amerikası və Karib hövzəsinin 7, Asiya-Sakit okean regionunun 7 ölkəsinin və 5 ərəb dövlətinin milli şəhərsalma forumunu təşkil etmişik. Asiya-Sakit okean regionu, Karib hövzəsi ölkələri və Mərmərə subregionu daxil olmaqla üç bölgədə regional şəhərsalma forumu keçirilib. Bu milli şəhərsalma forumlarının yeni tsiklinin əsas istiqaməti bu forumu milli şəhərsalma siyasətlərinə çevirən paradiqma dəyişikliyini təbliğ etməkdir. 2016-cı ildən bəri könüllü xarakter daşıyan 167 yerli rəy dərc edilib. Otuz yeddi ölkə ən azından bir könüllü milli rəyi hazırlayıb, 133 ölkə bunu yerli və regional hökumətlər səviyyəsində edib.

Cənab Prezident, mən Azərbaycanı könüllü yerli rəylərini hazırlamağa və yeni şəhərsalma gündəliyinin icrası üzrə yeni milli hesabatını bizə təqdim etməyə çağırıram. Həmin hesabat üzrə biz sübut əsaslı qərarlar qəbul edə və yerlərdə müsbət təsirə nail olmaq üçün siyasətlərin praktikada tətbiqinə kömək məqsədilə insanların dəstəyini qazana bilərik.

Cənab Prezident, icazə verin, bu ilin aprel ayında Nyu Yorkda keçirilmiş və yeni şəhərsalma gündəliyinin icrasına həsr olunmuş yüksəksəviyyəli toplantıda dayanıqlı şəhərsalmanı dəstəklədiyi üçün Azərbaycan hökumətinə təşəkkürümü bildirim. Həmçinin Polşanın Katovitse şəhərində keçirilən Dünya Şəhərsalma Forumunun 11-ci sessiyasında iştirak etmiş Azərbaycan nümayəndə heyəti çox yaxşı təsir bağışlayıb. Eyni zamanda ümidvaram ki, Azərbaycan noyabrın 17-də COP 27 çərçivəsində Misirin Şarm-əl-Şeyx şəhərində keçiriləcək Şəhərlər və İqlim Dəyişikliyi, Mənzil Təsərrüfatı və Şəhərsalmanın İnkişafı üzrə nazirlərin toplantısında iştirak edəcək.

Cənab Prezident, söz verdiyimiz kimi, biz BMT-nin Məskunlaşma Proqramının Azərbaycan üçün ölkə proqramı sənədini hazırlamışıq və mən bu sənədi bu gün Sizə təqdim edəcəyəm. İcazə verin, bu sənədin hazırlanmasına töhfəsini vermiş Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədrinə və müxtəlif nazirliklərə təşəkkürümü bildirim. BMT-nin Azərbaycanda rezident-əlaqələndiricisi, mənim bacım Vladanka Andreyevaya da böyük minnətdarlığımı bildirirəm. O, BMT-nin ölkə üzrə heyətindən gələn dəstəyin əlaqələndirilməsini təmin edib.

BMT-nin Məskunlaşma Proqramı şəhərsalma nöqteyi-nəzərindən daha yaxşı gələcək qurmaq, şəhər və icmaları yenidən yaratmaq üçün milli səylərə qoşulmağı səbirsizliklə gözləyir. BMT-nin Məskunlaşma Proqramının Katovitsedə keçirilən Dünya Şəhərsalma Forumunda təqdim edilmiş 2022-ci il üzrə Dünya Şəhərləri hesabatında göstərilir ki, bəşəriyyət yolayrıcındadır. Şəhərsalmanın qarşısının alınması mümkün olmayan meqatrend olmasına baxmayaraq, inteqrasiya edilmiş planlaşdırma, mərkəzi, yerli və regional hökumətlər səviyyəsində çoxşaxəli əməkdaşlıq olmadan bizim şəhərsalma nöqteyi-nəzərindən gələcəyimiz qaranlıq görünür. Buna görə də mən Zati-aliləri Prezident Əliyevə I Azərbaycan Milli Şəhərsalma Forumuna himayədarlıq etdiyinə görə çox minnətdaram. Sizin bu gün burada iştirakınız yeni şəhərsalma gündəliyinin bütün tərəfdaşlarına dayanıqlı şəhərsalmaya aid siyasət tövsiyələrini müzakirə və tərtib etməyə imkan verən bu platformanı daha yüksək səviyyəyə qaldırıb. Buraya ziyalılar, özəl sektor, vətəndaş cəmiyyəti, gənclər, qadınlar və yerli icmalar daxildir. Mən onları bizim BMT-də ümumi gündəliyimiz çərçivəsində yeni şəhərsalma gündəliyinin icrasına dəstək məqsədilə tərəfdaşlıqlar yaratmağa və hərəkətlərini bəyan etməyə çağırıram. Ağdamı yenidən bərpa etmək üçün sadiqliyə və ayrılmış ehtiyatlara, həqiqətən də, heyranam. Əminəm ki, özümüzü bu məqsədə həsr etsək, biz Zati-aliləri cənab Prezidentin heç kimin, heç bir yerin urbanizasiyaya məruz qalmış dünyada geridə qalmamasına dair baxışının reallaşdırılmasını təmin edə bilərik. Təşəkkür edirəm.

❖ ❖ ❖

Forum işini sessiyalarla davam etdirib.

Qeyd edək ki, 44 ölkədən 130-dan çox nümayəndənin, ümumilikdə isə 400 nəfərdən çox insanın qatıldığı I Azərbaycan Milli Şəhərsalma Forumu şəhərlərin bərpası ilə bağlı beynəlxalq və çoxtərəfli əməkdaşlıq üçün yeni imkan yaradacaq və şəhər ərazilərində böhranların aradan qaldırılmasına dair çətinliklərin müəyyən edilməsi, həllərin müzakirəsi ilə bağlı bilik və təcrübə mübadiləsi aparmaq üçün platforma rolunu oynayacaq. Ölkəmizdə ilk dəfə məhz Ağdam şəhərində keçirilən I Azərbaycan Milli Şəhərsalma Forumu şəhərsalma sahəsində dünyanın müxtəlif ölkələrindən olan sahə mütəxəssislərinin təcrübələrinin bölüşülməsi və dayanıqlı inkişafın təmin edilməsi üçün əməkdaşlıq əlaqələrinin genişləndirilməsi baxımından da nadir və uğurlu platformadır.

Xatırladaq ki, bu il iyunun 27-də Polşanın Katovitse şəhərində keçirilmiş Ümumdünya Şəhər Forumunun "Daha yaxşı gələcək naminə şəhərlərimizi dəyişdirək" mövzusunda 11-ci sessiyasında videoformatda çıxış edən Prezident İlham Əliyev bəyan etmişdi ki, Azərbaycan Ümumdünya Şəhər Forumunun növbəti sessiyalarının birinə evsahibliyi etmək arzusundadır və buna hazırdır.

Ümumdünya Şəhər Forumu BMT-nin Məskunlaşma Proqramı (UN-HABITAT) tərəfindən iki ildən bir keçirilir.



# Maimuna Mohd ŞƏRİF: "Azad olunmuş ərazilərdə genişmiqyaslı şəhərsalma və yenidənqurma işlərinin miqyasından və sürətindən heyranam"

*Əvvəli 1-ci səh.*

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı BMT-nin Məskunlaşma Proqramı ilə Azərbaycan arasında əməkdaşlıqdan məmnunluğunu bildirdi. Bu ilin martında xanım Maimuna Mohd Şərifin Azərbaycana səfəri çərçivəsində keçirilmiş görüş zamanı müzakirə olunan məsələlərin reallaşdırılması istiqamətində əldə edilən irəliləyişləri müsbət qiymətləndirən Prezident İlham Əliyev Azərbaycanın BMT-nin Məskunlaşma Proqramı ilə hərtərəfli əməkdaşlığın inkişafında maraqlı olduğunu qeyd etdi.

BMT-nin Məskunlaşma Proqramının icraçı direktoru xanım Maimuna Mohd Şərif yenidən Azərbaycanda olmaqdan məmnunluğunu bildirdi və Milli Şəhərsalma Forumunun yüksək səviyyədə keçirilməsinə görə təbriklərini çatdırdı. Azərbaycanla Məskunlaşma Proqramı arasında əməkdaşlığın hərtərəfli qaydada inkişaf etdiyini vurğulayan Maimuna Mohd Şərif Prezident İlham Əliyevin Polşanın Katovitse şəhərində Ümumdünya Şəhər Forumunun 11-ci sessiyasındakı çıxışını məmnunluqla xatırlatdı, UN-HABITAT-ın Nyu Yorkda keçirilən toplantısında, həmçinin Katovitsedəki tədbirdə Azərbaycan nümayəndə heyətinin fəal iştirakını yüksək qiymətləndirdi. O, Azərbaycan hökumətinin UN-HABITAT-ın fəaliyyətinə verdiyi dəstəyə, o cümlədən könüllü maliyyə töhfəsinə görə dərin təşəkkürünü ifadə etdi.

Azərbaycanın işğaldan azad olunmuş ərazilərdə genişmiqyaslı şəhərsalma və yenidənqurma fəaliyyəti həyata keçirdiyinə toxunan BMT-nin Məskunlaşma Proqramının icraçı direktoru həmin ərazilərdə görülən işlərin miqyasından və sürətindən heyranlığını ifadə etdi, qısa zaman ərzində ölkəmizin şəhərsalma sahəsində müasir yanaşmalar tətbiq edərək belə nailiyyətlər qazanmasını xüsusi vurğuladı. O, həmçinin UN-HABITAT-ın bu prosesdə Azərbaycana dəstək verməyə hazır olduğunu bildirdi və Azərbaycan üzrə hazırlanmış layihə sənədini dövlətimizin başçısının diqqətinə çatdırdı.

Prezident İlham Əliyev Azərbaycanın UN-HABITAT-la əməkdaşlığı bundan sonra da genişləndirəcəyini və proqramın fəaliyyətinə dəstək göstərəcəyini bildirdi. Dövlətimizin başçısı Milli Şəhərsalma Forumunun ölkəmizdə illik əsasda keçiriləcəyini qeyd etdi.

Sonda qonaq məskunlaşma üzrə ölkə proqramı sənədini - Azərbaycan Respublikasında BMT-nin Məskunlaşma Proqramı ilə əməkdaşlıq strategiyasını dövlətimizin başçısına təqdim etdi.

# Azərbaycan Prezidenti: "Biz verdiyimiz bütün vədlərə həmişə sadiq olmuşuq, xalqa nə vəd vermişiksə, onu yerinə yetirmişik"

"İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin 121-ci kitabı çapdan çıxıb. AZƏRTAC xəbər verir ki, çoxcildliyin yeni kitabındakı materiallar 2022-ci ilin iyul-sentyabr aylarını əhatə edir.




İyul ayı ölkəmizin həyatında, eyni zamanda ilin birinci yarısında görülmüş işlərə yekun vurulması ilə əlamətdardır. Prezident İlham Əliyev bu ilin altı ayının yekunlarına həsr olunmuş müşavirədə daxili və xarici siyasətin uğurlu nəticələrindən bəhs edərək deyib: "Gələn il görüləcək işlər əminəm ki, ölkəmizi daha da gücləndirəcək. Biz verdiyimiz bütün vədlərə həmişə sadiq olmuşuq, vədlərə əməl etmişik. Azərbaycan xalqına nə vəd vermişiksə, onu yerinə yetirmişik - bütün sahələrdə, o cümlədən iqtisadi və sosial sahədə. Əminəm ki, biz bundan sonra da həmişə öz sözümüzə sadiq olacağıq, istədiyimizə nail olacağıq. Arzumuz da odur ki, ölkəmiz güclənsin, xalqımız daha yaxşı yaşasın".

Yeni kitab Prezident İlham Əliyevin müşavirədəki nitqinin mətni ilə açılır.

Dövlət başçısının Türkiyəyə işgüzar səfəri zamanı Prezident Rəcəb Tayyib Ərdoğanla, eləcə də Konya şəhərində keçirilmiş V İslam Həmrəyliyi Oyunlarında ölkəmizi təmsil edən idmançılarla görüşlərinə, islamiadanın açılışında iştirakına dair materiallar da bu nəşrdə toplanıb.

Prezident İlham Əliyev iyul ayında Sumqayıt Kimya Sənaye Parkında yeni istehsal müəssisələrinin açılış və təməlqoyma, 2 saylı Sumqayıt Regional "ASAN xidmət" Mərkəzinin istifadəyə verilməsi mərasimlərində iştirak edib. Avqust ayında isə Qobustan, İsmayıllı və Ağsu rayonlarında olub. İsmayıllıda "Basqal Resort & SPA" hotelinin açılış mərasimində iştirak edib, Basqal Dövlət Tarix-Memarlıq Qoruğu ərazisində aparılan və icrası nəzərdə tutulan tikinti-bərpa işləri ilə tanış olub, Basqal qəsəbəsində Azərbaycan televiziyasına müsahibə verib. Bu səfərlərdən bəhs edən xəbərlər, eləcə də müsahibənin mətni yeni kitabda yer alıb.

Oxucu bu kitabda Prezident İlham Əliyevin Avropa Komissiyasının prezidenti Ursula Fon der Lyayen ilə görüşü, "Azərbaycan Respublikası ilə Avropa Komissiyası tərəfindən təmsil olunan Avropa İttifaqı arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu"nun imzalanması mərasimi barədə materiallarla, habelə mətbuata bəyanatların mətni ilə tanış ola bilər.

Avqustun 24-də Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev Azərbaycana səfər edib. Səfər çərçivəsində Prezident İlham Əliyevin qazaxıstanlı həmkarı ilə təkbətək və geniş tərkibdə görüşləri keçirilib. Dövlət başçısına Qazaxıstanın "Altın kıran" - "Qızıl qartal" ali ordeni təqdim olunub, iki ölkə arasında sənədlər imzalanıb. Daha sonra prezidentlər mətbuata bəyanat veriblər. Bütün bunlarla yeni nəşrdə tanış olmaq mümkündür.

Yeni kitaba dövlət başçısının İtaliya Respublikasına işgüzar səfəri, İtaliya-Azərbaycan Universitetinin yaradılması ilə əlaqədar imzalanmış sənədlərin mübadiləsi mərasimi barədə informasiyalar, dövlət başçısının mərasimdəki çıxışının mətni də daxil edilib.

"Azərnəşr" tərəfindən buraxılan çoxcildliyin 121-ci kitabının hazırlanmasında Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) materiallarından istifadə olunub.

# Ağdam şəhərinə ilkin mərhələdə 10 min nəfər köçürüləcək



Ağdam şəhərinə ilkin mərhələdə təxminən 10 min nəfərin köçürülməsi nəzərdə tutulur.

AZƏRTAC xəbər verir ki, bu sözləri Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov deyib.

O bildirib ki, Ağdamda bərpa-tikinti, quruculuq işləri ilə yanaşı, iş yerlərinin açılması ilə bağlı fəaliyyət də göstərilir. Bərpa prosesində yaradılacaq yeni iş yerləri potensial iş yerləridir. Bundan başqa, həm kənd təsərrüfatında, həm də yüngül sənayedə, qida sənayesində müəyyən iş yerləri yaradılacaq.

# Ağdama ilkin mərhələdə 2025-ci ildə əhalinin köçürülməsinin başlanması gözlənilir

Ağdama ilkin mərhələdə 2025-ci ildə əhalinin köçürülməsinin başlanması gözlənilir.

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov deyib.

O bildirib ki, Ağdama Böyük qayıdış çərçivəsində layihələrin icrasının 2024-cü ilin sonlarına yekunlaşdırılması nəzərdə tutulub.

# Baş nazir Əli Əsədov Rusiyaya işgüzar səfər edib



Sentyabrın 5-də Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov Rusiya hökumətinin sədri Mixail Mişustinin dəvəti ilə Rusiyaya işgüzar səfər edib.

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, səfər çərçivəsində Baş nazir Moskva şəhərində 2-ci Xəzər İqtisadi Forumunda iştirak edəcək, həmçinin bir sıra Xəzəryanı ölkələrin hökumət başçıları ilə ikitərəfli görüşlər keçirəcək.

# Azərbaycan Milli Şəhərsalma Forumunda Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında aparılan bərpa və quruculuq işləri təqdir olunub

## Şəhərsalma sahəsində nadir platforma olan foruma 44 ölkədən 130-dan çox nümayəndə, ümumilikdə isə 400-dən çox iştirakçı qatılıb







Oktyabrın 5-də BMT-nin Məskunlaşma Proqramı (UN-HABITAT) və Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin birgə əməkdaşlığı, ADA Universitetinin təşkilati dəstəyi ilə Ağdamda "Dayanıqlı İnkişaf Məqsədləri" və "Yeni Şəhər Gündəliyi" - postmünaqişə dövründə bərpa və yenidənqurmanın aparıcı qüvvəsi kimi" mövzusunda Azərbaycan Milli Şəhərsalma Forumu keçirilib.

AZƏRTAC xəbər verir ki, forumun rəsmi açılışından sonra "Şəhər böhranına cavab və bərpa" adlı xüsusi sessiya təşkil olunub. Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev işğaldan azad olunmuş ərazilərin münaqişədən sonra bərpası istiqamətində görülən işlərə toxunaraq bildirib ki, Ağdam forumunun ərsəyə gəlməsində UN-HABITAT-ın xüsusi rolu var.

"Ağdam forumunun UN-HABITAT-ın təşəbbüsü ilə qeyd olunan qlobal "Urban October" - Şəhərsalma Ayı çərçivəsində keçirilməsi də çox əlamətdardır. İnanırıq ki, bu tədbir iştirakçılarının yüksək peşəkarlığı sayəsində "Urban October" çərçivəsində bütün dünyada keçirilən tədbirlər silsiləsinə öz layiqli töhfəsini verəcək, inkişafında birlikdə iştirak etdiyimiz dünya şəhərləri isə hər kəs üçün daha rahat, daha təhlükəsiz olacaq, sakinlərin daha yüksək həyat keyfiyyəti üçün onlara müasir şəhərsalma mühiti təqdim etməyə kömək edəcək. Bu gün və sabah biz birlikdə şəhərsalmanın və məskunlaşmanın bir çox aspektlərini müzakirə edəcəyik", - deyə komitə sədri vurğulayıb.

Anar Quliyev qeyd edib ki, Azərbaycan ərazisinin 20 faizi 30 ilə yaxın bir dövrdə işğala məruz qalması nəticəsində 900-dək yaşayış məntəqəmiz tamamilə dağıdılıb, 1 milyon hektardan çox torpaq kənd təsərrüfatı dövriyyəsindən çıxarılıb, yüzlərlə mədəni irs obyekti məhv edilib. Ölkəmizin ərazi bütövlüyünü yalnız 2020-ci ildə hərbi yolla bərpa etmək mümkün oldu. İndi qarşıda duran əsas məsələ işğaldan azad olunmuş ərazilərin tezliklə bərpası və ölkə həyatına tam inteqrasiyası, doğma torpaqlarından didərgin düşmüş azərbaycanlıların qayıdışı və ərazilərdə dayanıqlı icmaların yaradılmasıdır.

Komitə sədri bildirib ki, Azərbaycan dünya təcrübəsi də nəzərə alınmaqla, işğaldan azad olunmuş ərazilərin bərpası prosesində qarşıya çıxan məsələləri müəyyən ardıcıllıqla, sistemli şəkildə həll edir. Birinci mərhələdə idarəetmə və təhlükəsizlik məsələləri - ərazilərin minalardan və partlamamış sursatlardan təmizlənməsi, dövlət sərhədi üzrə nəzarətin təşkili, dövlət qurumlarının fəaliyyətinin bərpası təmin edilir. İkinci mərhələdə baza infrastrukturunun yaradılması məsələləri - magistral nəqliyyat və mühəndis kommunikasiyalarının, meliorasiya sistemlərinin baş qurğularının tikintisi təmin olunur. Üçüncü mərhələyə sosial məsələlər - yaşayış evləri, təhsil və səhiyyə müəssisələri, mədəni-məişət xidməti obyektlərinin tikilməsi daxildir. Dördüncü mərhələ isə genişmiqyaslı iqtisadi məsələlər - məcburi köçkünlərin repatriasiyası prosesi ilə paralel iş yerlərinin yaradılmasını və iqtisadi fəaliyyət obyektlərinin istifadəyə verilməsini nəzərdə tutur.

"Hazırda birinci və ikinci mərhələlərə müvafiq məsələlərin həlli üzrə böyük işlər görülüb və bu işlər intensiv davam edir. Hədəfimiz işğaldan azad olunmuş ərazilərdə bərpa-quruculuq işlərinin qısa zamanda tamamlanması və soydaşlarımızın öz torpaqlarına geri dönüşünün təmin edilməsidir", - deyə A.Quliyev vurğulayıb.

Komitə sədri qeyd edib ki, işğaldan azad olunmuş bütün ərazilərin ümumi planının qısa müddət ərzində hazırlanması Dövlət Şəhərsalma və Arxitektura Komitəsi tərəfindən təmin olunub. Ağdam və bir çox digər şəhər və kəndlərin baş planlarının hazırlanması artıq başa çatdırılıb, yüzlərlə yaşayış məntəqələrinin layihələndirilməsi isə davam etdirilir. Baş planların hazırlanması zamanı müasir "ağıllı şəhər" yanaşmaları, "yaşıl enerji" və təmiz ətraf mühit, sənaye və kənd təsərrüfatının kompleks inkişafı, turizm potensialının geniş reallaşdırılması və digər bu kimi məsələlər prioritet götürülüb. Dövlət Şəhərsalma və Arxitektura Komitəsi bu sahədə beynəlxalq təcrübənin öyrənilməsinə, qabaqcıl təcrübəsi olan xarici dövlətlərlə, regional və beynəlxalq təşkilatlarla əməkdaşlığa xüsusi önəm verir. Bu təşkilatlardan biri də BMT-nin Məskunlaşma Proqramı - UN-HABITAT-dır. Komitə bu təsisatla daha sıx əməkdaşlıq edir.

BMT-nin Yaşayış Məskənləri Proqramı üzrə məsul şəxsi Anna Soave çıxış edərək münaqişədən sonra bərpa məsələləri ilə bağlı problemlərdən danışıb.

Ağdamın baş planı barədə məlumat verən Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov bildirib ki, Azərbaycan dövləti hazırda böyük bir layihə həyata keçirir. Bu ilin sonuna qədər baza infrastrukturu ilə bağlı əsas layihələr yekunlaşacaq. Gələn ildən sosial təsisatlar, yəni həm şəhərin mərkəzi, həm də ətraf kəndlərin bərpa və yenidənqurma işlərinin başlanması üçün tələb olunan əsas layihələrə start veriləcək, intensiv tikinti işləri həyata keçiriləcək.

Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədr müavini İlqar İsbatov işğaldan azad olunmuş torpaqların ərazi planlaşlaşdırılmasından söz açıb. Onun sözlərinə görə, gələcəkdə Ağdamdan Ağcabədiyə dəmir yolu xəttinin çəkilişi və bunun Horadiz-Ağbənd dəmir yolu xəttinə inteqrasiyası planlaşdırılır. İşğaldan azad edilmiş ərazilərin texniki-iqtisadi göstəriciləri aidiyyəti qurumlarla birgə hazırlanıb.

Daha sonra çıxış edən iqtisadiyyat nazirinin müavini Elnur Əliyev bildirib ki, hazırda dünya əhalisinin 55 faizi şəhərlərdə yaşayır. 2050-ci ilə qədər bu rəqəm 70 faizə çatacaq. Dünyada urbanizasiya prosesi davam etdikcə dayanıqlı inkişafa nail olmaq şəhərlərin uğurlu idarə edilməsindən asılı olacaq. Bu baxımdan həm şəhər, həm də kənd əhalisinin həyatını yaxşılaşdırmaq üçün inteqrasiya olunmuş siyasət yürüdülməsinə ehtiyac var.

Nazir müavini diqqətə çatdırıb ki, Azərbaycanın uzunmüddətli inklüziv inkişaf modelinə uyğun olaraq işğaldan azad edilmiş ərazilərdə müasir istehsal infrastrukturunun yaradılması, müasir texnologiyaların tətbiqinə yönəlmiş investisiyaların cəlb edilməsi, bölgənin potensialının effektiv reallaşdırılması əsas hədəfdir. İşğaldan azad edilmiş ərazilərdə yaradılan sənaye parklarında bu məsələlərə xüsusi diqqət yetirilir.

Böyük Britaniyanın "Champan Taylor" şirkətinin direktoru Marselina Zielinska Şuşanın baş planının hazırlanmasında iştiraklarından söz açıb, görülən sürətli bərpa və yenidənqurma işlərinə heyran qaldıqlarını söyləyib.

BMT-nin Azərbaycanda rezident-əlaqələndiricisi Vladanka Andreyeva deyib ki, təşkilatın Azərbaycandakı nümayəndəliyi iqtisadiyyat, ətraf mühit və Böyük qayıdış proqramına dəstək verməyə hazırdır. Bildirib ki, Azərbaycanın işğaldan azad edilmiş ərazilərində bərpa və yenidənqurma ehtiyaclarının Bərpa və Sülh Quruculuğunun Qiymətləndirilməsi metodologiyası əsasında qiymətləndirilməsi üzrə BMT, Avropa İttifaqı, Dünya Bankının ekspertlərindən ibarət missiyası bu ilin martında Azərbaycana səfər edib, Ağdam rayonunda da müvafiq işlər aparıb.

Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin (ANAMA) sədr müavini Samir Poladov diqqətə çatdırıb ki, hazırda azad olunmuş ərazilərdə 390 min 709 mina və partlamamış hərbi sursat barədə məlumatlar var. Lakin bu da tam dəqiq deyil.

"Ermənistan beynəlxalq təzyiq nəticəsində minaların yeri ilə bağlı bəzi məlumatları verib. Lakin bunlara xəritə demək olmaz. Bu məlumatların yalnız 25 faizi dəqiqdir. İşğaldan azad edilmiş torpaqlarda 148 min hektar ərazi xüsusilə təhlükəli hesab olunur. Çünki həmin ərazilərdə daha çox mina və digər partlayıcı sursatlar mövcuddur. Bu günədək cəmi 55 min hektar sahə minalardan təmizlənib", - deyə sədr müavini bildirib.

Qeyd edək ki, I Milli Şəhərsalma Forumu 44 günlük Vətən müharibəsi zamanı işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında aparılan şəhərsalma, bərpa və quruculuq işlərinin, burada tətbiq olunan texnologiyaların, unikal təcrübənin və Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında xüsusi əhəmiyyət kəsb edir. Forumun gedişində Azərbaycan dövlətinin Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında həyata keçirdiyi sürətli bərpa-quruculuq işləri iştirakçılar tərəfindən təqdir olunub.

Qırx dörd ölkədən 130-dan çox nümayəndənin, ümumilikdə isə 400 nəfərdən çox iştirakçının qatıldığı Azərbaycan Milli Şəhərsalma Forumu şəhərsalma sahəsində dünyanın müxtəlif ölkələrindən olan sahə mütəxəssislərinin təcrübələrinin bölüşülməsi və dayanıqlı inkişafın təmin edilməsi üçün əməkdaşlıq əlaqələrinin genişləndirilməsi baxımından da nadir və uğurlu platformadır.

Forum oktyabrın 6-da Bakıda, ADA Universitetində öz işini davam etdirəcək.

# Milli Məclisin Sədri Sahibə Qafarova Cakartada Namibiya Milli Şurasının Sədri ilə görüşüb



**Milli Məclisin Sədri Sahibə Qafarova oktyabrın 5-də İndoneziyaya işgüzar səfəri çərçivəsində paytaxt Cakartada Namibiya Respublikası Milli Şurasının Sədri Lukas Sinimbo Muha ilə görüşüb.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, spiker Sahibə Qafarova Azərbaycan ilə Namibiya arasında ikitərəfli münasibətlərin qısa tarixə malik olmasına baxmayaraq, ölkələrimiz arasında qarşılıqlı faydalı ikitərəfli münasibətlərin inkişafı üçün böyük potensial olduğunu bildirib.

Milli Məclisin Sədri ölkələrimizin beynəlxalq platformalarda əməkdaşlığından razılığını ifadə edərək, Qoşulmama Hərəkatı çərçivəsində də faydalı əlaqələrin mövcudluğunu diqqətə çatdırıb. O xatırladıb ki, 2019-cu ilin 23-26 oktyabrında Bakıda keçirilən Qoşulmama Hərəkatına üzv ölkələrin Dövlət və Hökumət Başçılarının 18-ci Zirvə Toplantısı çərçivəsində Namibiya Respublikasının Prezidenti Hage Qotfrid Geinqobun rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycanda səfərdə olub. Spiker həmçinin Namibiyanın Azərbaycanın Qoşulmama hərəkatının sədri kimi hərəkatın parlament ölçüsünün yaradılması ilə bağlı təşəbbüsünə dəstəyini vurğulayaraq, qeyd edib ki, bu ölkənin parlament nümayəndə heyəti Parlament Şəbəkəsinin 2021-ci ilin noyabrında Madriddə keçirilən təsis iclasında iştirak edib. Namibiya Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin Bakı Konfransında da təmsil olunub.

Azərbaycan parlamentinin spikeri Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin sədri kimi Bakı konfransının nəticələri, təşkilatın qarşısında duran vəzifələr, planlaşdırılan tədbirlər barədə məlumat verib.

Namibiya Respublikası Milli Şurasının Sədri Lukas Sinimbo Muha Azərbaycan parlamentinin sədrini səmimiyyətlə salamlayaraq, görüşdən məmnunluğunu ifadə edib. O, ölkəsinin Azərbaycanla əlaqələrin genişləndirilməsində maraqlı olduğunu vurğulayaraq, bu kontekstdə qanunverici orqanlar arasında əməkdaşlığın rolunu qeyd edib.

Lukas Sinimbo Muha beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıqdan danışaraq qeyd edib ki, BMT, Parlamentlərarası İttifaq, Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi kimi beynəlxalq platformalarda əməkdaşlıq onun ölkəsi üçün olduqca vacibdir. O cümlədən Namibiya Qoşulmama Hərəkatı ilə əməkdaşlığa çox böyük əhəmiyyət verir və təşkilatın beynəlxalq münasibətlər sistemində aktiv rolunu yüksək qiymətləndirir.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

# Milli Məclisin Sədri Sahibə Qafarova Cakartada "Böyük iyirmilik" Ölkələrinin Parlament Sədrlərinin 8-ci Sammitində çıxış edib





Milli Məclisin Sədri Sahibə Qafarova oktyabrın 5-də İndoneziyanın paytaxtı Cakarta şəhərində keçirilən "Böyük iyirmilik" (G20) Ölkələrinin Parlament Sədrlərinin 8-ci Sammitində çıxış edib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Sahibə Qafarova ilk olaraq tədbirdə iştiraka dəvətinə görə İndoneziya Respublikası Nümayəndələr Palatasının Sədri Puan Maharaniyə təşəkkürünü bildirərək, sammitin çox əhəmiyyətli və aktual mövzulara həsr olunduğunu diqqətə çatdırıb.

Spikerin sözlərinə görə, yoxsulluq, humanitar böhran və münaqişələr, sosial bərabərsizliklər, iqlim dəyişikliyi və digər bu kimi müasir çağırışları təklikdə həll etmək mümkün deyil. COVID-19 pandemiyasının bütün dünyaya göstərdiyi mühüm bir məsələ də odur ki, qlobal çağırışlar qlobal həllər tələb edir və kollektiv səylər, birgə fəaliyyət son dərəcə vacibdir. Parlamentarilər, xalqlarımızın nümayəndələri olaraq biz, hamımızı narahat edən problemlərin ən yaxşı həll yollarının tapılması ilə bağlı müzakirələrdə iştirak etməliyik. Parlament əməkdaşlıq platformaları daha yaxşı dünya naminə birgə işləmək öhdəliyimizin və əzmimizin sübutudur. Bu mənada G20 parlament sədrlərinin sammiti parlamentlərin oynaya biləcəyi rolu və bugünkü problemlərin həllinə töhfələrini müəyyən etmək üçün çox mühüm bir tədbirdir. O, parlamentariləri bir araya gətirmək və parlament-hökumət əməkdaşlığının müxtəlif aspektləri üzrə hərtərəfli müzakirələrin aparılması üçün mühüm çərçivədir.

Milli Məclisin Sədri Sahibə Qafarova çıxışında parlamentlərarası əməkdaşlığın yeni yaradılmış daha bir çərçivəsi - Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi haqqında geniş məlumat verib. Spiker qeyd edib ki, Parlament Şəbəkəsinin yaradılması Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qoşulmama Hərəkatının Sədri kimi irəli sürdüyü təşəbbüsün nəticəsidir. Bu, Azərbaycanın güclü dəstəyinin və parlamentlərarası əməkdaşlığa sadiqliyinin göstəricisi olmuşdur. Azərbaycan Qoşulmama Hərəkatına üzv ölkələrin parlamentariləri arasında qarşılıqlı əlaqə və əməkdaşlığı genişləndirməyi və dərinləşdirməyi təklif edib. Ötən ilin noyabrında Madriddə biz Parlamentlərarası İttifaqın 143-cü Assambleyası çərçivəsində Qoşulmama Hərəkatının Parlament Şəbəkəsini təsis etdik. Bu ilin 30 iyun - 1 iyul tarixlərində isə Azərbaycanın evsahibliyi ilə keçirilən Bakı konfransı Parlament Şəbəkəsinin inkişafında mühüm mərhələni təşkil etmişdir. 40-dan çox üzv parlamentin və 8 beynəlxalq parlament təşkilatının iştirakı ilə Parlament Şəbəkəsinin Əsasnaməsi, həmçinin rəsmi loqosu və bayrağı qəbul olunmuş, qarşıdakı üç il üçün şəbəkənin sədri və sədr müavinləri seçilmişdir. Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin növbəti konfransının gələn ilin martında Manamada Parlamentlərarası İttifaqın 146-cı Assambleyası çərçivəsində keçirilməsi planlaşdırılır. Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin hazırkı sədri kimi Sahibə Qafarova inamını ifadə edib ki, Parlament Şəbəkəsi çoxtərəfliliyi, dialoqu və parlamentlərarası əməkdaşlığı təşviq etmək üçün mühüm platformaya çevriləcək. O deyib ki, Parlament Şəbəkəsi digər parlament təşkilatları ilə fəal əməkdaşlıq edərək ümumi məqsədlərə töhfə verməyə hazırdır.

Milli Məclisin Sədri diqqətə çatdırıb ki, ölkəmizin sədrliyi ilə Qoşulmama Hərəkatının institusional inkişafı istiqamətində də mühüm addımlar atılıb. Bu ilin iyul ayında Gənclər Şəbəkəsinin bazasında Qoşulmama Hərəkatının Gənclər Təşkilatının təsis olunması və Nyu Yorkda Qoşulmama Hərəkatının Dəstək Ofisinin yaradılması təşəbbüsü də Azərbaycanın Qoşulma Hərəkatının institusional inkişafı istiqamətində atdığı addımlardandır. Digər tərəfdən, Azərbaycan Respublikası Prezidentinin təşəbbüsü ilə 2020-ci ilin dekabr ayında COVID-19 pandemiyası ilə mübarizəyə dair BMT Baş Assambleyasının xüsusi sessiyasının keçirilməsi, COVID-19 peyvəndlərinə bərabər, əlverişli, vaxtında və universal çıxışın təmin edilməsinə dair qətnamələrin qəbulu, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin pandemiyadan sonrakı dövr üçün qlobal tədbirlərə dair tövsiyələrin hazırlanmasına diqqəti yönəldən COVID-19-dan sonra Qlobal Bərpa üzrə BMT-nin Yüksək Səviyyəli Panelinin yaradılması təşəbbüsü ilə çıxış etməsi ölkəmizin beynəlxalq əməkdaşlığa töhfələrinin, qlobal problemlərin həllinə birgə yanaşmanın vacibliyinə verdiyi önəmin sübutudur.

Sahibə Qafarova vurğulayıb ki, əgər biz beynəlxalq əhəmiyyət kəsb edən problemlərin həllinə yönəlmiş kollektiv səylərin uğurla nəticələnməyinə nail olmaq istəyiriksə, beynəlxalq institutların səmərəliliyini gücləndirməli, qəbul edilmiş sənədləri həyata keçirməli, ikili standartlara və selektiv yanaşmalara son qoymalıyıq. Milli Məclisin Sədri təəssüflə qeyd edib ki, bir çox hallarda ölkələr bu sərt reallıqdan əziyyət çəkirlər. Azərbaycan da öz təcrübəsi ilə bunun şahidi olub. O xatırladıb ki, Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinin 20 faizi 30 ilə yaxın Ermənistanın işğalı altında olub. Ermənistan bu ərazilərdə etnik təmizləmə həyata keçirib və nəticədə bir milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkünə çevrilib. Münaqişə ilə əlaqədar həm mülki, həm də hərbçi olmaqla 4 minə yaxın Azərbaycan vətəndaşı hələ də itkin kimi qeydiyyatdadır. İşğal illərində Ermənistan bütün şəhər və kəndlərimizi qəsdən dağıdıb, Azərbaycanın bütün tarixi, mədəni və dini abidələrini vandalizmə məruz qoyub. 1993-cü ildə BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi dörd qətnamədə, BMT Baş Assambleyasının, Qoşulmama Hərəkatının, ATƏT-in, İslam Əməkdaşlıq Təşkilatının və digər müvafiq beynəlxalq təşkilatların qətnamə və qərarlarında Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılması tələb olunsa da, Ermənistan onlara məhəl qoymamışdır. Təhlükəsizlik Şurasının bəzi qətnamələri bir neçə gün ərzində yerinə yetirildiyi halda, Ermənistanın işğalçılıq siyasəti ilə bağlı sənədlər 27 il ərzində icra olunmamış qalmışdır. Təəssüf ki, beynəlxalq təşkilatlar tərəfindən işğalçı dövlətə qarşı heç bir sanksiya tətbiq edilməmişdir. Azərbaycan BMT Təhlükəsizlik Şurasının qətnamələrini, beynəlxalq hüququn norma və prinsiplərini öz gücü hesabına yerinə yetirərək, ərazi bütövlüyünü və tarixi ədaləti bərpa etmişdir. 2020-ci ilin sentyabr ayında Ermənistanın hərbi təxribatları nəticəsində başlayan 44 günlük müharibədən sonra işğalçı dövlət noyabr ayında kapitulyasiya aktını imzalamaq məcburiyyətində qalmışdır.

Spiker Sahibə Qafarova diqqətə çatdırıb ki, postmünaqişə dövründə Azərbaycan regionda uzunmüddətli sülh və sabitliyin təmin edilməsi istiqamətində səylərini davam etdirir. Azərbaycan Ermənistana münasibətlərin normallaşdırılmasını və beynəlxalq hüququn 5 prinsipi əsasında sülh sazişinin imzalanmasını təklif edib. Bir-birinin suverenliyinin və ərazi bütövlüyünün tanınması, sərhədlərin delimitasiyası və demarkasiyası regionda sülh və sabitliyə gətirib çıxaracaq. Lakin Ermənistan beynəlxalq səylərlə aparılan danışıqlarda destruktiv mövqe nümayiş etdirir, regionda kommunikasiya və nəqliyyat yollarının açılması prosesinə maneələr yaradır. Ermənistanın sonuncu dəfə - bu il sentyabrın 13-də törətdiyi hərbi təxribatlar da normallaşma prosesinə əngəl törədir. Bu cür davranışlar pislənilməlidir. İndi ən vacib məsələ münasibətlərin normallaşması prosesini pozacaq hərəkətlərdən çəkinməkdir. Çünki bu, regionda uzunmüddətli sülh və sabitliyin təmin olunmasının yeganə yoludur.

*"Azərbaycan"*

# Milli Məclisin Sədri Sahibə Qafarova İndoneziya Respublikasının Nümayəndələr Palatasının spikeri ilə görüşüb



Xəbər verildiyi kimi, Milli Məclisin Sədri Sahibə Qafarova "Böyük İyirmilik" ölkələrinin Parlament Sədrlərinin 8-ci Sammitində iştirak etmək üçün İndoneziya Respublikasının paytaxtı Cakarta şəhərində səfərdədir.

Səfər çərçivəsində Sahibə Qafarova oktyabrın 5-də İndoneziya Respublikasının Nümayəndələr Palatasının Sədri xanım Puan Maharani ilə görüşüb.

Görüşdən məmnunluğunu ifadə edən Milli Məclisin Sədri Sahibə Qafarova onu G20 Parlament Spikerlərinin 8-ci Sammitinə dəvət etdiyinə görə Puan Maharaniyə təşəkkür edib. O, bu platformada həm Azərbaycan Respublikası parlamentinin spikeri, həm də Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin sədri kimi iştirak etdiyini vurğulayaraq, tədbirin müasir dünyada hər kəsi narahat edən çox aktual mövzulara həsr olunduğunu bildirib.

Parlamentin sədri bu il Azərbaycanla İndoneziya arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyinin qeyd olunduğunu söyləyib. Sahibə Qafarova müxtəlif səviyyələrdə qarşılıqlı səfərlərin iki dövlət arasında münasibətlərin inkişafına təkan verəcəyini deyib.

Dövlətlərimizin bir sıra mötəbər beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı faydalı əməkdaşlığından danışan Sahibə Qafarova dövlətlərimiz arasında münasibətlərin inkişafında parlamentlərarası əlaqələrin önəmli rol oynadığını qeyd edib. O, qanunvericilik orqanlarının səmərəli əməkdaşlığının daha da genişləndirilməsinin, həmçinin dostluq qrupları səviyyəsində əlaqələrin əhəmiyyətindən bəhs edib, bu əlaqələrin möhkəmlənməsində qarşılıqlı səfərlərin önəmli olduğunu qeyd edib. Milli Məclisin Sədri bildirib ki, deputatlarımız bir sıra beynəlxalq təşkilatların parlament qurumlarında, o cümlədən Parlamentlərarası İttifaq, İslam Əməkdaşlıq Təşkilatı Parlament Assambleyası, Asiya Parlament Assambleyası, Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi çərçivəsində səmərəli fəaliyyət göstərirlər.

Milli Məclisin spikeri ərazilərimizin Ermənistan tərəfindən işğalı dövründə İndoneziyanın BMT Baş Assambleyasının, İslam Əməkdaşlıq Təşkilatı və Qoşulmama Hərəkatının qəbul etdiyi qətnamələrə qoşulduğunu qeyd edərək, Azərbaycanın haqq işini dəstəkləməsini yüksək qiymətləndirib.

Söhbətdə Milli Məclisin Sədri Sahibə Qafarova İndoneziyanın Qoşulmama Hərəkatında Azərbaycanın təşəbbüslərini dəstəklədiyini də vurğulayıb.

İndoneziya Respublikasının Nümayəndələr Palatasının Sədri xanım Puan Maharani Milli Məclisin Sədri Sahibə Qafarovanı ölkəsində görməkdən məmnunluğunu ifadə edib. O, dövlətlərimiz arasında münasibətlərin yüksək səviyyədə olduğunu bildirib. Qeyd edib ki, İndoneziya Azərbaycanla bütün sahələrdə əlaqələrin inkişafında maraqlıdır. O, Azərbaycanın ölkəsi üçün xüsusi önəmə malik olduğunu qeyd edərək deyib ki, Azərbaycanın İndoneziyadakı səfirliyi Cənub-Şərqi Asiyada açılmış ilk səfirliyidir. İkitərəfli əlaqələrin hazırkı inkişafı məmnunluq doğurur. Puan Maharani ümidvar olduğunu bildirib ki, əlaqələrimiz inkişaf etməyə davam edəcək.

Söhbət zamanı Nümayəndələr Palatasının Sədri dövlətlərarası əlaqələrin möhkəmləndirilməsində hər iki ölkənin parlamentlərinin əhəmiyyətli rolundan danışıb. İndoneziya parlamentində Azərbaycanın Milli Məclisi ilə əlaqələrə önəm verildiyini bildirib. Qanunverici orqanların qarşılıqlı faydalı əməkdaşlığının, o cümlədən parlamentlərarası dostluq qrupları çərçivəsində əlaqələrin təcrübə və informasiya mübadiləsi baxımından vacibliyini qeyd edib. O deyib ki, dostluq qruplarının qarşılıqlı fəaliyyəti, təmas və görüşlərin sıxlaşdırılması əhəmiyyətlidir. Beynəlxalq təşkilatlarda da qarşılıqlı dəstəyi davam etdirəcəyik. Nümayəndələr Palatasının Sədri İndoneziya parlamentində fəaliyyət göstərən dostluq qrupunun Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə dəstək bəyanatlarını xatırladıb.

Puan Maharani deyib ki, Qoşulmama Hərəkatı Parlament Şəbəkəsi hərəkatın ruhuna, qarşısına qoyduğu hədəflərə uyğundur və İndoneziya şəbəkənin fəaliyyətini tam dəstəkləyir. Bu platforma bütün üzv ölkələr üçün olduqca faydalıdır.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

# Dünya Bankının nümayəndələri Milli Məclisdə olublar

Oktyabrın 5-də Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin bir qrup deputatı Dünya Bankının nümayəndələri ilə görüşüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, qonaqları salamlayan parlamentin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vüqar Bayramov ölkəmizin Dünya Bankı ilə əlaqələrə xüsusi önəm verdiyini qeyd edib. Vüqar Bayramov Azərbaycanın Dünya Bankı ilə iqtisadi sahədə standartların, xüsusilə də büdcə proseslərində standartların tətbiqi ilə bağlı əməkdaşlığını yüksək qiymətləndirərək ölkəmizdə büdcə və onun Milli Məclisdə qəbulu prosedurlarından söz açıb.

Görüşdə Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvləri Aydın Hüseynov və Məzahir Əfəndiyev Azərbaycanın Dünya Bankı ilə əməkdaşlığının tarixinə nəzər salaraq bu səmərəli əməkdaşlığın nəticələrini qeyd ediblər, büdcə sisteminin dayanıqlılığı ilə bağlı fikirlərini bölüşüblər.

Dünya Bankının nümayəndə heyətinin rəhbəri İan Halvdan Ross Xoksvort səmimi görüş üçün təşəkkürünü bildirərək təmsil etdiyi qurumun Azərbaycanla əməkdaşlığa sadiq olduğunu qeyd edib. İan Xoksvort və Dünya Bankının nümayəndəsi Mark Robinson Ortamüddətli Xərclər Çərçivəsi üzrə İnstitusional Potensialın İnkişafı Proqramının xüsusiyyətləri barədə danışıblar, proqramın 5 fəaliyyət istiqaməti üzrə görülən işlər haqqında məlumat veriblər və büdcə proseslərinin idarə olunması məsələləri ilə bağlı fikirlərini bölüşüblər.

Söhbətdə tərəfləri maraqlandıran digər mövzularda fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*




# Azərbaycan qlobal məsələlərdə ciddi təsir gücünə malikdir

## Ölkəmizin Avropada nüfuzu daha da yüksəlir

*Əvvəli 1-ci səh.*

Sözünə də imzası qədər dəyər verdiyini hər dəfə bəyan edən Azərbaycan Prezidenti üçün bunlar, sadəcə, vədlər deyil, son onilliklərdə tarixin sərt sınaqlarından çıxmış həqiqətlərdir. Eyni zamanda yeni tariximiz dövlət başçımızın irəli sürdüyü proqnozların, müəllifi olduğu qlobal təşəbbüslərin, mövcud reallıqlarla bağlı dəqiq qiymətləndirmələrinin zamanla necə özünü doğrultduğunu dəfələrlə sübuta yetirib. Ona görə də beynəlxalq tərəfdaşlar, xarici ölkələrin dövlət rəhbərləri əmindirlər ki, Prezident İlham Əliyevə istənilən məsələdə inanıb güvənmək, Azərbaycanla əməkdaşlıqdan yalnız böyük qarşılıqlı faydalar götürmək olar. Bu baxımdan, dövlətimizin rəhbərinin xarici ölkələrə səfərləri də Azərbaycanın xarici əlaqələrinin inkişafı və beynəlxalq tərəfdaşlıq münasibətlərinin genişləndirilməsi baxımından müstəsna əhəmiyyət kəsb edir. Çünki siyasət, diplomatiya hər nə qədər spesifik fəaliyyət sahəsi sayılsa da, onun da təməlində məhz alicənablıq, sözübütövlük, insani münasibətlər, prinsiplərə sadiqlik dayanır. Prezident İlham Əliyev bütün xarici səfərlərində ölkə rəhbərlərinin yüksək hörmətlə qarşıladığı, iştirak etdiyi beynəlxalq tədbirlərdə çıxışları, bəyanatları xüsusi diqqətlə izlənilən qlobal nüfuzlu liderdir.

Azərbaycan Prezidentinin bu günlərdə Bolqarıstana rəsmi səfəri, həmin ölkənin rəhbərliyi, biznes dairələri ilə keçirdiyi görüşlər, Sofiyada Yunanıstan-Bolqarıstan Qaz İnterkonnektorunun açılış mərasimində çıxışı, eləcə də toplantıda iştirak üçün Bolqarıstan paytaxtında qonaq olan Yunanıstan və Rumıniya baş nazirləri ilə apardığı müzakirələr bunun daha bir təcəssümü oldu.

### Strateji əməkdaşlıq: Avropada ən çox arzuolunan şəxs

Azərbaycanla Bolqarıstan arasında 30 ildir ki, diplomatik əlaqələr qurulub. 1999-cu ildə Bolqarıstanın Azərbaycanda, 2004-cü ildə Azərbaycanın Bolqarıstanda səfirliyi fəaliyyətə başlayıb. Həm Azərbaycan, həm də Bolqarıstan beynəlxalq müstəvidə bir-biri üçün kifayət qədər önəmli ölkələrdir. Son 30 il ərzində iki ölkənin dövlət və hökumət başçılarının, parlament rəhbərlərinin, nazirlərin və digər vəzifəli şəxslərin qarşılıqlı səfərləri təşkil olunub. İki ölkə arasında imzalanan çoxsaylı sənədlərlə qarşılıqlı əməkdaşlığın möhkəm hüquqi bazası formalaşıb. Azərbaycan-Bolqarıstan əməkdaşlığının daha da inkişaf etdirilərək strateji əməkdaşlıq səviyyəsinə çatdırılmasında, xüsusilə Azərbaycan Prezidentinin 2015-ci ilin martında Bolqarıstana rəsmi səfəri böyük rol oynayıb. Eləcə də 2017-ci ilin oktyabrında Bolqarıstan Respublikasının Prezidenti Rumen Radevin və həmin dövrdə Baş nazir olan Boyko Borisovun 15-16 yanvar 2018-ci ildə Azərbaycana rəsmi səfərləri münasibətlərin inkişafında mühüm töhfələr verib. 2015-ci ildə dövlət rəhbərimizin bu ölkəyə səfəri zamanı Bolqarıstanla Azərbaycan arasında imzalanmış "Strateji tərəfdaşlıq haqqında" Birgə Bəyannamədə təsbit edilmiş bütün məsələlər ötən illər ərzində reallığa çevrilib. "Bu Bəyannamə həm bizim əlaqələrimizi yüksək səviyyəyə qaldırmış, eyni zamanda o bəyannamədə təsbit edilmiş bütün məsələlər həyatda əksini tapmışdır. Bu gün Bolqarıstan və Azərbaycan iki dost və strateji tərəfdaş ölkələr kimi bir-biri ilə daha sıx əlaqədədirlər" - Azərbaycan Prezidenti mətbuata bəyanatında bu fikri xüsusi vurğulamışdır.

Azərbaycanla Bolqarıstan arasında strateji əməkdaşlığın ən mühüm istiqamətlərindən biri enerji sahəsinə aiddir. Bolqarıstan maliyyə tutumu 40 milyard dollara bərabər olan və 7 ölkəni birləşdirən "Cənub qaz dəhlizi" layihəsinin iştirakçısıdır. Azərbaycanın "Şahdəniz" yatağından çıxan qaz artıq Avropa ölkələrinə çatdırılır. Bolqarıstana da ildə 1 milyard kubmetr həcmində qazın təchizatı nəzərdə tutulur.

### Azərbaycanın dəstəyi ilə köhnə qitədə yeni bir tarix başlanır

Azərbaycan Prezidenti İlham Əliyevin iştirakı ilə Yunanıstan-Bolqarıstan qaz İnterkonnektorunun açılışının edilməsi isə Avropa qitəsində yeni bir tarixi səhifə açdı. Bolqarıstan Prezidenti Rumen Radevin də bəyan etdiyi kimi, bununla Avropanın enerji xəritəsi yenidən cızılmış oldu. Enerji təhlükəsizliyinin hər bir ölkənin milli təhlükəsizliyinin əsas hissəsinə çevrildiyi və cari geosiyasi vəziyyətin bunu tez-tez nümayiş etdirdiyi müasir dünyamızda belə bir layihənin Avropa ölkələri üçün nə demək olduğunu geniş şərh etməyə ehtiyac yoxdur. İnterkonnektorun açılışı mərasimi layihənin tərəfdaş ölkələr üçün böyük əhəmiyyət kəsb etdiyini, eləcə də Azərbaycanın müasir çağırışlar dövründə Avropanın enerji təhlükəsizliyi üçün nə qədər mühüm rol oynadığını bir daha göstərir. Avropa İttifaqı ilə Azərbaycan arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumunun imzalanmasından qısa müddət sonraya təsadüf edən bu açılış Azərbaycandan təbii qaz təchizatı imkanlarının daha da artırılmasına, Avropaya qaz təchizatının şaxələndirilməsi hədəflərinə kömək göstərəcək. Azərbaycan Prezidenti mərasimdəki çıxışında bildirdi ki, bu ilin iyul ayında Avropa Komissiyası ilə Anlaşma Memorandumu imzalanmışdır: "Bu çox əhatəli sənəddir, ona əsasən, 2027-ci ilə qədər biz təbii qazın təchizat həcmini ən azı iki dəfə artırmağı planlaşdırırıq və bunu etməyə tam potensialımız var".

Bu İnterkonnektor Bolqarıstanda təbii qaz mənbələrinin real şaxələndirilməsini və ölkənin enerji müstəqilliyini təmin edən ilk layihədir. İllər əvvəl bu layihənin reallaşmasına inananlar az olsa da, birgə səylər sayəsində bu artıq gerçəkliyə çevrilib və bunda Azərbaycanın verdiyi dəstək müstəsnadır. Ölkəmizin fəal köməyi ilə tamamlanan bu cür önəmli layihələr Avropanın kifayət qədər qazla təmin olunmasına şərait yaradacaq. Beləliklə, Yunanıstan-Bolqarıstan Qaz İnterkonnektoru layihəsi Avropanın enerji təhlükəsizliyinin möhkəmləndirilməsində və qaz təchizatının şaxələndirilməsində mühüm rol oynayacaq.

### Ölkəmiz etibarlı qaz təchizatçısına çevrilib

Bütün bunlar Azərbaycan üçün də qürur dolu yeni bir tarixi səhifədir. Azərbaycan Avropanın müasir enerji xəritəsini müəyyənləşdirən "Cənub qaz dəhlizi"nin başlandığı mənbədir. Bu kəmər qazın istehlakçılara yeni marşrutla, o cümlədən yeni mənbədən nəqlini təmin edir. Əgər bu vaxta qədər yeganə mənbə Xəzərin Azərbaycan sektorundakı "Şahdəniz" qaz yatağı idisə, bu yaxınlarda Azərbaycanın bir neçə digər qaz yatağında gözlənilən hasilatın başlanmasından sonra təchizat həcmləri daha da artacaq. "Uzun illər Azərbaycan beynəlxalq bazarda və ilk növbədə Avropa bazarında etibarlı neft təchizatçısı olub. İndi isə etibarlı qaz təchizatçısına çevrilir", - deyə dövlət rəhbərimiz açılış mərasimindəki nitqində vurğuladı. Eyni zamanda əmin olduğunu bildirdi ki, mövcud potensial, reallaşdırılan layihələr hesabına Azərbaycan bu yaxınlarda Avropa üçün etibarlı elektrik enerjisi təchizatçısına da çevriləcək.

Bu xüsusda önəmli məqamlardan biri də Bolqarıstanda SOCAR-ın ofisinin açılması məsələsi ilə bağlı idi. Azərbaycan Prezidenti bununla bağlı müzakirələrə toxunaraq qeyd etdi ki, biz enerji sahəsində təkcə təbii qazın ixracı ilə işimizi bitmiş hesab etməməliyik: "Biz enerji ilə bağlı olan digər məsələləri müzakirə etdik. Elektrik enerjisinin ixracı və bu sahədə qarşılıqlı faydalı əməkdaşlıq, xam neftin Bolqarıstan istiqamətinə nəqli, Bolqarıstanda enerji infrastrukturunun yenilənməsində SOCAR-ın mümkün iştirakı və digər məsələlər müzakirə olundu. Bir sözlə, SOCAR-ın Bolqarıstandakı ofisinin açılması vaxtı çatıb və əminəm ki, biz yaxın vaxtlarda bunu da edəcəyik".

Azərbaycan Prezidenti səfəri çərçivəsində Sofiyada Yunanıstan və Rumıniyanın baş nazirləri ilə görüşlərində də enerji layihələrinə xüsusi yer verdi, ölkələrimiz arasında qarşılıqlı maraq doğuran müxtəlif məsələlər müzakirə edildi. Eyni zamanda Bolqarıstan rəhbərliyi ilə strateji əməkdaşlıq münasibətlərinin müxtəlif istiqamətlər üzrə inkişafı imkanları bir daha nəzərdən keçirildi.

### Haqq işimizi dəstəkləyən dost ölkə

Azərbaycanla Bolqarıstan arasında işbirliyi təkcə enerji məsələləri ilə məhdudlaşmır. Buna paralel nəqliyyat sahəsinin inkişafı da hər iki ölkə üçün prioritet sayılır. Bu mənada Bakı-Tbilisi-Qars dəmir yolunun açılışı hər iki ölkə üçün böyük tarixi imkanlar yaratmaqdadır. Bu layihənin həyata keçirilməsi Bolqarıstanın Azərbaycan üçün Avropa İttifaqı bazarına girişi, Azərbaycanın isə Bolqarıstan üçün Mərkəzi Asiya regionuna çıxış imkanı kimi rolunu müstəsna dərəcədə artırır. Nəqliyyat sahəsində "Orta dəhliz"in həyata keçirilməsi, "Şərq-Qərb" nəqliyyat dəhlizinin fəaliyyəti ölkələrimizi bir-birinə daha da sıx bağlayır, gələcəkdə qarşılıqlı təmasların daha da sıxlaşmasına zəmin yaradır.

İki ölkə arasında turizm sahəsində də geniş inkişaf potensialı var. Hazırda Bakı-Sofiya-Bakı birbaşa aviareysləri fəaliyyət göstərməkdədir. Bu da öz növbəsində qarşılıqlı gediş-gəlişlərin artmasına, ölkələrimizin, insanlarımızın bir-birinə daha da yaxınlaşmasına, ideya mübadiləsinə, müxtəlif müştərək layihələrin gerçəkləşməsinə  xidmət göstərir.

Azərbaycan və Bolqarıstanın yeyinti sənayesi, kənd təsərrüfatı, informasiya texnologiyaları və humanitar sahələrdə, o cümlədən mədəniyyət sahəsində də faydalı əməkdaşlıq əlaqələri var. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondu Bolqarıstanın mədəni-mənəvi paytaxtı olan Veliko Tırnovo şəhərindəki "Trapezitsa" Memarlıq Muzeyi Qoruğunun konservasiya və bərpasını həyata keçirib. Tarixi abidənin 158 metr uzunluğunda qərb divarının konservasiyası və bərpası, 880 metr uzunluğunda turizm xiyabanının salınması, Mədəni İrs Mərkəzinin yaradılması, bu ərazidə yerləşən Orta əsrlərə aid üç kilsənin təmiri işləri reallaşdırılıb. 2016-cı il sentyabrın 22-də mədəniyyət abidəsinin təntənəli açılış mərasimi olub. Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun rəhbəri Mehriban xanım Əliyeva və fondun vitse-prezidenti Leyla Əliyeva "Trapezitsa" Memarlıq Muzeyi Qoruğunun açılış mərasimində iştirak ediblər. Həmin gün Azərbaycanın birinci xanımı Mehriban Əliyevaya Veliko Tırnovo şəhərinin fəxri vətəndaşı və Müqəddəs Kiril və Mefodiy adına Veliko Tırnovo Universitetinin fəxri doktoru diplomları təqdim olunub. Heydər Əliyev Fondunun prezidentinə şəhərin mədəni irsinin qorunmasındakı xidmətlərinə görə "Veliko Tırnovo şəhərinin fəxri vətəndaşı adı" verilib. Bu faktı Azərbaycan Prezidenti ilə görüşündə Bolqarıstan Prezidenti xüsusi xatırlatdı.

Səfər çərçivəsində paytaxt Sofiyada Azərbaycanın Şuşa şəhəri ilə Bolqarıstanın Veliko Tırnovo şəhəri arasında qardaşlaşma haqqında Anlaşma Memorandumu da imzalanıb. Bu hər iki ölkə üçün böyük əhəmiyyət kəsb edən, həm mədəni, həm də tarixi baxımdan iki şəhərin dostluğunu özündə ehtiva edir. Qardaşlaşma sənədində  elm, təhsil, səhiyyə, eyni zamanda digər sahələrdə əməkdaşlığın, qarşılıqlı layihələrin dəstəklənməsi nəzərdə tutulur. Həm Şuşa, həm də Veliko Tırnovo şəhərləri vaxtilə tarixi və siyasi mərkəz rolunu oynayıb. Məlumdur ki, Şuşa şəhəri işğaldan azad olunduqdan sonra artıq bir neçə türkdilli dövlətlərin şəhərləri ilə qardaşlaşma memorandumu imzalanıb. Lakin Veliko Tırnovo Avropa İttifaqı şəhərləri arasında birincidir.  Bu, çox mühüm əhəmiyyət kəsb edir və eyni zamanda rəmzi məna daşıyır. Memorandum xalqlarımız arasında münasibətlərin inkişafına öz töhfəsini verəcək. Şuşa şəhəri indi bərpa və quruculuq mərhələsindədir. Tarixi abidələrin yenidən qurulması və bərpası, mədəni irsin qorunması sahəsində tərəfdaşlarla, ilk növbədə qardaşlaşmış şəhərlərlə əlaqələrini daha da sıx inkişaf etdirəcək.

Bolqarıstan beynəlxalq aləmdə Azərbaycanın haqq işini dəstəkləyən ölkələrdəndir. Hər il Azərbaycanın Bolqarıstandakı səfirliyi, Bolqarıstandakı Azərbaycan diasporunun və Bakı Slavyan Univesitetinin Müqəddəs Kliment Ohridski adına Sofiya Universiteti nəzdində fəaliyyət göstərən Azərbaycan Dili və Mədəniyyəti Mərkəzinin təşkilatçılığı ilə Azərbaycan-Bolqarıstan Parlamentlərarası Dostluq qrupu üzvlərinin iştirakı ilə bu ölkədə Xocalı faciəsinin ildönümü qeyd olunur.

### Əməkdaşlığımızın təməlində səmimi münasibətlər dayanır

Azərbaycan Prezidenti Bolqarıstanın dövlət rəhbəri ilə görüşündə bildirdi: "Bizim bütün sahələrdə əməkdaşlığımızın təməlində səmimi münasibətlər dayanır. Bolqarıstan-Azərbaycan əlaqələri çoxşaxəli əlaqələrdir. Xalqlarımız arasındakı tarixi bağlar, əlbəttə ki, bu əlaqələrin təməlində dayanan mühüm amildir. Bu gün, əlbəttə ki, qarşılıqlı maraqlar üzərində qurulmuş o strateji tərəfdaşlıq yeni imkanlar açır. Çünki enerji sahəsində başlanılan çox ciddi əməkdaşlığın çox böyük gələcəyi var. Biz bu işin birinci mərhələsindəyik. Əminəm ki, bu gün Sizinlə təkbətək görüşdə müzakirə etdiyimiz mövzularla bağlı gələcəkdə praktiki addımlar atılacaq. Azərbaycan etibarlı qaz təchizatçısı kimi Avropa ölkələri üçün önəm daşıyan ölkədir. Bizim üçün də Avropa bazarı, o cümlədən Bolqarıstan və Sizin qonşu ölkələrin bazarları böyük maraq kəsb edir".

Azərbaycan Prezidentinin səfər çərçivəsində Bolqarıstanın bir neçə aparıcı şirkətinin rəhbərləri ilə görüşü də iqtisadiyyat və investisiyaların cəlbi baxımından mühüm əhəmiyyət kəsb edirdi. Dövlət başçısı bu görüşdə Bolqarıstan şirkətlərini Azərbaycanda, o cümlədən işğaldan azad edilmiş ərazilərimizdə genişmiqyaslı işlərin görülməsinə dəvət etdi. Hazırda böyük quruculuq-abadlıq işləri aparılan azad edilmiş torpaqlarımızda dost ölkələrin şirkətlərini görmək istəyimizi dilə gətirdi.

Azərbaycan Prezidentinin Bolqarıstana səfəri, keçirdiyi görüşlər, apardığı müzakirələr, əldə edilən razılaşmalar bir daha göstərdi ki, müasir dünyamızda ən böyük faydalar qarşılıqlı əməkdaşlıqdadır. Dövlətlər, ölkə rəhbərləri bir-birinə üz çevirməkdənsə, bir-birinə daha da yaxınlaşmağın yollarını axtarsalar, xoş niyyətlər ətrafında sıx əməkdaşlıq etsələr, inkişaf üçün yeni imkanlar tapsalar, bəşəriyyətin bu gününə və gələcəyinə, insanların rifahına ən böyük töhfə olar.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

# İlham Əliyev Avropada ən çox arzuolunan liderdir

## Azərbaycan Prezidentinin təşəbbüsləri ölkəmizin geosiyasi çəkisini artırır, beynəlxalq əlaqələrini daha da gücləndirir

*Əvvəli 1-ci səh.*

### Avropa ölkələri Azərbaycanla əməkdaşlığa böyük önəm verirlər

İki il əvvələ qədər Azərbaycan dünyada Cənubi Qafqazın iqtisadi və hərbi gücü, nəhəng enerji və nəqliyyat infrastrukturlarının müəllifi, regionda söz sahibi olan aparıcı dövlət kimi tanınırdı. 2020-ci ilin Vətən müharibəsində isə bunların sırasına biri də əlavə olundu - Cənubi Qafqazın qalib dövləti. 44 günlük müharibədə qazanılan qələbə Azərbaycana dünyada olan ehtiramı gücləndirdi, dövlətimizin nüfuzunu daha da artırdı.

İlham Əliyevin yürütdüyü müstəqil siyasətlə Azərbaycan xarici əlaqələrini, siyasi-iqtisadi, hərbi, humanitar və digər sahələrdə müttəfiqlərini, əməkdaşlıq etdiyi ölkə və beynəlxalq təşkilatları özü seçir. Təbii sərvətlərinin sahibi kimi enerji sahəsində əməkdaşlıq əlaqələrini dövlət maraqları və qarşılıqlı faydalılıq prinsipləri əsasında reallaşdırır.

Digər tərəfdən, Azərbaycan bölgədə və beynəlxalq səviyyədə əməkdaşlığa, təhlükəsizliyə mühüm töhfələr verir. Məhz bütün bunlara görə dünya siyasətinin aparıcı qurumları, həmçinin mötəbər beynəlxalq təşkilatlar Azərbaycanın mütərəqqi xarici siyasətini regional təhlükəsizlik və qlobal inkişafa mühüm töhfə kimi qiymətləndirirlər və ölkəmizlə əməkdaşlığa böyük önəm verirlər. Eləcə də İlham Əliyevin irəli sürdüyü qlobal təşəbbüslər də təqdir edilir.

Azərbaycanın mühüm geosiyasi uğurlarından biri dünya birliyində güclü mövqeyə malik olması, beynəlxalq aləmdə söz sahibinə çevrilməsidir. Prezident İlham Əliyevin həyata keçirdiyi siyasi kurs respublikamızı inkişaf yoluna çıxarmaqla yanaşı, regional və beynəlxalq miqyasda nüfuzunu daha da artırıb. Azərbaycan dünyanın sayılıb-seçilən, hörmət olunan, etimad göstərilən dövlətinə çevrilib. Ona görə bir sıra dövlətlər, o cümlədən Avropa İttifaqının üzvləri Cənubi Qafqazın lideri olan Azərbaycanla strateji tərəfdaş olduqlarını elan ediblər. Dünyanın böyük siyasi və iqtisadi dairələri Azərbaycanın regiondakı liderliyini və qlobal siyasətdə rolunu daim yüksək qiymətləndirirlər.

### Sözünə, vədinə sadiq olan Prezident

Ötən həftə İlham Əliyevin Bolqarıstana səfəri çərçivəsində keçirilən görüşlər və  paytaxt Sofiya şəhərində Yunanıstan-Bolqarıstan Qaz İnterkonnektorunun (IGB) açılış mərasimində Azərbaycan, xüsusən də dövlət başçımızın yürütdüyü müstəqil siyasətlə  bağlı söylənən fikirlər deyilənləri bir daha təsdiqləyir.

Bolqarıstanın müvəqqəti hökumətinin rəhbəri Qılıb Donevin Qaz İnterkonnektorunun açılış mərasimində söylədiyi fikirlərə diqqət edək. Donev deyir ki, interkonnektorun həyata keçirilməsi tərəfdaş ölkələr üçün mühüm əhəmiyyət kəsb edir. Bolqarıstan Avropa İttifaqı ilə Azərbaycan arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumunu və Azərbaycandan təbii qaz təchizatının artırılması imkanlarını alqışlayır. Bu, "Repower Europe" planındakı şaxələndirmə hədəflərinə töhfə verəcək.

Serbiya Prezidenti Aleksandar Vuçiç isə İlham Əliyevin yürütdüyü siyasəti dəyərləndirərək söyləyir: "Dostumuz İlham Əliyevin iştirakı olmasaydı, bizim hər birimiz üçün qaz, eləcə də elektrik enerjisi təchizatının şaxələndirilməsinə ümid etmək asan olmazdı. Əziz dostum, görürəm ki, indi Siz Avropada çox məşhurlaşmısınız. Mən sizinlə əlaqə saxlamaq istəyirəm. Mən onunla dəfələrlə danışmışam. O, Avropada çox məşhurlaşıb. Bu arada, bilmirəm o, nə edib, amma etiraf edim ki, bunun sirrini mən də bilmək istərdim".

Şimali Makedoniyanın Prezidenti Stevo Pendarovski isə qitənin enerji təminatında Azərbaycanın rolunu yüksək qiymətləndirməklə yanaşı, İlham Əliyevi Avropada ən çox arzuolunan şəxs adlandırır.

Yunanıstan-Bolqarıstan Qaz İnterkonnektorunun artıq Avropanın enerji xəritəsini əhəmiyyətli dərəcədə dəyişdiyini vurğulayan Bolqarıstan Prezidenti Rumen Radev isə İlham Əliyevi sözünə, vədinə sadiq olan lider, Azərbaycanın isə öz Prezidentinin simasında etibarlı tərəfdaş statusunu qazandığını bildirdi.

Göründüyü kimi, Avropa ölkələrinin liderləri İlham Əliyevi dünyanın aparıcı siyasətçiləri sırasında öz sözü, qətiyyətli mövqeyi olan dövlət başçısı və vədinə sadiq  etibarlı tərəfdaş kimi qəbul edirlər. Bu da bir daha onu deməyə əsas verir ki, İlham Əliyev qlobal təşəbbüsləri ilə Avrasiyanın enerji siyasətinə mühüm töhfələr verir. Avropanın əksər ölkələri İlham Əliyevin fəaliyyətini çox yüksək dəyərləndirirlər.

Bütün bunlar onu deməyə əsas verir ki, Azərbaycanın çoxtərəfli və balanslaşdırılmış xarici siyasət kursunda dünyanın ən aparıcı ölkələri ilə strateji tərəfdaşlıq münasibətlərinin qurulması əsas prioritetlərdəndir. Məhz İlham Əliyevin yürütdüyü müstəqil siyasət Azərbaycanın geosiyasi və geoiqtisadi çəkisini getdikcə yüksəldir.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Bakıda VIII Beynəlxalq Kitab Sərgisi açılıb






**Oktyabrın 5-də Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə "Bakı-Ekspo" Mərkəzində VIII Bakı Beynəlxalq Kitab Sərgisi açılıb.**



AZƏRTAC xəbər verir ki, sərgidə 10-dan çox ölkədən 60-dan artıq xarici təşkilat,118 yerli nəşriyyat-poliqrafiya və kitab sənəti ilə əlaqəli müəssisə təmsil olunub.

Açılış mərasimində Baş nazirin müavini Əli Əhmədov bütün oxucuları kitab bayramı münasibətilə təbrik edib. Bildirib ki, Azərbaycanda belə sərgi-yarmarkaların keçirilməsi artıq bir ənənə halını alıb. Kitabın bəşəri dəyər olduğunu qeyd edən Baş nazirin müavini belə sərginin ölkəmizdə keçirilməsini yüksək qiymətləndirib: "Kitab insanın bilik, vərdişlər qazanmasında böyük yer tutur. İnsan nailiyyətlərinin hamısını kitabla əlaqələndirirlər. Kitabsız insan cəmiyyətinin inkişafını təsəvvür etmək olmaz. İndi kitab elektron aləmdə yaşamaq üçün rəqabət aparır. Azərbaycan dövləti, cəmiyyəti elmə böyük hörmətlə yanaşır. Bu gün Azərbaycan Respublikasının kitab çapı dövlətin diqqət mərkəzindədir".

Vurğulayıb ki, Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində beynəlxalq kitab sərgiləri, eyni zamanda digər beynəlxalq tədbirlər ölkəmizdə yüksək səviyyədə təşkil edilir.

Tədbirdə mədəniyyət naziri Anar Kərimov çıxış edərək sərginin əhəmiyyətindən danışıb.

Bildirib ki, sərginin əsas məqsədinin cəmiyyətdə kitaba olan marağı artırmaq və mütaliə mədəniyyətini təbliğ etmək, oxucuları nəşriyyat işi sahəsində olan rəqəmsal yeniliklərlə tanış etmək, ölkəmizdə kitab sənayesi sektorunun və müasir ədəbi proseslərin inkişafını dəstəkləməkdir.

Nazir qeyd edib ki, 15 illik tarixə malik, Bakı Beynəlxalq Kitab Sərgisi ölkəmizdə keçirilən müxtəlif sahələr üzrə beynəlxalq tədbirlər sırasında, cəmiyyət tərəfindən böyük maraqla qarşılanan və iştirakçı baxımından kütləviliyi ilə seçilən öncül festivallardan hesab olunur.

"VIII Bakı Kitab Sərgisinin digər əvvəlki illərdən fərqi onun daha geniş formada təşkil olmasındadır. Təbii ki, VII Bakı Beynəlxalq Kitab Sərgisi kitab sənayesi sahəsində bir dönüş nöqtəsi olub. Artıq Azərbaycanda bu sahədə yeni dünya standartlarına cavab verən təcrübə formalaşdırılıb. Amma builki sərgimizin keçən ilkindən fərqi ondadır ki, bu il naşirlərin sayı, ümumiyyətlə, kitab sənayesi subyektlərinin sayı keçən ilkindən demək olar ki, 30-40 faiz daha çoxdur. Bu il ilk dəfə olaraq, ölkəmizdə kitab sərgisində Türkiyə "fəxri qonaq" statusunda iştirak edir. "Şuşa ili"nə həsr olunan Bakı Beynəlxalq Kitab Sərgisində bütün konstruksiyalar, kitab məhsulları mədəniyyət paytaxtımızın simvolları ilə bəzədilib", - deyə Anar Kərimov bildirib.

Anar Kərimov əlavə edib ki, builki sərgidə Türkiyədən 40, Rusiya, İran və Özbəkistanın hər birindən 4 nəşriyyat dəvət olunub. Ümumilikdə 110-dan çox nəşriyyatın iştirakı gözlənilir. Türkiyədən və digər ölkələrdən kifayət qədər məşhur qonaqlar dəvət olunub: "Qonaqlar içərisində İlbər Ortaylı, Fatih Ərdoğan, Xasiyət Rüstəm kimi məşhur simalar var".

Sərgi müddətində "Qarabağa kitabla gedək" aksiyasının davam edəcəyini bildirən Anar Kərimov qeyd edib ki, hazırda bu aksiya çərçivəsində işğaldan azad olunmuş ərazilərdə yaradılacaq kitabxanalar üçün 93 min 212 nüsxə kitab toplanıb: "Təşkilat komitəsi tərəfindən sərginin son günü "Ən yaxşı nəşriyyat" və "Ən yaxşı kitab" nominasiyaları üzrə qaliblər seçiləcək. Şuşaya həsr olunmuş məzmun və poliqrafik baxımından ən yaxşı kitabın buraxılışını təmin edən naşir Şuşanın 270 illiyi münasibətilə təsis olunan "Xatirə nişanı" ilə təltif olunacaq".

Nazir çıxışının sonunda kitab bayramı münasibətilə bütün kitabsevərləri təbrik edib, sərgi iştirakçılarına uğurlar arzulayıb.

Türkiyənin mədəniyyət və turizm nazirinin müavini Serdar Çam qeyd edib ki, Türkiyə və Azərbaycan arasında dostluq münasibəti əbədi və sarsılmazdır: "Biz daim birlikdə istənilən sahədə tərəfdaşlıq mübadiləsi edirik. Türkiyədə də bu yaxın illər ərzində müxtəlif başlıqda xeyli sayda kitab işıq üzü görüb".

Kitab sərgilərinin keçmişlə bu günü, yazarla oxucuları eyni məkanda birləşdirdiyini vurğulayan nazir müavini sərginin təşkilində əməyi olan hər kəsə minnətdarlığını bildirib.

Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar kitabın cəmiyyət həyatındakı rolundan danışıb. Söyləyib ki, kitab cəmiyyətin mərkəzində duran əsas anlayışlardan biridir, kitab mədəniyyətdir: "Kiçik yaşlarından uşaqlarda kitaba sevgi yaratmaq çox önəmlidir. Tədqiqatlar göstərir ki, balaca yaşlarından daha çox kitab oxuyanlar, həmçinin valideynləri daha çox kitab oxuyan uşaqlar gələcəkdə daha yüksək akademik nailiyyətlər əldə edirlər. Bu da bir daha kitabların mütaliə vasitəsi kimi həyatımızda nə qədər önəmli yer tutduğunu göstərir".

Sərgi çərçivəsində uşaqlar və böyüklər üçün ustad dərsləri, inklüzivlik, eləcə də digər aktual mövzular üzrə kitab təqdimatları, imza günləri, konfranslar, simpoziumlar, qiraət və musiqi saatları, həmçinin kitab sənayesi sektorunun subyektləri arasında əməkdaşlıq platformaları təşkil ediləcək. Sərgi müddətində müxtəlif formatda 200-dən çox tədbirin təşkili nəzərdə tutulur.

Beş gün ərzində müxtəlif formatda tədbirlər təşkil ediləcəyini bildirən natiqlər bildiriblər ki, sərginin "fəxri qonaq ölkəsi" Türkiyədir. Türkiyə Respublikasının Mədəniyyət və Turizm Nazirliyi tərəfindən qardaş ölkənin mədəniyyətinin nümayişi məqsədilə sərgi salonunda və bir sıra mədəniyyət müəssisələrimizdə müxtəlif formatda silsilə tədbirlər də keçiriləcək. Eyni zamanda Türkiyənin dünyaşöhrətli yazarları, tarixçiləri, elm adamları və aktyorları sərgidə iştirak edirlər.

Qeyd edək ki, VIII Bakı Beynəlxalq Kitab Sərgisi oktyabrın 9-dək davam edəcək.

# Media nümayəndələri işğaldan azad olunmuş Ağdama səfər ediblər











Oktyabrın 5-də media nümayəndələrinin işğaldan azad edilmiş Ağdama səfəri təşkil edilib.

AZƏRTAC xəbər verir ki, media nümayəndələri əvvəlcə Ağdam şəhərində Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın oktyabrın 4-də açılışını etdiyi Xurşidbanu Natəvanın qəbirüstü abidəsinə baş çəkiblər. Bildirilib ki, Prezident İlham Əliyevin 2022-ci il 14 mart tarixli Sərəncamı ilə bu il Xurşidbanu Natəvanın 190 illiyinin qeyd olunduğu nəzərə alınaraq yubiley ilində Mədəniyyət Nazirliyi tərəfindən həmin qəbirüstü abidənin bərpa olunması istiqamətində işlərə başlanılıb.

Şairənin qəbirüstü abidəsi özünün ilkin görkəmi əsasında heykəltaraş Kənan Əliyev tərəfindən 350 santimetr hündürlükdə boz qranit materialından hazırlanıb və əvvəlki yerində quraşdırılıb. Ağdamda 1982-ci ildə ucaldılmış və Elcan Şamilovun müəllifi olduğu qəbirüstü abidənin daş yonulması işlərini görmüş Rəfi Zeynalov 40 il sonra da eyni abidənin hazırlanması üçün daş yonub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq tapşırığına əsasən Pənahəli xanın sarayı və İmarət kompleksinin də bərpası işlərinə başlanılıb. İlkin konsepsiyaya əsasən, kompleks Pənahəli xanın sarayı, məqbərələr, kassa, məlumat mərkəzi və Qarabağ atları parkından ibarət olacaq. Pənahəli xanın sarayı bərpa edilərək interaktiv muzey kimi fəaliyyət göstərəcək.

Daha sonra media nümayəndələri oktyabrın 4-də Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə təməlqoyma mərasimi keçirilən Ağdam rayonunun Xıdırlı kəndində olublar. Bildirilib ki, Ağdam şəhərinin mərkəzindən 3 kilometr məsafədə yerləşən Xıdırlı kəndində 5990 nəfərin (1500 ailə) məskunlaşması planlaşdırılıb. Layihələndirilən ümumi ərazi 418 hektardır. Burada məskunlaşacaq əhalinin yaşayış yükünü nəzərə alaraq, məhəllələrin salınmasının birinci mərhələsi üçün 160 hektar torpaq sahəsi ayrılıb. Birinci mərhələdə kəndə 2951 nəfərin köçürülməsi üçün 719 fərdi evin tikilməsi planlaşdırılır.

Kənddə əhalinin məşğulluğunun təmin edilməsi üçün də hər cür şərait yaradılacaq. Burada mədəniyyət və əyləncə mərkəzləri, dini, xidmət, kommersiya müəssisələri, iqtisadi inkişaf obyektləri, təhsil, idarəetmə və kənd təsərrüfatı sahələri üzrə ümumilikdə 2595 nəfərin işlə təmin olunması planlaşdırılır.

Xıdırlıda tikinti işlərinə bu il oktyabrın 10-da başlanılacaq. Kənddə tikinti işlərinin 2024-cü il aprelin 10-da tamamlanması nəzərdə tutulur.

KİV nümayəndələri yeni çəkilən Bərdə-Ağdam avtomobil yolunda görülmüş işlərlə də tanış olublar. Başlanğıcını Bərdə şəhərindən götürən bu avtomobil yolunun uzunluğu 44,5 kilometr, eni 26,5 metrdir. Birinci texniki dərəcəyə uyğun inşa olunan avtomobil yolu Qarabağın inkişaf planı nəzərə alınmaqla, dörd hərəkət zolağından ibarətdir. Yolboyu 4 körpünün, o cümlədən 3 yolüstü piyada keçidinin inşası nəzərdə tutulur. Həmçinin avtomobil yolunda 29 avtobus dayanacağı tikilir. Onlardan 14-nün inşası tamamlanıb. Layihə üzrə torpaq işləri başa çatdırılıb, ümumi iş həcminin 75 faizi icra olunub.

Media nümayəndələri Ağdam rayonunun Eyvazxanbəyli kəndində Atçılıq Nəsilartırma Mərkəzinin, Sarıcalı və Kəngərli kəndlərinin, Ağdam şəhərinin daxili yol və kommunikasiya şəbəkəsinin, yaşayış məhəlləsinin, "City Hotel Agdam" mehmanxanasının, Dəmir yolu və Avtovağzal Kompleksinin inşa ediləcəyi ərazilərdə də olublar.

# Azərbaycanın diaspor təşkilatları Edillidə aşkarlanan kütləvi məzarlıqla bağlı beynəlxalq təşkilatlara çağırış ediblər

Azərbaycanın diaspor təşkilatları Xocavənd rayonunun Edilli kəndində aşkar olunmuş kütləvi məzarlıqlarla bağlı beynəlxalq təşkilatlara bəyanat ünvanlayıblar.

Bu barədə AZƏRTAC-a Diasporla İş üzrə Dövlət Komitəsindən məlumat verilib.

Bəyanatda deyilir: "Biz, xarici ölkələrdə yaşayan azərbaycanlılar Xocavənd rayonunun Edilli kəndi ərazisində kütləvi məzarlığın aşkar edilməsi xəbərini dərin hiddətlə qarşılayır və bu reallığı Ermənistanın növbəti hərbi cinayətinin ifşası kimi dəyərləndiririk.

Bildiririk ki, rəşadətli Azərbaycan Ordusunun 2020-ci ildə 44 gün davam edən İkinci Qarabağ müharibəsi nəticəsində işğaldan azad etdiyi Xocavənd rayonunun Edilli kəndində aşkarlanan kütləvi məzarlıq sayca birinci deyil. Həmin məzarlıqda məftil və kəndirlərdən istifadə edilməklə əl-ayağı bağlanaraq kütləvi şəkildə dəfn edilmiş 12 insan qalığının tapılması ümumilikdə Edillidə kütləvi məzarlıqlardan qalıqları aşkarlanmış insanların sayının 25-ə çatdığını söyləməyə əsas verir. Geyim və əşyalarından həmin şəxslərin hərbçi olduqları reallığı azərbaycanlı hərbi əsirlərin işgəncə verilərək qətlə yetirilməsi ilə bağlı bir çox ifadələri sübut edir.

Aşkar edilmiş qalıqlar Birinci Qarabağ müharibəsi dövründə itkin düşmüş, bu günədək taleyi naməlum olan azərbaycanlılara məxsusdur. Halbuki Ermənistan tərəfi dəfələrlə edilən çağırışlara baxmayaraq, törətdiyi müharibə cinayətlərini dünya ictimaiyyətindən gizlətmək məqsədilə həmin şəxslərin taleyi, eləcə də azərbaycanlıların kütləvi dəfn yerləri barədə məlumatları təqdim etməkdən boyun qaçırıb.

Xüsusi vurğulayırıq ki, belə məzarlıqların üzə çıxması etnik nifrət hissinə köklənmiş Ermənistan silahlı qüvvələrinin davamlı olaraq beynəlxalq hüququn, beynəlxalq humanitar hüququn normalarının, o cümlədən müharibə qurbanlarının müdafiəsi haqqında 1949-cu il tarixli Cenevrə konvensiyalarının tələblərini kobud şəkildə pozaraq azərbaycanlı mülki şəxslərə, hərbi qulluqçulara, xüsusilə də yaralılara və həlak olmuş şəxslərə qarşı işgəncə və insanlıq əleyhinə əməllərlə müşahidə olunan müharibə cinayətlərini açıq şəkildə ifşa edir, onların qeyri-humanist davranışını, genosid siyasəti həyata keçirdiyini nümayiş etdirir. Birinci və İkinci Qarabağ müharibələri zamanı erməni hərbi qulluqçular tərəfindən azərbaycanlı hərbi əsirlərin yaxın məsafədən başlarına, ürək nahiyələrinə atəş açmaqla qəddarcasına qətlə yetirilməsi, hərbçilərin cəsədlərinin qarət olunması, hissələrə doğranması, insanlığa sığmayan hərəkətlərə yol verilməklə işgəncə və təhqirə məruz qalması ilə bağlı çoxsaylı faktları təsdiq edən xeyli sayda videolar qeyd edilənlərin bariz nümunəsidir.

Təəssüf hissi ilə bəyan edirik ki, Azərbaycana qarşı əsassız ərazi iddiaları irəli sürməklə bərabər irqi, etnik, dini zəmində kəskin nifrət siyasəti həyata keçirən Ermənistan ölkəmizə qarşı müharibə cinayətlərini dayandırmaq və əvvəllər törədilmiş cinayətlərə görə təqsirkar şəxslərin məsuliyyətə cəlb edilməsi istiqamətində əməli tədbirlər görmək əvəzinə, xalqlar arasında qarşıdurmaya səbəb olan təxribatlara yol verməklə regionda təhlükəsizliyə və sülhyaratma prosesinə maneə yaradır.

Mühüm bir faktı da unutmamaq lazımdır ki, Ermənistan silahlı qüvvələri 30 il işğal altında saxladığı Azərbaycan ərazilərini minalarla çirkləndirib, İkinci Qarabağ müharibəsi dövründə cəbhə xəttindən onlarca kilometr uzaqda yerləşən Azərbaycanın Gəncə, Bərdə, Mingəçevir, Goranboy və Tərtər kimi şəhərlərinə raket zərbələri endirib, nəticədə 100-dən artıq dinc sakin həlak olub. Lakin Azərbaycan, Ermənistan və Rusiya Federasiyası liderləri arasında imzalanmış üçtərəfli bəyanatlara və Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin vasitəçiliyi ilə Brüsseldə əldə edilmiş razılıqlara zidd olaraq, rəsmi İrəvan bu günədək mina xəritələrini və Birinci Qarabağ müharibəsi dövründə itkin düşmüş 4000-dək azərbaycanlının taleyi barədə məlumatları Azərbaycana təqdim etməyib.

Dünya azərbaycanlıları qətiyyətlə bəyan edirlər ki, Ermənistanın növbəti belə cinayət əməlləri törətməsinin qarşısını almaq üçün beynəlxalq ictimaiyyət bu müharibə cinayətlərinə adekvat reaksiya verməli, həmin cinayətləri törədənlər məsuliyyətə cəlb edilməlidir. Dünya ictimaiyyəti bilməlidir ki, Ermənistan Azərbaycana qarşı humanitar sahədə intervensiya siyasəti həyata keçirib.

Biz bu faktları BMT, Avropa İttifaqı, Avropa Şurası və onların qurumlarının, digər səlahiyyətli beynəlxalq və regional təşkilatların diqqətinə bir daha çatdıraraq, Ermənistanın hərbi cinayətlərinin qarşısının alınmasını tələb edir, müxtəlif vaxtlarda etnik zəmində törədilmiş sülh və insanlıq əleyhinə cinayətlərə görə cavabdeh şəxslərin məsuliyyətə cəlb olunması ilə bağlı hüquq müstəvisində təcili tədbirlər görməyə çağırırıq".

# Ehtiyat zabit hazırlığı kursuna növbəti qəbul başlayıb

Müdafiə Nazirliyinin hərbi hissələrinə zabitlərin həqiqi hərbi xidmətinə könüllü daxil olmaq arzusunda olan müddətli həqiqi hərbi xidməti başa vurmuş, ali təhsilli, 30 yaşınadək namizədlər oktyabrın 22-dək müvafiq sənədlərlə birlikdə Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində (AO TTM) fəaliyyət göstərən qəbul komissiyasına müraciət edə bilərlər.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, ehtiyat zabit hazırlığı kursuna qəbul olunmaq üçün müraciət etmiş vətəndaşlar Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində fəaliyyət göstərən qəbul komissiyası tərəfindən hərbi xidmətə yararlılıq dərəcələrinin müəyyən edilməsi məqsədilə Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Həkim Komissiyasına göndəriləcəklər.

Komissiyanın qərarına əsasən hərbi xidmətə yararlı hesab edilmiş şəxslər qəbul imtahanlarına buraxılacaqlar.

Fiziki hazırlığı, ümumi bilik səviyyəsi, düşünmə qabiliyyəti, peşə maraqları, ünsiyyət qurmaq və qərar qəbuletmə bacarıqları, fərdi-psixoloji və digər keyfiyyətlərinin öyrənilməsi məqsədilə keçirilən imtahanları müvəffəqiyyətlə vermiş namizədlər müvafiq ixtisaslar üzrə kursa qəbul ediləcəklər.

Ehtiyat zabit hazırlığı kursunu müvəffəqiyyətlə başa vuran kursantlara "leytenant" hərbi rütbəsi verilməklə zabitlərin həqiqi hərbi xidmətinə qəbul olunmaları barədə bağlaşma bağlanacaq və onlar ixtisaslarına uyğun vəzifələrə təyin olunacaqlar.

# Ordumuzun mövqeləri atəşə tutulub

Oktyabrın 5-i axşam saatlarında Ermənistan silahlı qüvvələrinin bölmələri Basarkeçər rayonunun Yuxarı Şorca yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən Ordumuzun Kəlbəcər rayonunun Alagöllər istiqamətində yerləşən mövqelərini atıcı silahlardan atəşə tutublar. Müdafiə Nazirliyindən AZƏRTAC-a bildirilib ki, Azərbaycan Ordusunun bölmələri tərəfindən adekvat cavab tədbirləri görülüb.




## Erməni terrorizmi beynəlxalq terrorizmin tərkib hissəsidir




# Ermənistanın müharibə cinayətlərinin izləri getdikcə artır

### Edillidə aşkarlanan kütləvi məzarlıq erməni barbarlığının, vəhşiliyinin növbəti təzahürüdür

İkinci Qarabağ müharibəsi bitsə də, erməni terrorizminin izləri hələ də görünməkdə davam edir. Tarix boyu azərbaycanlılara qarşı etnik təmizləmə, terror aktları həyata keçirən Ermənistanın törətdikləri cinayət əməllərinin üstü zaman-zaman açılır və dünya bu gün əsl erməni vəhşiliyinə şahidlik edir.




Xocavəndin Edilli kəndində aşkarlanan növbəti kütləvi məzarlıq da deyilənləri bir daha təsdiqlədi. Bu dəfə axtarışlar nəticəsində məzarlıqda 12 nəfərin qalıqları üzə çıxdı. Əşyalarla birlikdə aşkarlanan skeletlərin əlləri və ayaqlarının məftil və kəndirlə bağlandığı məlum oldu. Səhiyyə Nazirliyinin Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyinin direktoru Ədalət Həsənov deyib ki, Edilli kəndində ermənilər Azərbaycan əsirləri üçün xüsusi yer ayırıb və kütləvi şəkildə onları basdırıblar. Burada qazıntı işləri davam etdirilir. Onun sözlərinə görə, bütün qalıqlar xüsusi qablara yığılaraq götürülür və hər biri ayrı-ayrılıqda ekspertizaya cəlb edilir.

Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının İşçi qrupunun böyük məsləhətçisi Namiq Əfəndiyev də qeyd edib ki, dövlət başçısının tapşırığı əsasında Dövlət Komissiyası Beynəlxalq Qızıl Xaç Komitəsi ilə birlikdə fevral ayından əsir və itkin düşmüş şəxslərin axtarışına başlayıb. İlk olaraq işlərə Xocavəndin Edilli kəndindən başlanıldığını deyən məsləhətçi bildirib ki, fevralda bu ərazidə 7 şəxsə aid insan qalıqları qazılaraq götürülüb. Sentyabrın 14-dən qazıntı işləri davam etdirilib. 5 tam, 1 qarışıq skelet və 12 şəxsə aid kütləvi məzarlıq aşkar edilib. Geyimlərindən hərbçilərimizə aid olduğu güman edilir. Axtarışlar davam etdiriləcək.

#### Ermənistan beynəlxalq qanunları pozan cinayətkar dövlətdir

Milli Məclisin Elm və təhsil komitəsinin sədr müavini, tarix elmləri doktoru Musa Qasımlı qəzetimizə açıqlamasında deyib ki, Ermənistan təcavüzkar və işğalçı ölkə olaraq ötən əsrin 80-ci illərinin sonlarından İkinci Qarabağ müharibəsi də daxil olmaqla, azərbaycanlı hərbçilərə və mülki əhaliyə qarşı cinayət törətmiş bir dövlətdir.

Deputat xatırladıb ki, Ermənistan Birinci Qarabağ müharibəsində itkin düşmüş 4 min azərbaycanlı haqqında heç bir məlumat vermir: "Heç şübhəsiz, Ermənistan Azərbaycan hərbi əsirlərini güllələyib, onlara məşəqqət yaşadıb. İndiyə qədər söyləmədikləri yerlərdə kütləvi məzarlıqların olması istisna deyil".

Musa Qasımlı deyir ki, Edillidə aşkar edilən kütləvi məzarlıq Ermənistanın müharibə qanunlarını, müvafiq konvensiyaları kobud surətdə pozduğunu göstərir. Ermənistan həm Birinci Qarabağ, həm də 44 günlük Vətən savaşında müharibə cinayətləri törədərək mülki əhalini amansızlıqla qətlə yetirib. Xocalıda törədilən soyqırımı, Qaradağlı, Malıbəyli, Ağdaban, Başlıbel cinayətləri bunu bir daha sübut edir. Gəncə, Mingəçevir, Bərdə və Tərtərin mülki əhalisinin raket atəşinə tutulması Ermənistanın müharibə cinayətlərinin göstəricisidir. Ermənistan müasir dünyaya uyğun gəlməyən, beynəlxalq qanunları pozan cinayətkar dövlətdir və öz cəzasını almalıdır.

#### Kütləvi məzarlıqlar erməni vəhşiliyinin növbəti təsdiqidir

Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin deputatı Elman Məmmədov qəzetimizə açıqlamasında qeyd edib ki, Xocavənd rayonunun Edilli kəndində aşkarlanan kütləvi məzarlıq sonuncu deyil.

Onun sözlərinə görə, işğaldan azad olunmuş ərazilərimizdə istintaq axtarış işləri davam etdikcə, belə kütləvi məzarlıqlar üzə çıxacaq. Xocalı, Xocavənd, keçmiş Ağdərə rayonu, Xankəndi ərazilərində daha çox kütləvi məzarlıqlar aşkarlanacaq. Birinci Qarabağ müharibəsi dövründən bu günə qədər 4 minə yaxın Azərbaycan vətəndaşının taleyi məlum deyil. Təəssüf ki, beynəlxalq qurumlar Azərbaycanın haqlı tələbləri ilə əlaqədar Ermənistan qarşısında ciddi tələb qoymurlar. Kütləvi məzarlıqlar bir-birinin ardınca üzə çıxır. Bunlar erməni vəhşiliyinin növbəti təsdiqidir, həm də müharibə cinayətidir.

Elman Məmmədov deyir ki, ermənilər tarix boyu qəddarlıq, dinc insanlara qarşı vəhşilik ediblər. Bunun canlı şahidləri hazırda da yaşayırlar: "Aşkar olunan kütləvi məzarlıqlar, baş verən hadisələr, çəkilən lentlər, təkcə bir gecə içərisində Xocalıda qətlə yetirilən 613 nəfər, bir neçə saat ərzində Xocavəndin Qaradağlı kəndində 100-dən çox insanın diri-diri silos quyularına basdırılması, Bağanıs Ayrım, Ağdaban, Başlıbel, Ballıqaya faciələri erməni vəhşiliyinin saysız-hesabsız müharibə cinayətləridir".

Deputat deyir ki, faktlarla təsdiqini tapan erməni vəhşiliyinə görə beynəlxalq aləmdən hələ də səs çıxmır: "Azərbaycan tərəfi olaraq faktları, sübutları ortaya qoyanda beynəlxalq qurumların gözləri kor, qulaqları kar olur. Amma erməni fitnəkarlığına görə Azərbaycanın üzərinə basqınlar edir, bizə qarşı şər-böhtan kampaniyası aparırlar. Bax budur onların "haqq"ı, "ədalət"i müdafiə etməsi. Burada ikili, üçlü standartlar özünü büruzə verir".

Elman Məmmədovun bildirir ki, Edillidəki məzarlıqla bağlı araşdırmalar davam edir: "Həmin dövrdə o ərazilərdə döyüşən hərbçilərin siyahısı var, yerləri məlumdur, müvafiq qurumlar araşdırmalar aparıb həmin şəxslərin kimliyini müəyyənləşdirməyə çalışacaqlar".

Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində Birinci Qarabağ müharibəsində 3890 Azərbaycan vətəndaşı hələ də itkin düşmüş şəxs kimi dövlət komissiyasında qeydiyyatdadır. Onlardan 3171 nəfəri hərbçi, 719 nəfəri mülki şəxsdir.

***Əsmər QARDAŞXANOVA, "Azərbaycan"***



Zaman hər ötən gün faşist xislətli ermənilərin Azərbaycan xalqına qarşı törətdikləri insanlıq əleyhinə cinayətləri faktlarla ortaya çıxarır. Erməni faşizminin qanlı əməllərini sübuta yetirən növbəti dəlil - Birinci Qarabağ müharibəsi zamanı Ermənistan tərəfindən işgəncələrə məruz qalaraq öldürülmüş 12 Azərbaycan hərbçisinə aid kütləvi məzarlıq isə bu yaxınlarda Xocavəndin Edilli kəndində aşkarlandı.



# Erməni faşizminin qanlı siması Edillidə yenidən üzə çıxdı

### Xocavənddə Ermənistan tərəfindən işgəncələrə məruz qalaraq öldürülmüş daha 12 Azərbaycan hərbçisinə aid kütləvi məzarlıq aşkarlandı

Bəli, nə tarix, nə də zaman işğalçı Ermənistanın törətdiyi qanlı əməllərə dünya kimi göz yummur və hər səhifəsində onların vəhşi əməllərinin izini saxlayaraq silinməsinə, gizlənməsinə imkan vermir. Hər ötən an ermənilərin mənfurluqlarını gün üzünə sərərək əsl xislətlərini ortaya çıxarır, bu insan qatillərinin haqq, ədalət və qanun qarşısında cavab verməkdən yayınmalarına izin vermir...

#### Qan yaddaşımız

XX əsrin əvvəllərindən etibarən erməni millətçiləri ardıcıl olaraq Azərbaycan xalqına qarşı soyqırımı siyasəti həyata keçiriblər. Erməni quldurları Bakıda, Şuşada, İrəvan və Naxçıvan mahallarında, Qarabağda, Borçalıda, Qazaxda, Zəngəzurda, Gəncədə, Qubada, Tiflisdə və digər yerlərdə on minlərlə azərbaycanlını kütləvi şəkildə qətlə yetiriblər. Bu amansız siyasət nəticəsində 1905-1907-ci illərdə, 1918-1920-ci illərdə, 1948-1953-cü illərdə və 1988-1994-cü illərdə xalqımızın başına olmazın müsibətlər gətirərək ard-arda soyqırımı törədiblər.

Birinci Qarabağ müharibəsi dövründə də işğalçı Ermənistan beynəlxalq hüquq normalarını və humanitar hüququn tələblərini kobud şəkildə pozaraq dayanmadan müharibə cinayətləri törədib, mülki əhalini girov götürüb, soydaşlarımıza olmazın işgəncələr verib, onları xüsusi amansızlıqla öldürüblər. Həmin dövrdə erməni qatilləri Ballıqaya, Qaradağlı, Ağdaban kimi faciələr törədiblər.

1992-ci il fevralın 26-da isə erməni cəlladları Xocalı sakinlərini soyqırıma məruz qoyublar. Bu qırğının nəticəsində 613 günahsız insan xüsusi amansızlıqla qətlə yetirilib. Onlardan 63-ü uşaq, 106-sı qadın, 70-i yaşlılar olub. 8 ailə tamamilə məhv edilib, 25 uşaq hər iki valideynini, 130 uşaq valideynlərindən birini itirib. Həmçinin 487 nəfər ağır yaralanıb, 1275 nəfər girov götürülüb. Faciədən sonra əsir götürülən azərbaycanlılar amansız işgəncələrə məruz qalıblar.

O da dəhşətli faktdır ki, faşist ideologiyalı ermənilər xalqımıza qarşı törətdikləri bu qanlı əməllərini əcnəbi KİV-ə verdikləri müsahibələrində, qələmə aldıqları yazılarında dünyaya bəyan etməkdən də ar etməyiblər.

Eləcə də erməni qatillərinin bu hərbi cinayətlərinə 44 günlük müharibə dövründə şahidlik etdik, mülki əhalimiz Gəncədə, Bərdədə, Tərtərdə bu terrorçuların törətdikləri qətliamlara məruz qaldı.

Ermənistanın Azərbaycana qarşı törətdiyi hərbi cinayətlərin bəzisi ABŞ Dövlət Departamentinin Demokratiya, İnsan Hüquqları və Əmək Bürosunun 2021-ci il dünya ölkələrində insan hüquqlarının vəziyyətinə dair illik hesabatında da yer alıb. Belə ki, hesabatın Ermənistan hissəsində bildirilib ki, 2020-ci ildə etnik erməni qüvvələri bəzi azərbaycanlı əsirləri qanunsuz şəkildə qətlə yetirib və işgəncələrə, ləyaqəti alçaldan rəftarlara məruz qoyublar. O da bildirilib ki, Azərbaycan Respublikasının Baş Prokurorluğu Kəlbəcər rayonunun Başlıbel kəndində 1993-cü ildə erməni silahlı qüvvələri tərəfindən öldürülən azərbaycanlılara aid məzarların axtarışına başlayıb. Həmçinin Füzuli, Ağdam, Zəngilan, Kəlbəcər və Cəbrayılda azərbaycanlılara məxsus onlarca qəbiristanlığın dağıdılması ilə bağlı sübutlar üzə çıxıb.



#### 44 günlük müharibə həm də erməni faşizminin iç üzünü açdı

44 günlük Vətən müharibəsində qazandığımız qələbədən sonra erməni cəlladlarının azərbaycanlılara qarşı törətdikləri neçə-neçə qandonducu qətliamlar üzə çıxıb. Xocavəndin Edilli kəndində, Ağdam, Füzuli, Xocavənd və Şuşa şəhərinin ətraflarında, Xocalının Fərrux, Kəlbəcərin Başlıbel kəndi ərazisində kütləvi məzarlıqlar aşkarlanıb.

Ermənistan tərəfindən həyata keçirilən çoxsaylı müharibə cinayətlərindən biri də 1993-cü il aprelin 18-də Kəlbəcərin Başlıbel kəndində törədilib. Kəlbəcərin işğalı zamanı Ermənistan silahlı qüvvələrinin Başlıbel kəndində dinc əhaliyə qarşı törətdiyi kütləvi qətllər Azərbaycan Respublikası Baş Prokurorluğunun apardığı istintaqla da rəsmi təsdiqini tapıb. Cinayət işinin istintaqı zamanı kənddə mülki əhaliyə qarşı xüsusi amansızlıq və qəddarlıq nümayiş etdirildiyi sübuta yetirilib. Belə ki, 24 aprel 2021-ci ildə Baş Prokurorluğun İstintaq idarəsinin müstəntiqləri tərəfindən məhkəmənin meyitlərin ekshumasiyası haqqında qərarına əsasən, Başlıbel kəndində müvafiq istintaq hərəkətləri keçirilərək 50 sm dərinlikdə torpağa basdırılmış kəskin çürüməyə məruz qalaraq skeletləşmiş 12 nəfərin meyitlərinin qalıqları aşkar edilib.

Başlıbeldə qətlə yetirilənlərdən 12 nəfərin cəsədi ötən ilin aprelində ekshumasiya edilərək Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyinə gətirilərək müvafiq istintaq hərəkətləri aparılıb. Faciə qurbanlarının meyit qalıqlarından və həmin şəxslərin ailə üzvlərindən götürülmüş DNT analizlərinin, molekulyar-genetik və digər xüsusatların araşdırılması üçün tibbi-kriminalistik ekspertizaların nəticələri onların erməni hərbçiləri tərəfindən güllələnərək qətlə yetirildiyini təsdiqləyib.

#### Erməni vandallığına bir neçə nümunə

2022-ci ilin fevral ayında Xocavənd rayonunun Edilli kəndi ərazisində Azərbaycan Ordusunun hərbi qulluqçularının olması ehtimal edilən şəxslərin kütləvi dəfn edildiyi məzarlıq aşkar edilib.

Məzarlıq Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının İşçi qrupunun topladığı şahid ifadələri və materiallar əsasında müəyyən edilib. Komissiyasının araşdırmaları zamanı o da məlum olub ki, işğaldan azad edilən Ağdam, Füzuli, Xocavənd və Şuşa şəhərinin ətraflarında da belə məzarlıqlar mövcuddur. Edilli kəndindəki kütləvi məzarlıq da bunlardan biridir. İlkin məlumatlara görə, məzarlıqda 15-20 nəfərin qalıqları var.

Edilli kəndindəki kütləvi məzarlığa xarici və yerli KİV nümayəndələrinin iştirakı ilə baxış keçirilib. Məzarlıq haqqında məlumat verən Şəmsi Şıxəliyevi 1993-cü il avqustun 28-də ermənilər girov götürüb. 48 gün bu kənddə girov qalıb və həmin müddətdə Füzulinin kəndlərində gedən döyüşlərdə ölən Azərbaycan hərbçilərinin "KamAz" markalı maşınla daşınıb gətirildiyini, bu kəndin ərazisində kütləvi şəkildə traktorla qazılan quyulara töküldüyünü qeyd edib.

Erməni vandallığına daha bir fakt isə bu il martın sonlarında Azərbaycan Ordusunun hərbçiləri tərəfindən Xocalı rayonunun Fərrux kəndi ərazisindəki mövqelərdə qazıntı işləri apararkən üzə çıxıb. Belə ki, onlar qazıntı apardıqları ərazidə insan skeletləri aşkar ediblər.

Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası faktla bağlı bildirib ki, Fərrux yüksəkliyi uğrunda Birinci Qarabağ müharibəsi zamanı ağır döyüşlərin getdiyini və Ermənistan silahlı birləşmələri tərəfindən işğal edildiyini nəzərə alaraq, tapılan meyit qalıqlarının şəhid olmuş Azərbaycan hərbçilərinə aid olduğu ehtimal edilir.

Birinci Qarabağ müharibəsində Fərrux yüksəkliyi uğrunda döyüşlərdə 62 nəfər Azərbaycan hərbçisi itkin düşmüş şəxs kimi Dövlət Komissiyasında qeydiyyata alınıb.

Eyni zamanda bu qurumda toplanmış məlumatlara əsasən, Fərrux yüksəkliyinin yaxınlığında yerləşən, Xocalı rayonu Pirlər kəndində 46 nəfər, Ağdam rayonu Əliağalı kəndində 11 nəfər Azərbaycan hərbçisi itkin düşüb.

#### Meyit qalıqları Azərbaycan hərbçilərinə aiddir

Bu günlərdə Xocavəndin Edilli kəndində daha bir kütləvi məzarlıq aşkar edilib. Vətən müharibəsi sayəsində Ermənistanın işğalından azad edilən bu kənddə hərbçi olduğu ehtimal olunan 12 nəfərin məftil və kəndirlə bağlanmış, həmçinin işgəncə əlamətləri aşkarlanan qalıqları tapılıb.

Səhiyyə Nazirliyinin Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyinin Tibbi Kriminalistika şöbəsinin rəisi Nuranə Hüseynova bildirib ki, meyit qalıqları Azərbaycan hərbçilərinə aiddir: "Onların üzərində paltarlar, ayaqlarında qara dəriyə bənzər çəkmələr var. Bundan başqa, sahələrdən kimlik sənədləri, iki ədəd bıçaq, siqaret kötükləri, güllə, patron və gilizlər aşkar olunub. Aşkar olunan skeletlərin belində kəmərlər var. Bu kəmərin üzərindəki paslanmış dəmir lövhədə çəkic, oraq və ulduz təsvirləri qeyd olunub".

O qeyd edib ki, skelet sümükləri qablaşdırılaraq Hərbi Prokurorluğun qərarı ilə birlikdə müayinə üçün məhkəmə-tibbi kriminalistika şöbəsinə göndəriləcək və daha dəqiq müayinələrin aparılması davam etdiriləcək.

#### Ermənistan itkin düşmüş 4 minədək azərbaycanlının taleyinə heç bir aydınlıq gətirməyib

Ermənilərin xalqımıza qarşı həyata keçirdiyi bu insanlıqdan uzaq əməlləri yuxarıda sadaladığımız faktlarla bitmir. İşğaldan azad edilən torpaqlarımız minalardan təmizləndikcə Ermənistan silahlı qüvvələrinin və onların əlaltılarının törətdikləri cinayətlər də bir-bir ortaya çıxır.

Azərbaycan dövləti erməni vəhşiliklərinin bütün dünyaya çatdırılması, onların faşist xislətindən hər kəsin xəbərdar olması üçün böyük işlər görür, bu məsələləri beynəlxalq tribunalarda daim səsləndirir, Birinci Qarabağ müharibəsində itkin düşmüş şəxslərin taleyi, kütləvi məzarlıqların yerinin müəyyənləşdirilməsi barədə məsələ qaldırır.

Ümumiyyətlə, Birinci Qarabağ müharibəsində 71-i uşaq, 267-si qadın və 326-sı ahıl olmaqla, ümumilikdə 4 minə yaxın Azərbaycan vətəndaşı itkin düşüb.

Ermənistan tərəfi itkin düşmüş həmin azərbaycanlıların taleyinə indiyə qədər də heç bir aydınlıq gətirməyib.

44 günlük müharibədən sonra Azərbaycanın əsas tələblərindən biri Ermənistanın Birinci Qarabağ müharibəsində itkin düşmüş 4 minədək azərbaycanlı haqqında məlumatı, eləcə də kütləvi məzarlıqların koordinatlarını verməsi barədədir.

O da faktdır ki, dünya erməni qatillərinin təkcə tarixin dərin qatlarında yox, bu yaxın zamanlarda elə onların gözləri önündə törətdikləri qətliamlara da göz yummaqda davam edir.

Hələ də bu qətliamları, soyqırımlarını törədən faşist xislətlilər cəzalandırılmayıb, hələ də Ermənistan tərəfindən törədilmiş müharibə cinayətlərinin araşdırılması istiqamətində heç bir addım atılmayıb.

Amma xalqımız heç bir zaman erməni vəhşiliyini, erməni faşizmini unutmayacaq. Necə ki, Azərbaycan cəmi 44 gün ərzində Ermənistanı qarşısında diz çökdürərək işğal altında qalan torpaqlarını azad etdi, eləcə də millətinə qarşı hərbi cinayətlər törədən bu qaniçən canilərin cəzasını da özü kəsəcək.

"Dəmir yumruq" Ermənistanı Azərbaycana qarşı törətdiyi müharibə cinayətlərinə görə ədalət və hüquq qarşısında cavab verməyə məcbur edəcək, cinayətkarlar öz layiqli cəzalarını alacaqlar.

***Yasəmən MUSAYEVA, "Azərbaycan"***




# Erməni terrorizmi beynəlxalq terrorizmin tərkib hissəsidir








# Gözüyaşlı, həsrətdolu ümidlərin sonu...

## Tapılan hər kütləvi məzarlıq Azərbaycan xalqının köksünə vurulan yaradır









**Aradan otuz illədək bir zaman keçib. Hələ də neçə-neçə ana-ata Birinci Qarabağ müharibəsində iştirak etmiş və itkin hesab olunan övladından xəbər gözləyir. Gözləri qapıda, qulaqları səsdədir.**

Çoxu dünyadan bu dərdlə köçüb. Son nəfəslərində ölümə belə can vermək istəməyiblər. İtkin sayılan övladının şəklini qohum-qonşusu onların sinəsinin üstünə qoyub: "Balan gəldi", - deyiblər. Övladının şəklinin altında son dəfə çırpınıb ürəkləri. İntizar içində bu dünyadan gediblər.

Uzun illərdir ki, itkin sayılan o igidlərin yollarına göz dikən gözəllər də daha həminki deyillər. Aradan uzun illər ötüb axı. Yaşa dolublar. Ancaq o gözəllərin unutmadıqları itkin sayılan o qəhrəmanlar xəyallarda cavan qalıblar. Çünki gedəndə elə gənc, elə yaraşıqlı, elə güclü olublar ki, yollarını gözləyənlər nə ölümü, nə xəstəliyi, nə əlilliyi, nə də qocalığı onlara yaraşdırıblar. İşğalçı ermənilərin əsir və girov götürdükləri azərbaycanlılarla çox amansız, böyük qəddarlıqla davrandıqları, onlara dəhşətli işgəncələr verdikləri hər kəsə məlum olsa da, doğmaları o igidlərdən əllərini üzməyiblər. Möcüzələrə inanmaq istəyiblər. Gözüyaşlı, qüssəli, həsrət dolu ümidlərini qorumağa çalışıblar, qırılmağa qoymayıblar, gündən-günə, aydan-aya, fəsildən-fəslə ötürüblər. Ancaq bu illər ərzində xoş günlərində də ürəkdolusu şadlana, gülə bilməyiblər.

Ən çox torpaqlarımızın Ermənistanın işğalından azad edildiyi günlərdə seviniblər. 2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin növbəti təxribatı nəticəsində başlayan və 44 gün davam edən İkinci Qarabağ müharibəsi Azərbaycanın böyük qələbəsi ilə bitdi. İfadə edilməsi mümkünsüz olan hisslər, Zəfər qüruru, fəxarəti yaşadı hər bir azərbaycanlı.

Qəsbkar ermənilərin Azərbaycana vurduqları yaraların nə qədər dərin olduğunu Qarabağ və Şərqi Zəngəzur işğaldan azad edildikdən sonra daha aydın gördük. 1990-cı illərdə təcavüzkar ermənilər məmləkətimizin zəbt etdikləri abad yurdlarını xarabalığa çevirmişdilər. İndi həmin ərazilərdə sürətli və genişmiqyaslı tikinti-quruculuq, abadlıq işləri aparılır. Azərbaycan dövləti, Azərbaycan xalqı vandalların dağıtdıqları, yerləyeksan etdikləri yaşayış məntəqələrini yenidən qurur.

Və təəssüf ki, işğaldan azad edilmiş ərazilərimizdə təcavüzkar ermənilərin Birinci Qarabağ müharibəsi zamanı Azərbaycan xalqına qarşı törətmiş olduqları terror əməlləri barədə dəhşətli faktlar üzə çıxır. Bunlardan biri də bu günlərdə Xocavənd rayonunun Edilli kəndində aşkar edilən daha bir kütləvi məzarlıq oldu. Məzarlıqda on iki insan qalığı var. Onların geyim və əşyalarından hərbçi olduqları bəlli olur. Aşkar olunmuş qalıqların Birinci Qarabağ müharibəsi dövründə itkin düşmüş, bugünədək taleyi məlum olmayan azərbaycanlılara məxsus olma ehtimalı var. Məftil və kəndirlərdən istifadə olunmaqla əl-ayağı bağlanaraq kütləvi şəkildə dəfn edilmələri erməni vandalların azərbaycanlı hərbi əsirləri işgəncə verərək qətlə yetirdikləri ilə bağlı bir çox ifadələri sübut edir.



Hər kəsə məlum olan faktlardır ki, Birinci Qarabağ müharibəsi zamanı 71-i uşaq, 267-si qadın və 326-sı ahıl olmaqla, ümumilikdə 3890 Azərbaycan vətəndaşı itkin düşüb. Dəfələrlə edilən çağırışlara baxmayaraq, Ermənistan tərəfi həmin şəxslərin taleyi, həmçinin azərbaycanlıların kütləvi dəfn yerləri barədə məlumatları təqdim etməkdən boyun qaçırır. Bununla törətdiyi müharibə cinayətlərini dünya ictimaiyyətindən gizlətməyə çalışır. Amma dəhşətli əməllərini ört-basdır edə bilmir...

Erməni daşnakları XX əsrin birinci və ikinci onilliklərində Azərbaycanın müxtəlif ərazilərində - Bakıda, Şamaxıda, Qubada, Qarabağda, indiki Ermənistanda azərbaycanlılara qarşı dəhşətli qırğınlar, soyqırımları törədən babalarının vəhşi, qəddar əməllərini həmin əsrin sonuncu onilliyində davam etdirdilər. 1980-ci illərin axırlarında Azərbaycanın yeni ərazilərini işğal etmək, azərbaycanlılara divan tutmaq məqsədilə hücuma keçdilər. Münaqişəni getdikcə daha da alovlandırdılar. Ermənilər Ermənistan adlı dövlət qurduqları tarixi Azərbaycan ərazilərinin əsl sahiblərini - azərbaycanlıları təhdidlər, təzyiqlər, qətllər nəticəsində son nəfərinədək qovmağa nail oldular. 1990-cı illərin birinci yarısında Qarabağı və Şərqi Zəngəzuru işğal etdilər. Həmin ərazilərdə də soydaşlarımıza qarşı amansız oldular.

Son vaxtlar erməni vəhşiliklərinin təzahürü kimi, Ağdamda, Ağdabanda, Fərruxda kütləvi məzarlıqlar aşkarlanıb. Xocavəndin Edilli kəndində, eyni ərazidə üç yerdə azərbaycanlıların qətlə yetirilərək basdırıldığı toplum məzarlıq müəyyən edilib.

Təəssüf ki, erməni qəsbkarların XX əsrin sonlarında Azərbaycan xalqına vurduğu ağır yaralar, törətdikləri qətliamlar bu toplum məzarlıqların sonuncu olmayacağını deməyə əsas verir. Azərbaycan tarixinin faciələrlə dolu səhifələri yada düşür.

1990-cı il martın 24-ü... O gün Qazax rayonunun Bağanis Ayrım kəndində ermənilər faciələr törətdilər. Onlar 7 nəfər kənd sakinini yandırdılar, 2 nəfəri güllələdilər. İşgəncələr verilərək qətlə yetirilənlərin ən yaşlısı 75 yaşında, ən kiçiyi 39 günlük idi.

1991-ci ilin iyun-dekabr aylarında erməni silahlıları Xocavəndin Qaradağlı və Əsgəran rayonunun Meşəli kəndlərinə hücum edərək 12 azərbaycanlını qətlə yetirdilər, 15-ni yaraladılar. Ermənilərin 1991-ci il oktyabrın axırında və noyabrda Malıbəyli, Kərkicahan, Meşəli, Quşçular kəndlərində qətliamlar törətdilər.

1992-ci il yanvarın 25-26-da uğursuz Daşaltı əməliyyatında erməni güllələrinə tuş gələn 90-dək azərbaycanlıdan 30-a yaxını itkin düşmüş hesab edilir. Daşaltı kəndində keçən ilin fevralında aparılan axtarış tədbirləri nəticəsində naməlum cəsəd qalıqları aşkar olundu.

1992-ci il fevralın 25-dən 26-na keçən gecə yağı düşmən Xocalı adlı şəhəri yer üzündən sildi. 1275 nəfəri əsir götürdülər. Onlardan 150 nəfərinin, eləcə də 68 qadın və 26 uşağın aqibəti məlum deyil.

Ermənistan silahlı qüvvələri və Qarabağdakı erməni hərbi birləşmələri 1992-ci il aprelin 7-dən 8-nə keçən gecə Kəlbəcər rayonunun Ağdaban kəndində qətliam törətdilər. Ağdabanın 779 dinc sakininə divan tutdular. 67 nəfəri işgəncələrlə öldürdülər. 8 qoca, 2 uşaq və 7 qadını diri-diri yandırdılar. 2 nəfərin taleyi bu günədək məlum deyil.

Ermənilər daha bir qətliamı 1992-ci il avqustun 28-də Goranboy rayonunun Ballıqaya yaylağında törətdilər. Həmin günün səhəri Ermənistanın silahlı qüvvələri alaçıqları iriçaplı silahlardan və qumbaraatanlardan amansızlıqla atəşə tutdular. 24 nəfər azərbaycanlı Ballıqaya faciəsinin qurbanı oldu. Bu dəhşətli faciələrin baş verdiyi yaşayış məntəqələrimizdə də kütləvi məzarlıqların olduğu bildirilir...

Yüzlərlə soydaşımız ailə üzvlərinin gözləri qarşısında silahlı ermənilər tərəfindən güllələndi, işgəncə verilərək, yandılaraq, doğranaraq qətlə yetirildi. İllərdir ki, son taleyi naməlum olanların, itkin sayılanların isə geri dönəcəyini hələ də gözləyənlər var. Bəlkə də onların arasında Xocavəndin Edilli kəndində Birinci Qarabağ müharibəsində ermənilər tərəfindən amansızlıqla qətlə yetirilərək dəfn edilən 12 hərbçimiz də vardı. Nişan üzükləri, toy xınaları, bəylik paltarları boğçalarda qalan daha neçə igid Azərbaycan oğullarını kim bilir ermənilər hansı şəraitdə əzablar verərək öldürüb, hansı kütləvi məzarlıqlarda basdırıblar...

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*




# Yaponiya portalı Xocavənddə aşkarlanmış növbəti kütləvi məzarlıq barədə məlumatlar yayıb

Yaponiyanın "ajmedia.jp" portalı erməni hərbçilərinin azərbaycanlıları kütləvi şəkildə basdırdıqları daha bir məzarlığın tapılması barədə məlumatlar yayıb.

AZƏRTAC-a istinadla yapon və ingilis dillərində yayılan məlumatlarda erməni hərbçilərinin Birinci Qarabağ müharibəsində Xocavəndin Edilli kəndində azərbaycanlıları kütləvi şəkildə qətlə yetirərək basdırdıqları daha bir məzarlığın tapıldığı qeyd edilib. Məzarlıqda 12 nəfərin qalıqlarının üzə çıxarıldığı bildirilib.

Məlumatlarda əşyalarla birlikdə aşkarlanan skeletlərin əllərinin və ayaqlarının məftil və kəndirlə bağlandığı vurğulanıb. Müvafiq qurumların nümayəndələrinin və KİV təmsilçilərinin kütləvi məzarlığa baxış keçirdiyi qeyd edilib.

Bildirilib ki, bu, Edilli kəndində ermənilərin azərbaycanlıları vəhşicəsinə öldürərək kütləvi şəkildə basdırdıqları növbəti məzarlıqdır. Cari ilin fevralında əraziyə səfər edən Fransa, Niderland, Çexiya, ABŞ, Ukrayna, Moldova, Türkiyə, Şimali Kipr, Malayziya, Yaponiya, Misir, Əlcəzairdən olan jurnalistlər həmin kənddə tapılan birinci məzarlıqda erməni vandalizmini lentə alıblar.









# Müzəffər Sərkərdənin qüdrətli Ordusu

# Hər bir şəhid mənim qardaşımdır

Qardaş bacının güvən yeri, dayağıdır. Bacılar daim qardaşları ilə qürur duyar, onlarla nəfəs alarlar. Əgər o qardaş eli-obası, Vətəni üçün gərəkli övladdırsa, bacının qüruru birəyüz artar. Mən də Vətən müharibəsində şəhidlik zirvəsinə yüksələn qardaşım Mehman Yusifovla fəxr edirəm.

Mehmanın itkisi nə qədər ağır olsa da, bizim ailə başını dik tutur, Vətənə gərəkli oğul böyütdüyü üçün qürur duyur. Əslində, Vətən yolunda həyatından keçən bütün igidlər mənim qardaşımdır. Onların hamısı Mehmanın məsləkdaşı, silahdaşı olduğu üçün mənə doğmadır. Odur ki, Mehmanla yanaşı, onun döyüş dostu Xəyal Şəkərovdan da söz açacağam.





Mehman Yusifov 1979-cu il iyulun 18-də Tovuz rayonunun Bayramlı kəndində anadan olub. Xüsusi Təyinatlı Qüvvələrin sıralarında xidmət edən qardaşıma Azərbaycan Respublikası Müdafiə Nazirliyinin 25 iyun 2013-cü il tarixli əmri ilə baş gizir hərbi rütbəsi verilib. O, xüsusi təyinatlı qrupun kəşfiyyatçısı, rabitə bölüyünün baş çavuşu, mühafizə və təminat bölüyünün baş çavuşu, maddi-texniki təminat bölüyünün baş çavuşu vəzifələrində xidmət edib. 2016-cı ilin Aprel döyüşlərində yağı düşmənlə ön cəbhədə savaşıb.

Mehman Vətən müharibəsi zamanı ilk gündən cəbhədə olmuş, Cəbrayılın azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Mənim üçün qürur doğuran bir haldır ki, canını müqəddəs Vətən torpağı uğrunda fəda edərək şəhidlik zirvəsinə ucalan qəhrəmanlardan biri də Xüsusi Təyinatlı Qüvvələrin baş giziri, mənim qardaşım Yusifov Mehman Musa oğlu olmuşdur. Döyüş zamanı alın nahiyəsindən xəsarət alan Mehman yarasını sarıyaraq yenidən savaşa atılır. Döyüş yoldaşlarına təminatı vaxtında çatdıraraq özü də onlarla birlikdə son damla qanına qədər vuruşmuşdur. Cəbrayıl rayonunun azad olunması zamanı Vətən qarşısındakı borcunu yerinə yetirərkən 5 oktyabr 2020-ci il tarixdə 7 nəfər döyüş yoldaşı - gizir Qədirov Şahin Bayram oğlu, gizir Həsənov Faiq Hüseyn oğlu, gizir Səmədov Mais Sadıbəy oğlu, gizir Mütəllimov Qəzənfər Ədalət oğlu, kiçik gizir Rəsulov Mirbala Əmirağa oğlu, baş çavuş Qasımov Naib Akif oğlu, əsgər Rəhimov Ülvi Rabil oğlu ilə birlikdə qəhrəmancasına şəhid olmuşdur. Mehman döyüş zamanı çeviklik və cəsarət göstərərək düşmənin xeyli canlı qüvvəsini məhv etmişdir.

41 illik ömrünün yarıdan çoxunu vətənin müdafiəsinə həsr edən qardaşım, XTQ-nin baş giziri Mehman Yusifov qüsursuz və şərəfli hərbi xidməti dövrü ərzində dövlət və Müdafiə Nazirliyi tərəfindən çoxsaylı fəxri fərmanlar və medallarla təltif olunmuşdur. O cümlədən şəhidliyindən sonra "Vətən uğrunda", "Cəbrayılın alınmasına görə" medallarına və "Qarabağ" ordeninə layiq görülmüşdür.

Mehmanın bizlərə üç övladı əmanət qalıb. Bizim üçün ən böyük təsəlli və güc qaynağı o nur üzlü balaların varlığıdır. Üzərimizə düşən ən böyük vəzifə onların atalarının adına layiqli şəkildə böyüyüb tərbiyə almasıdır.

Qardaş saydığım şəhid Xəyal Şəkərov da vətənini canı qədər sevən oğullardan idi. O, 1998-ci il oktyabrın 1-də Tovuz rayonunun Əsrik Cırdaxan kəndində dünyaya gəlib.

Xəyal hələ orta məktəbdə oxuyarkən intensiv şəkildə idmanla, həmçinin güləşlə, qaydasız döyüşlə məşğul olub. Müxtəlif idman yarışlarında iştirak edib, qaydasız döyüş üzrə respublika birincisi adına layiq görülüb.

Xəyal orta məktəbi bitirdikdən sonra 2016-cı il oktyabrın 5-də həqiqi hərbi xidmətə gedib. 2018-ci ilin aprelində tərxis olunan Xəyal öz xəyallarının ardınca gedərək həmin ilin sentyabr-oktyabr aylarında gizirlik kursunu keçib. Həmin ilin noyabr ayında isə Ağdam rayonunda Xüsusi Təyinatlı Qüvvələrin kəşfiyyat bölməsində müddətdən artıq hərbi xidmətə başlayıb. Xəyal Şəkərov həmişə öz peşəkarlığını daha da artırmağa həvəsli olub. Xəyalın potensialını düzgün qiymətləndirən komandanlıq onu 2019-cu ilin oktyabr ayından etibarən Xüsusi Təyinatlı Qüvvələrin 6 aylıq kursuna göndərib. 2020-ci ilin aprel ayında bu kursu da uğurla bitirən Xəyal xidmətini yeni bilik və bacarıqlarla Xüsusi Təyinatlı Qüvvələrdə davam etdirib.

Xəyal Cəbrayıl şəhərinə bayraq sancan cəngavərlərin sırasında olub. Kəlbəcər, Cəbrayıl və Xocavənd rayonunun işğaldan azad olunmasında xüsusi rəşadət, şücaət və mərdlik nümayiş etdirib. Eləcə də bir sıra kəndlərin alınmasında xüsusi xidmətləri olub. Xəyal həmçinin döyüş yoldaşlarının pusqudan çıxarılmasında, şəhid və yaralı silahdaşlarının təxliyə edilməsində böyük peşakarlıq göstərmiş, yaralı yoldaşlarına ilk tibbi yardımın göstərilməsində yaxından iştirak etmişdir. Azərbaycan Ordusunun giziri Xəyal Şəkərov 2020-ci il oktyabarın 13-də Hadrud qəsəbəsində gedən qızğın döyüşlər zamanı düşmən tərəfindən açılan atəş nəticəsində aldığı güllə yarasından şəhid olmuşdur.

Prezident İlham Əliyevin sərəncamları ilə şəhidliyindən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Kəlbəcərin azad olunmasına görə" "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Tovuz Olimpiya İdman Kompleksində şəhid Şəkərov Xəyal İman oğlunun xatirəsinə həsr olunmuş sərbəst güləş üzrə yeniyetmələr və kiçik yaşlılar arasında rayon turniri keçirilmişdir. Turnirdə 2 şəhər və 6 rayondan 130-dan çox idmançı iştirak etmişdir. Bununla yanaşı, Xəyal Şəkərovun əziz xatirəsini əbədiləşdirmək məqsədilə keçən il şəhidimizin adını daşıyan bulağın açılışı olmuşdur.

Sizin qanınızla suvarıb azad etdiyiniz torpaqlar əbədilik bizimdir və müqəddəsdir, əziz şəhid qardaşlarım. Hər zaman xalqın yaddaşında yaşayacaqsınız.



***Zəkiyyə YUSİFOVA,***
***şəhid bacısı***

## ZƏFƏR gündəliyi

## 6 oktyabr 2020-ci il

❖ ❖ ❖



Cəbhənin bütün istiqamətlərində döyüşlər gedir. Müdafiə Nazirliyi işğaldan azad edilmiş Cəbrayıl rayonunun Çaxırlı kəndinin videogörüntülərini yayır.

Azərbaycan Ordusunun əks-hücum əməliyyatı zamanı müxtəlif istiqamətlərdə düşmənin zirehli texnikaları, atəş dəstək və təminat vasitələri darmadağın edilib. Düşmənin 63-cü tank taborunun daha 3 tankı, o cümlədən 41-ci və 62-ci artilleriya alaylarının 4 ədəd BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemi məhv edilib. 42-ci artilleriya alayının atəş mövqeyində yerləşdirilmiş D-20 artilleriya qurğuları və onların heyətləri zərərsizləşdirilib.

❖ ❖ ❖

Ermənistan silahlı qüvvələri Yevlax, Goranboy və Beyləqan rayonlarının ərazilərini atəşə tutur.

❖ ❖ ❖



İran İslam Respublikasının Prezidenti Həsən Ruhani Azərbaycan Prezidentinə telefonla zəng edir.

Həsən Ruhani Ermənistan-Azərbaycan təmas xəttində silahlı qarşıdurmanın davam etməsindən ölkəsinin narahatlığını və münaqişənin tez bir zamanda sülh yolu ilə həll olunacağına ümidvar olduğunu bildirir.

Prezident İlham Əliyev qeyd edir ki, Ermənistanın təxribatına cavab olaraq başlanan savaşda hərbi qulluqçularımız, 27 mülki şəxsimiz həlak olub, 170-dən çoxu yaralanıb, 900-dən artıq evə ziyan dəyib və ya tamamilə dağıdılıb. Azərbaycan tərəfi uğurlu əks-hücum əməliyyatları həyata keçirərək, işğal olunmuş torpaqlarımızın bir hissəsini işğaldan azad edib.

Dövlətimizin başçısı qeyd edib ki, İran-Azərbaycan dövlət sərhədinin işğal olunmuş ərazisinin bir hissəsi Azərbaycanın nəzarətinə keçib və sərhədboyu işğaldan azad olunmuş ərazilərdə tezliklə Azərbaycan sərhəd qoşunlarının və sərhəd infrastrukturunun yerləşdirilməsi nəzərdə tutulur.

Prezident həmçinin Ermənistanın davam edən hərbi təcavüzünün və təxribatlarının regionda sülhün və təhlükəsizliyin təmin olunması işində ən böyük əngəl olduğunu bildirmişdi.

❖ ❖ ❖



Rusiyanın "Pervıy kanal" televiziyasına müsahibə verən Prezident İlham Əliyev Azərbaycanın savaşa muzdlu döyüşçüləri cəlb etməsi ilə bağlı iftiralara cavab verdi.

Prezident dedi ki, bu gün Azərbaycan Ordusu öz ərazilərimizi azad edir. Döyüş əməliyyatları yerindən çəkilmiş videolarda bizim artilleriyanın, pilotsuz uçuş aparatlarının necə işləməsi, azərbaycanlı əsgər və zabitlərin işğaldan azad edilmiş torpaqlarda bayraqlarımızı necə ucaltmaları görünür:

"Buna görə də bu ittihamlar əsassızdır, biz onları qətiyyətlə rədd edirik və bu cür şayiələrin, yoxlanılmamış məlumatların ictimai rəylə necəsə manipulyasiya etməsinə yol verə bilmərik. Qoy sübutlar təqdim etsinlər. Bu gün fəal döyüş əməliyyatlarının onuncu günüdür, bizə heç bir sübut təqdim edilməyib".

Dövlətimizin başçısı vurğuladı ki, Ermənistan yenə də dinc əhaliyə atəş açır. Bu da erməni tərəfinin köhnə taktikasıdır. Onlar hər dəfə döyüş meydanında məğlubiyyətə uğrayanda dinc əhaliyə ziyan vurmağa və beləliklə, Azərbaycan Ordusunun əks-hücumunu dayandırmağa çalışaraq belə alçaq hərəkətlərə əl atırlar. Lakin onlar bu əks-hücumu dayandıra bilmirlər və bilməyəcəklər.

❖ ❖ ❖





Müdafiə naziri, general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə xüsusi xidməti müşavirə keçirilir. Müşavirədə aparılan əks-hücum əməliyyatında hazırda mövcud olan vəziyyət təhlil olunaraq düşmən qüvvələrinin planlı, məqsədyönlü və ardıcıl darmadağın edilməsinin davamlılığı tapşırılır.

Müdafiə naziri qoşunlara azad olunmuş ərazilərdə həyati əhəmiyyətli və ilkin zəruri tədbirlərin görülməsinə göstəriş verir. Nazir tərəfindən "İsgəndər" əməliyyat-taktiki raket komplekslərinin tətbiq olunacağı halda adekvat cavab veriləcəyi bildirilir. Zakir Həsənov Azərbaycan Ordusuna arsenalındakı yüksəkdəqiqlikli və böyük dağıdıcı qüvvəyə malik silah növlərini tətbiq etməklə düşmən tərəfinin hərbi-strateji infrastrukturuna böyük zərbələr endirməyi planlaşdırmağı tapşırır.

Gün ərzində cəbhənin müxtəlif istiqamətlərində gedən döyüşlərdə Ermənistan ordusuna məxsus 2 ədəd BM-21 "Qrad"ı sıradan çıxarılıb.

41-ci artilleriya alayının atəş mövqelərində dayanan "Qrad"lar Azərbaycan Ordusunun atəş zərbəsi ilə məhv edilib.

Bundan əlavə, 42-ci artilleriya alayının atəş mövqeyində yerləşdirilmiş D-20 artilleriya qurğuları və onların heyətləri də bölmələrimizin sərrast atəşi ilə məhv edilib.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***



# O, 16 il vətənin keşiyində dayandı

Azərbaycanın tarixi qələbəsinin mənbəyi xalqımızın həmrəyliyi, Ali Baş Komandanın ətrafında sıx birləşən insanlarımızın inamı, Azərbaycan Ordusunun hünəri və qətiyyəti idi.

Tarixi qələbə milli kimliyimizi, gücümüzü və əzmimizi bütün dünyaya nümayiş etdirdi. 30 il davam edən amansız erməni işğalına qarşı hamı yumruq kimi birləşərək Vətən naminə ölüm-dirim mübarizəsinə qalxdı. Qəhrəman Vətən oğullarının igidliyi sayəsində Azərbaycanın əraziləri işğaldan azad oldu. Ölkəmiz 44 günlük Vətən savaşında böyük Zəfər qazanaraq ərazi bütövlüyünü bərpa etdi.

Milli qüruru, qeyrəti, Vətənə və dövlətə bağlılığı ilə fərqlənən qəhrəmanlarımızdan biri də şəhid kapitan Anar Heydərovdur. O, ömrünün yarısını doğma yurda xidmətə həsr etdi. 16 il qürurla daşıdığı hərbi geyimin haqqını 44 günlük müharibədə verdi. Səsi ilə düşmənin qorxulu kabusuna çevrilən bu igidimiz Aprel döyüşlərində olduğu kimi, 44 günlük Vətən müharibəsində də əsl qəhrəmanlıq nümunəsi göstərdi.



Şəhid Heydərov Anar Bəhruz oğlu 1988-ci il iyunun 1-də Sumqayıt şəhərində dünyaya gəlib. O, 2006-cı ildən Azərbaycan Silahlı Qüvvələrinin zabiti idi. Talış-Suqovuşan bölgəsində döyüşmüşdü. 2016-cı il aprelin 1-dən 2-nə keçən gecədən başlayaraq cəbhənin Tərtər və Cəbrayıl-Füzuli istiqamətlərində şiddətli döyüşlər başlamışdı. Tarixə Aprel döyüşləri kimi yazılan hərbi əməliyyatlarda Anar Heydərov da fərqlənmişdi. 2020-ci il oktyabrın 3-də Vətən müharibəsinin qızğın dövründə isə Talış-Suqovuşan istiqamətində bu igid döyüşçü şəhid olmuşdu.

### "Şəhidlik nəsib oldu, bizi ayırdı"

Ömür-gün yoldaşı Zərifə Heydərova Anar haqqında qürurla danışdı. Dedi ki, yoxluğu əzab olsa da, onun amallarını yaşatmaq naminə ömür sürəcək: "Çox xoşbəxt ailəmiz var idi. Ətrafımızdakılar bizə həsəd aparırdı. İki gül balamız var. Şəhidlik nəsib oldu, bizi ayırdı. Düzdür, cismən yanımızda deyil, amma ruhən həmişə bizimlədi. Yoldaşlarını yaralı halda döyüş meydanından xilas edib. Döyüş yoldaşlarından biri deyirdi ki, ermənilər Anarın səsini eşidəndə tir-tir əsirdilər. Düşmənlə çox yaxın məsafədə döyüşərdi".

Kapitan Anar Heydərov yaralı halda döyüşlərə davam edib, son damla qanına qədər savaşıb. İki postun alınmasında isə əsl qəhrəmanlıq göstərib. Atası Bəhruz Heydərov bildirir ki, şəhid oğlunun iki yadigarı əmanət qalıb: "Deyirdi ki, mütləq torpaqlarımız azad olmalıdır. Bir oğlu, bir qızı var. Arzu edirəm ki, oğlu da atası kimi mərd və cəsur olsun".

Anası Nəcibə Heydərova da övladının döyüş meydanında göstərdiyi qəhrəmanlıqlardan fəxrlə danışır: "Vətənini və ailəsini çox sevirdi. Hər ikisinə sadiq insan idi. Dostları deyir ki, Anar olmasaydı biz şəhid olardıq. O yoldaşlarını mühasirədən çıxarıb, özü isə şəhidlik zirvəsinə ucalıb".

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirən Anar Heydərov Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamına əsasən ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə" və "Suqovuşanın azad edilməsinə görə" medalları ilə təltif edilib.

***Elşən YƏHYAYEV***

# REGİONLAR



**◆ İqtisadiyyatımız Vətən müharibəsi günlərində**



# Kəndlinin əli işdən soyumurdu...

...Namərd yağı ilə apardığımız Vətən müharibəsi, haqq savaşı günün ən vacib məsələsinə çevrilmişdi. Hamı qəlbən, ruhən, işi-əməli, dəstəyi ilə döyüşən ordumuzun, eləcə də erməni vandallarının terror törətdiyi şəhər və kəndlərimizin sakinlərinin yanında idi. Digər tərəfdən də bizi koronavirus pandemiyası sınağa çəkmişdi. Bununla belə, arxa cəbhədə həyat dayanmırdı. İnsanlar çalışır, işləyir, payızın bol nemətlərini toplayır, qışa tədarük edir, qurub-yaradırdılar.

"Zərdabda 1173 tondan çox yerli düyü istehsal olunub".

"İmişlidə tərəvəz sahələrinin hər hektarından 125 sentnerdən çox məhsul götürülüb".

"Salyanda heyvandarlıq məhsulları artır".

"Balakəndə kartof istehsalı ötən illə müqayisədə 205 ton çoxalıb".

Bunlar Vətən müharibəsi günlərinin tək birində verilən məlumatların kiçik bir hissəsidir. Hər gün ölkənin müxtəlif bölgələrindən onlarca bu cür xəbər gəlirdi.

Azərbaycan fermerləri pambıqçılıqda yüksək məhsuldarlıq göstəriciləri əldə edirdilər. Əgər 2019-cu ildə sahələrdən ümumilikdə 295 min ton pambıq yığılmışdısa, 2020-ci ildə Qələbə gününədək bu qədər məhsul toplanmış, noyabrın ortasında isə məntəqələrə təhvil verilən "ağ qızıl"ın həcmi 300 min tonu ötüb keçmişdi.

2020-ci ildə üzüm bağlarından 63 582 ton həcmində məhsul yığıldı. Bu da öncəki illə müqayisədə 12,4 faiz çox idi. Ən yaxşı göstəricilərə Şəmkir, Cəlilabad, Tovuz rayonları nail oldu.

Bir sözlə, Vətən müharibəsi başlananda tarlalarda, bağ və bostanlarda məhsul yığımı davam edirdi. Bu məsul dövrdə heç bir gənginliyə baxmayaraq, Azərbaycan kəndlisinin əli işdən-gücdən soyumadı. Bu, nəticələrdə də özünü göstərdi. Bitkiçilik məhsulları istehsalında artım dinamikası davam etdi. Əvvəlki illə müqayisədə 2,5 faiz çox tərəvəz, 4,2 faiz çox meyvə və giləmeyvə, 15 faiz çox tütün, 2,1 faiz çox kartof istehsal edildi. Qeyd olunduğu kimi, pambıqçılıqda yüksək nəticə əldə olundu. 100 min hektar pambıq sahəsindən 335 min tondan çox məhsul toplandı və orta məhsuldarlıq əvvəlki illə müqayisədə 4 sentner artdı. Orta məhsuldarlıq 33,5 sentner təşkil etdi ki, bu da Azərbaycanın pambıqçılıq tarixində qeydə alınan ən yüksək göstəricilərdən biri idi. Həmçinin tütün üzrə məhsuldarlıq 2019-cu illə müqayisədə 19,3 sentnerdən 22,1 sentnerə, şəkər çuğunduru üzrə məhsuldarlıq 328 sentnerdən 481 sentnerə, çəltik üzrə məhsuldarlıq 29,9 sentnerdən 32,8 sentnerə yüksəldi.

Heyvandarlıq sahəsində də müsbət dinamika saxlanıldı və ət istehsalında 3,1, süd istehsalında 1,7 faiz artım əldə olundu.

Ən təqdirəlayiq hal isə o idi ki, düşmənin bombaladığı, dinc sakinlərin yaralandığı və həlak olduğu bölgələrin sakinləri də işdən-gücdən ayrılmırdılar. İnsanlar hər yerdə Prezident, Ali Baş Komandan İlham Əliyevlə, müzəffər ordumuzla birlikdə olduqlarını nümayiş etdirirdilər. Bir sözlə, hər kəs əlindən gələni əsirgəmirdi.

Payızlıq əkinlərin bəyanı prosesi davam edirdi. Kənd Təsərrüfatı Nazirliyinin müasir texnoloji avadanlıqlarla təchiz edilmiş mikroavtobusları bölgələrdə vətəndaşlara səyyar xidmət göstərirdi. Növbəti aqrar səyyar xidmət Bərdə rayonunun Güloğlular və Şörəlli kəndlərində təşkil olunmuşdu. Baxmayaraq ki, o günlərdə bu bölgə mənfur düşmənin hədəfində idi - erməni vandalları dinc sakınlərə, döyüş getməyən yerlərə də qənim kəsilmişdilər.

Səyyar xidmətlər bölgələr üzrə qrafik əsasında təşkil olunurdu. Bərdədən əvvəl payızlıq əkinlərin bəyanı ilə əlaqədar Xaçmaz, Masallı, Kürdəmir rayonlarında müvafiq xidmətlər göstərilmişdi.

Erməni faşizmi isə öz mənfur əməllərini davam etdirməkdə idi. Dinc əməklə məşğul olan əhaliyə rahatlıq vermirdi. Dönə-dönə terror törədirdi. Məsələn, Tərtərin Kəbirli kəndinə atılan raket 16 yaşlı gəncin ölümünə səbəb oldu.

Belə ki, Ermənistanın silahlı qüvvələri beynəlxalq hüququn norma və prinsiplərini kobud şəkildə pozaraq, dinc əhaliyə qarşı növbəti terror törətdi. Erməni hərbçiləri tərəfindən Tərtər rayonunun Kəbirli kəndinə raket atılması nəticəsində bağda xurma dərən 2004-cü il təvəllüdlü Orxan İsmayılzadə həlak oldu.

Kənd sakini Nurlan Baratzadə hadisə barədə danışarkən demişdi: "Raket atılan vaxt evdən səsə çıxdım. Uşaqların ağlamaq səsini eşitdim. Kömək istəyirdilər. Qaçaraq bağa gəldim. Gördüm iki uşaq Orxanın yanında durub. Orxan da üzüüstə yerə uzanmış halda idi, tərpənmirdi..."

Kənd sakini Xasay Məmmədov isə ermənilərin məqsədinin dinc azərbaycanlı əhalini qorxutmaq olduğunu vurğulamışdı: "Mənfur düşmən istəyir ki, dinc əhalini atəşə tutub təxribat yaratsın, camaatı qorxutsun. Amma bizim güclü ordumuz var, əsgərlərimizə güvənirik. Düşmən elə bilir ki, yenə də 1990-cı illərdi. O zaman bizim belə ordumuz yox idi. İndi isə qüdrətli dövlətimiz, güclü ordumuz var. İşğalda olan torpaqlarımız azad edilir. İnşallah, qələbə bizim olacaq".

İnsanların əlini işdən-gücdən soyumağa qoymayan bu inam idi. Müdrik dövlət başçısı, Ali Baş Komandana, müzəffər orduya, dövlətimizin qüdrətinə və Qələbəyə inam!

***Flora SADIQLI,***
***"Azərbaycan"***

## "Suqovuşan-1" və "Suqovuşan-2" stansiyalarında 13 milyon kilovat-saat elektrik enerjisi istehsal olunub

Qoyuluş gücü 4,8 meqavat olan "Suqovuşan-1" və 3 meqavat olan "Suqovuşan-2" kiçik su-elektrik stansiyalarında cari il sentyabrın 1-dək 13 milyon kilovat-saat elektrik enerjisi istehsal edilib.




Bu haqda Energetika Nazirliyi məlumat yayıb. Qeyd edək ki, 2020-ci il oktyabrın 3-də Tərtər rayonunun Suqovuşan qəsəbəsi işğaldan azad edilib. 1 il sonra - 2021-ci il oktyabrın 3-də isə "Suqovuşan-1" və "Suqovuşan-2" kiçik su-elektrik stansiyalarının yenidənqurmadan sonra açılışı olub.

## Muxtar respublikanın turizm potensialı qonaqlarda zəngin təəssürat yaradıb



On altı yaşadək yeniyetmələr arasında Ümumdünya Şahmat Olimpiadası ilə əlaqədar muxtar respublikaya gələn xarici və yerli şahmatçılar, şahmat həvəskarları Heydər Əliyev Sarayında təşkil edilən məhdud fiziki imkanlı şəxslər və istedadlı qadınların rəsm və əl işlərindən ibarət sərgi-satışla əyani tanış olublar.

Çeşid bolluğu və rəngarəngliyi ilə fərqlənən sərgi-satış qonaqlarda milli dəyərlərimiz, adət-ənənələrimizlə bağlı zəngin təəssürat yaradıb. Məlumat verilib ki, sərgi-satışa 442 şəxsin müxtəlif janrlarda çəkdikləri rəsm əsərləri və əl işlərindən ibarət 10 min 668 yaradıcılıq nümunəsi çıxarılıb. Muxtar respublikada xüsusi istedadları ilə seçilən, xalq yaradıcılığının müxtəlif sahələri ilə məşğul olan qadınların məşğulluğunun təmin edilməsi, rifah hallarının yüksəldilməsi məqsədilə belə tədbirlərin təşkili artıq ənənə halını alıb.

"Saat Meydanı" Turizm İstirahət Mərkəzinə gələn qonaqlara bildirilib ki, müasir formada qurulan mərkəzdə gənclərin asudə vaxtları səmərəli təşkil olunur, müxtəlif səpkili tədbirlər, yerli və xarici estrada ulduzlarının konsert proqramları keçirilir. Burada sakinlərə və turistlərə Naxçıvan, eləcə də Türkiyə, Çin, gürcü, yapon və ingilis mətbəxlərinin nümunələri təqdim olunur. Geyim dükanlarında dünya firmalarının məhsulları alıcılara təklif edilir. Kinoteatrda "CinemaPlus" kinoteatrlar şəbəkəsi tərəfindən ən yeni dünya və yerli filmlər nümayiş olunur, buradakı hoteldə turistlərin rahatlığı üçün hər cür şərait yaradılıb. Saat qülləsində isə xidmət sahələri yaradılıb, kafe və mütaliə zalı istifadəyə verilib.

## Şəkidə gələn ilin məhsulu üçün payızlıq dənlilərin səpininə başlanılıb

Respublikanın ən iri taxılçılıq rayonlarından olan Şəkidə gələn ilin məhsulu üçün 65,3 min hektar sahədə payızlıq dən bitkilərinin səpini proqnozlaşdırılır.

Əkin sahələrinin 34,2 min hektarına buğda, 31,1 min hektarına isə arpa səpiləcək. Rayonun Sarıca, Qayabaşı, Suçma, Böyük Dəhnə, Dərəcənnət kəndlərinin ərazilərindəki təsərrüfatlarda bir neçə gündür ki, arpa səpininə başlanılıb. İlk günlər bu ərazilərdə 262 hektara dən üçün arpa səpilib.

Bu barədə Şəki Dövlət Aqrar İnkişaf Mərkəzinin bitkiçilik sektorunun baş məsləhətçisi Sahib Abdulhəmidov məlumat verib. Qurum rəsmisi bildirib ki, payızlıq dənlilərin səpini üçün indiyədək təsərrüfatlarda 49 min hektaradək sahədə şum qaldırılıb. Səpin üçün 13,1 min ton arpa və buğda toxumu tələb olunur. Toxumçuluq təsərrüfatları tərəfindən indiyədək 7,7 min tondan çox sertifikatlaşmış toxum hazırlanıb və proses davam edir. Səpində iştirak edəcək traktor və toxumsəpən aqreqatlar təmir olunaraq saz vəziyyətə gətirilib. Ümumilikdə səpin kampaniyasına 285 ədəd şum traktoru, 126 ədəd toxumsəpən aqreqat və digər becərmə texnikaları cəlb olunacaq.

## Yevlaxda abadlıq-quruculuq işləri davam etdirilir

Prezident İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq, Yevlaxda abadlıq-quruculuq işləri davam etdirilir.

Yevlax şəhərinin Heydər Əliyev prospektində avtomobil yolunun kənarlarında yenidənqurma işləri aparılır. Ərazidə piyadalar üçün nəzərdə tutulan səkilər bərpa olunur, köhnə daşlar sökülərək yeni səki daşları ilə əvəzlənir, yeni bardürlər düzülərək tamet daşları vurulur.



# Balıqçılığın inkişaf etdirilməsində yem əsas məsələdir

## Neftçala Sənaye Məhəlləsindəki "KƏHF" MMC-nin bu sahədəki fəaliyyəti təqdirəlayiqdir

Xəzər dənizində, Kür çayında və digər sututarlarda son 15-20 il ərzində balıq ehtiyatları xeyli azalmışdır. Bunun başlıca səbəbi SSRİ dağıldıqdan sonra başqa sahələr kimi, balıqçılığın da diqqətdən kənarda qalması olmuşdur.

O vaxtlar dəniz kənarında boş yer qalmamışdı. Qanuni və qanunsuz olaraq Xəzərin sahili boyunca ərazilər zəbt edilmişdi. Brakonyerlərin Çindən gətirdikləri kapron torlar isə, sözün əsl mənasında, suları tora salmışdı. Belə kapron torlardan  nəinki böyük, hətta kiçik balıqlar da canlarını xilas edə bilmir. Yəqin hər kəs bazarlarda 500-600 qram çəkisində olan yetişməmiş nərəcinsli və digər növdən olan balıqların satılması halları ilə rastlaşıb. Bu səbəbdən ölkəmizdə mövcud olan balıqyetişdirmə müəssisələri tərəfindən hər il milyonlarla müxtəlif növ balıq sürfələri yetişdirilib Xəzər dənizinə, çaylara buraxılsa da, hələlik lazımi nəticəsi yoxdur, brakonyerlər həmin sürfələri hələ yetişməmiş yoxa çıxarırlar. Balıq azdır. Buna görə də qiyməti çox bahadır. Nərəcinsli balığın bir kiloqramının qiyməti 80-100 manatdır. Onu da tapa bilsən. Məhz bu səbəbdən də süni yolla balıq yetişdirilməsi zərurəti ortaya çıxmışdır. Bununla əlaqədar sənaye üsulu ilə işləyən müəssisələrlə yanaşı, respublikamızın müxtəlif bölgələrində gölçülük təsərrüfatları da fəaliyyət göstərməkdədir. Belə yolla yetişdirilən balıqların yem təchizatı başlıca önəm kəsb edir.

Prezident İlham Əliyevin 2015-ci il 2 fevral tarixli sərəncamına əsasən, kiçik və orta sahibkarlıqla məşğul olanların fəaliyyətinin dəstəklənməsi, qeyri-neft sektorunun davamlı inkişafının təmin edilməsi, əhalinin məşğulluğunun artırılması məqsədilə Neftçala şəhəri yaxınlığındakı 10 hektar ərazidə elektrik, istilik, qaz, su-kanalizasiya, rabitə, nəqliyyat infrastrukturu olan Neftçala Sənaye Məhəlləsi yaradıldı.

Əslən Neftçaladan olub Bakı şəhərində yaşayan, ixtisasca hüquqşünas Elçin Həsənovun qəlbində doğma torpağa gedib yeni açılmış sənaye məhəlləsində iş qurmaq arzusu yarandı. Bununla əlaqədar işbilən adamlarla, mütəxəssislərlə görüşüb, yaradılacaq müəssisədə balıq, o cümlədən heyvandarlıq və quşçuluq üçün yem istehsal etmək istədiyini danışdı, onlarla məsləhətləşdi. Onun fikrini bəyəndilər, amma sahənin heç də asan olmadığını da dedilər. Onu da xatırlatdılar ki, balıqçılıq sahəsində Neftçalanın keçmiş şöhrətinin özünə qaytarılmasında bu işin böyük rolu ola bilər.



Atalar "niyyətin hara, mənzilin də ora" deyiblər. E.Həsənov işə başladı. Zavod inşa etdi, xarici ölkələrdən avadanlıqlar alıb gətirdi. İş prosesində müəyyən çətinliklərlə rastlaşdı. Nəzərdə tutduqları, istədiyi olmayanda, avadanlıqların göndərilməsi yubananda narahatlıq keçirdiyi vaxtlar da az olmadı. Belə hallarda səbir etməyi bacardı. Öz-özünə "heç nə asan başa gəlmir" dedi. Günlər, aylar keçdikcə zavod da kərpic-kərpic ucaldıldı. Dövlətdən götürülmüş kredit vəsaiti ilə inşa olunan zavod 2017-ci ildə istifadəyə verildi. Beləliklə, gündəlik istehsal gücü 25 ton olan yem zavodunun işə düşməsinə start verildi.

Lakin bununla işlər tamamlanmırdı. Müxtəlif növ balıqlar üçün yem hazırlamağa xammal - buğda, arpa, qarğıdalı, soya, günəbaxan, balıq unu, digər komponentlər lazım gəlirdi. Bunlardan ötrü də çox iş görməli oldu. Yerli istehsalçılarla görüşdü, qardaş Türkiyə, qonşu Rusiya və Gürcüstana gedib ayrı-ayrı şirkətlərlə müqavilələr bağladı. "Çəkilən zəhmət itməz" deyiblər. "KƏHF" MMC üçün də belə oldu. İstehsal etdiyi yem balıq yetişdirilən müəssisələr tərəfindən yüksək qiymətləndirildi. Neftçalada, respublikanın ayrı-ayrı bölgələrində nərəcinsli, habelə digər balıqlar yetişdirən zavodlar, sahibkarlar yem problemindən azad oldular.

Burada hazırlanan yemlər balıqların inkişafı, ekoloji cəhətdən təmizliyi üçün başqa yemlərə nisbətən çox yararlıdır. Sadə bir misal: nohur balıqçılığında arpa, buğda ilə yemlənən 1 hektar sahədən 600-800 kiloqram məhsul əldə edilirsə, ekstruziya olunmuş qarışıq yemdən istifadə zamanı hər hektardan 3-5 min kiloqram balıq əldə etmək mümkündür. Məhz buna görədir ki, "KƏHF" şirkətinin məhsullarına tələbat artmaqdadır. Qonşu respublikalarla yanaşı, Şərq ölkəsi İraq da buradan məhsul alır. Beləcə, müəssisənin ticarət coğrafiyası genişlənir. Təqdirəlayiq haldır ki, hər yerdə məhsulların qiymətinin bahalaşmasına baxmayaraq, "KƏHF" MMC-də hələ ki, qiymətlər sabit saxlanılır.

Birinci və İkinci Qarabağ müharibələrindəki döyüşlərdə və bu ilin sentyabr ayının 12-dən 13-nə keçən gecə düşmən təxribatının qarşısını alan mərd əsgərlərimizin sırasında Neftçala rayonundan olan şəhidlərimiz, qazilərimiz də var. Müəssisədə çalışanların, demək olar ki, hamısı şəhid ailələrinin üzvləri, qazilər və müharibə iştirakçılarıdır. Onların hər birinə burada xüsusi diqqət və qayğı göstərilir.

Yekunda onu deyək ki, balıqçılığın inkişafında mühüm rol oynayan, balıq yemi hazırlayan bu şirkət respublikamızda yeganə belə müəssisədir. İşi çətin də olsa gərəklidir. Məqsədi əhalinin balıq məhsullarına olan tələbatını ödəməkdə yaxından iştirak etməkdir.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

# Pireydə "Qarabağ" rüzgarı

## Bu gün Ağdam klubu Yunanıstanda Avropa Liqasının növbəti matçına çıxacaq



UEFA Avropa Liqası
G qrupu, 3-cü tur
23:00 "Olimpiakos" (Yunanıstan) - "QARABAĞ" (Azərbaycan)
Baş hakim: İrfan Pelto (Bosniya və Herseqovina)
Pirey, "Georgios Karaiskakis" Stadionu

**Bu gün Ağdamın "Qarabağ" klubu UEFA Avropa Liqasının G qrupunda növbəti matçına çıxacaq. Komandamız Yunanıstanda "Olimpiakos"un qonağı olacaq. Pirey təmsilçisinin oyunlarında azarkeşlərin çılğın dəstəyi fonunda tribunalarda anşlaqın olması qaçılmazdır. Ekran qarşısında isə milyonların qəlbi "Qarabağ"la döyünəcək.**

"Qarabağ"ı çətin Pirey səfərində nələr gözləyə bilər? Çox güman ki, 4-3-3 oyun formatı ilə meydana çıxacağı gözlənilən komandamız rəqibin cinahlardan etdiyi sürətli keçid oyunlarında və standart vəziyyətlərdə çox diqqətli olmalıdır. "Olimpiakos"da cinahlarda oynayan futbolçuların çox sürətli keçidləri fonunda komandamız müdafiə xəttinə daha çox diqqət yetirməlidir. "Qarabağ"ın sağ və sol cinah müdafiəçiləri rəqibin hücumları zamanı mərkəzə doğru çəkilərək boş zona buraxmamalıdır. "Qarabağ" üçün bu qarşılaşmada ən çətin məqam Pirey təmsilçisində baş məşqçi dəyişikliyinin olmasıdır. Belə ki, "Olimpiakos" xüsusilə avrokuboklarda aldığı son 2 məğlubiyyətdən sonra Karlos Korberanı ispaniyalı çalışdırıcı Miçel Qonsaleslə əvəzləyib. Oyunçu profilləri üzərindən komandanın mövcud vəziyyətini təhlil etmək mümkündür. Lakin oyun planı baxımından yeni çalışdırıcının hansı formata üstünlük verəcəyi sual doğurur.



Meydan sahibləri son qarşılaşmalarda izlədiyimiz qədəriylə hücumlar zamanı 5-6 nəfərlə çoxala bilir. Qeyd edək ki, komandada Yussef Əl-Arabinin olmaması və digər forvard Sedrik Bakambunun avrokubok qarşılaşmaları üçün sifariş olunmaması böyük üstünlükdür. Çünki 2-ci və 3-cü zonaya keçid oyununda daha sürətli və texnikalı olan futbolçulara qarşı mübarizə aparmaq çətin olacaqdı. Amma bütün bunlara baxmayaraq, hücumda Abubakar Kamara kimi təhlükəli hücumçular da var. Lakin yerli mətbuatın yazdığına inansaq, Miçel Qonsales start heyətdə yarımmüdafiəçi Pep Bielə şans vermək niyyətindədir. 59 yaşlı mütəxəssis ispaniyalı oyunçunu "yalançı 9 nömrə" mövqeyində meydana buraxmağı planlaşdırır.

4-4-2 oyun formatına üstünlük verən Yunanıstan klubu matç içərisində gedişata görə 4-2-2-2 sisteminə də keçə bilir. Hücuma keçidlərdə 2-3-5 oyun planına da üstünlük verilir. Meydan sahiblərində oyunçu paylaşımı, mövqe seçimi və sığortalamasında ciddi problemləri var. Xüsusilə komandada sağ və sol cinah müdafiəçiləri ilə mərkəz müdafiəçiləri arasında boş zonanı blok etməkdə çətinliklərlə üzləşirlər. Yəni komanda müdafiə olunanda 5 nəfər mərkəzdə, 4 nəfər isə yarımmdafiədə yer alır. Rəqib hücum edərkən topun olduğu zonaya 3 oyunçu ilə təzyiq etməyə çalışır. Nəticədə müdafiənin cinahlarında çox ciddi boşluqlar yaranır. Xüsusilə komandamızın heyətində Marko Yankoviçin bu keçid oyunlarında performansı daha çox olmalıdır. Bu ötürmələr fonunda Zubir və Kadiyə yaxşı fürsətlər yarana bilər. Yəni mərkəzdə müdafiə olunarkən boş zona buraxmamağa çalışırlar. Belə olan halda isə oyunu cinahlara açaraq bundan daha rahat istifadə etmək mümkündür.

"Olimpiakos"un üstünlüklərindən biri cinahlardan edilən hücumlar və anidən cərimə meydançası içərisinə edilən uzun ötürmələrdir. Burada isə müdafiəçilərimiz və qapıçımız topa çıxışlarda çox diqqətli olmalıdır. Xüsusilə Oleq Ryabçukun sol cinahda müdafiədən hücumlara qoşulması əsas diqqət çəkən məqamlardan biridir. Qeyd edək ki, "Olimpiakos" hücuma qoşularkən geri dönən toplara sahib olmaqda çox çətinlik çəkir. Keçid oyunlarında 5 oyunçu ilə çoxalmağı bacaran meydan sahiblərinə qarşı matçda Qara Qarayevlə Yankoviç bir-birilərini çox yaxşı idarə etməlidirlər. Meydanda dağıdıcı funksiyanı yerinə yetirən Qara qazandığı topu tez bir zamanda Ozobiç və ya Yankoviçə çatdırmalıdır. Unutmayaq ki, monteneqrolu yarımmüdafiəçi "Neftçi" ilə qarşılaşmada zədələnmişdi. Ümid edək ki, oynayacaq. Çünki onun meydanda olmağı 3-cü zonada həm Kadi, həm də Zubir üçün əlavə üstünlüklər qazandırır. Belə ki, top rəqibdə olarkən 1-ci və ya 2-ci zonada bu oyunçuların üzərlərinə çox da yük düşmür.



Əlavə edək ki, Ağdam təmsilçisində avrokubok qarşılaşmalarında ilk 15-20 dəqiqə sindromu yaşanır. Bu periodda "Qarabağ" qol buraxmasa, oyunda geri dönüş etməyi bacaran komanda kimi istəyinə nail ola bilər. Lakin "Frayburq"la Almaniyadakı qarşılaşmada o müddətdə buraxılan 2 qol komandamızın xal və ya xallarla qayıtmağına mane oldu. Yəni oyunda nəzarəti ələ almaq, rəqibin tempini aşağı salmaq üçün daha çox qısa ötürmələrə üstünlük verməlidir. Daha yüksək fiziki hazırlığın tələb olunduğu oyun planı fonunda rəqibə boş zona yaratmamağa çalışılmalıdır. Bu oyun planı işə düşərsə, komandamız rəqibə qarşı üstünlük əldə edə bilər.

Hər halda, çətin Yunanıstan səfərindən Ağdam klubunun qələbə ilə qayıdacağına inanırıq. Necə deyərlər, inanmaq uğurun yarısıdır.

Vurduğun qol olsun, "Qarabağ"!

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*




# OXUCULARIN NƏZƏRİNƏ!

*"Azərbaycan" qəzetinə 2022-ci il üçün abunə yazılışı kampaniyası davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| "Azərpoçt" MMC | (012) 598-49-55, (051) 225-02-13 |
| "Qaya" firması | (012) 566-77-80, (050) 214-40-53 |
| "Region Press" MMC | (055) 316-79-01, (050) 316-79-01 |
| "Səma-M" MMC | (012) 594-09-59 |
| "Ziya" LTD | (012) 497-76-96, (050) 306-77-22 |
| "Pressinform" MMC | (012) 598-49-52, (070) 340-01-00 |
| "City press" MMC | (055) 819-09-26 |

**1 illik -124,80** (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
**6 aylıq - 62,40** (altmış iki manat qırx qəpik) **manat**
**3 aylıq - 31,20** (otuz bir manat iyirmi qəpik) **manat**

**Hörmətli oxucular!**
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, **(012) 539-59-33** nömrəli telefona zəng vura bilərsiniz.*


# Avropa Mərkəzi Bankından xəbərdarlıq

## Enerji və ərzaq qiymətləri ilə bağlı vəziyyət pisləşməkdə davam edəcək



İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (İƏİT) yenilənmiş makro proqnozuna görə, Ukraynadakı münaqişə və dünyada inflyasiyanın sürətlənməsi fonunda qiymətlərin bahalaşması 2023-cü ildə qlobal iqtisadi artım tempinin 2,2 faizə qədər azalmasına səbəb olacaq.

Təşkilatın ekspertləri bu il üçün ümumi proqnozu dəyişməz saxlasalar da, ABŞ və Çin, eləcə də avrozonanın ayrı-ayrı ölkələri üçün artım təxminləri aşağı salınıb. Rusiya iqtisadiyyatında tənəzzül, əvvəllər gözlənildiyindən daha az nəzərə çarpacaq, lakin daha uzunmüddətli olacaq. Gələn il ÜDM-in azalması builki 5,5 faizdən sonra 4,5 faiz ola bilər.

İƏİT-ə görə, 2023-cü ildə ümumi qlobal gəlirlər bir il əvvəl gözləniləndən 2,8 trilyon dollar aşağı olacaq. "Böyük iyirmilik" ölkələrində artımın bu il 2,8 faizə qədər, gələn il 2,2 faiz azalması proqnozlaşdırılır. Ötən il bu rəqəm 6,2 faiz təşkil etmişdi. Yavaşlama ən çox ABŞ, Çin və bəzi Avropa ölkələrində özünü göstərəcək. ABŞ-də bu il ÜDM artımı bir il əvvəlki 5,7 faizə qarşı 1,5 faiz olacaq, gələn il isə ÜDM yalnız 0,5 faiz arta bilər.

Bu il Çində COVID məhdudiyyətləri və daşınmaz əmlak bazarında tənəzzül fonunda artım 3,2 faizə qədər azalacaq. Keçən il ÜDM artımı 8,1 faiz olub.

Təşkilat Rusiya üçün bu il iqtisadiyyatın 5,5 faiz və gələn il 4,5 faiz azalacağını proqnozlaşdırır. Bu proqnozla rusiyalı ekspertlər də razılaşırlar.

Hindistan, İndoneziya və Səudiyyə Ərəbistanında artım templəri yüksək olaraq qalacaq.

Avrozona ölkələri üçün builki proqnoz 3,1 faizə çatdırılıb, gələn il isə artımın cəmi 0,3 faiz olacağı gözlənilir. Lakin bəzi Avropa ölkələri qış aylarında hasilatın azalması ilə üzləşə bilər. Bu barədə xəbərdarlıq edən İƏİT qeyd edir ki, Almaniyada bu il ÜDM-in 1,2 faiz artımını 0,7 faiz azalma izləyə bilər. Fransa, İtaliya və İspaniyada artım yavaşlayacaq, lakin müsbət olaraq qalacaq. Təşkilatda hesab edirlər ki, enerji təchizatı, o cümlədən qazla bağlı daha bariz məhdudiyyətlər inflyasiyanın 1,5 faiz bəndindən çox artması ilə yanaşı, gələn il Avropa artımının əlavə 1,25 faiz bəndi, eləcə də qlobal proqnozun 0,5 faiz bəndi azalmasına səbəb ola bilər.

Eyni zamanda İƏİT "Böyük iyirmilik" ölkələrində inflyasiyanın bu il ötən ilki 3,8 faizdən 8,2 faizə qədər sürətlənəcəyini və 2023-cü ildə 6,5 faizə enəcəyini gözləyir.

"G20"nin inkişaf etmiş ölkələrində inflyasiya bu il 6,2 faizə, gələn il isə 4 faizə çata bilər. Pul siyasətinin sərtləşdirilməsi və təchizat problemlərinin həllinin gələn il qiymətlərə təzyiqi azaldacağı gözlənilir, lakin enerji xərclərinin və maaşların artması bu prosesi ləngidəcək.

Ekspertlərə görə, əksər inkişaf etmiş ölkələr inflyasiya ilə mübarizə və uzunmüddətli gözləntiləri azaltmaq üçün faiz dərəcələrinin daha da artırılmasına ehtiyac duyacaqlar.

Qeyd edək ki, Avropa Mərkəzi Bankı artıq avro bölgəsində enerji və ərzaq qiymətləri ilə bağlı vəziyyətin pisləşməyə davam edəcəyini proqnozlaşdırıb. Tənzimləyicinin rəhbəri Kristin Laqard Avropa Parlamentində çıxış edərək, növbəti bir neçə görüşün nəticələrinə əsasən, tariflərin daha da artırılmasına söz verib.

Bu arada bildirilir ki, Avropa İttifaqı enerji böhranı ilə mübarizə üçün 1 trilyon avrodan çox vəsait xərcləyə bilər. Bunu RBK telekanalı "Yakov and Partners" konsaltinq şirkətinin araşdırmasına istinadən xəbər verir. Məlumata əsasən, Aİ ölkələrinin büdcə kəsiri 2 trilyon avroya və ya ÜDM-nin 11,5-16,2 faizinə qədər arta bilər.

Şirkətin araşdırmasına görə, Rusiyadan Aİ-yə qaz tədarükünün azalması və Aİ-də enerji qiymətlərinin artması nəticəsində azot gübrələrinin istehsalının təxminən 70 faizi dayandırılıb, alüminium istehsalı 25 faiz, polad istehsalı 5 faiz azalıb. Nəticədə 2022-ci ildə Avropa ölkələrində kəsir 200 milyard avroya (ÜDM-in 1 faizi), 2023-cü ildə 0,9-1,7 trilyon avroya (ÜDM-in 6,5-11,5 faizi) çata bilər.

Hesablamalara görə, 2023-cü ildə şirkətlər və ev təsərrüfatları üçün qaz xərclərinin kompensasiyası, fəaliyyəti dayandırılan müəssisələrin işçiləri üçün əlavə kompensasiyalar, enerji asılılığının azaldılması üçün qoyulan investisiyalar və digər tədbirlərə ümumi xərclər 1-1,6 trilyon avro təşkil edə bilər.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*

# Kəlbəcər və Daşkəsəndə aşkar olunan növbəti minalar zərərsizləşdirilib

Ermənistan silahlı qüvvələrinin genişmiqyaslı təxribatı zamanı basdırılan minaların aşkar edilərək zərərsizləşdirilməsi istiqamətində görülən işlər davam etdirilir.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, erməni diversiya qruplarının Kəlbəcər rayonu ərazisində basdırdığı növbəti 118 ədəd PMN-G tipli piyada əleyhinə və 4 ədəd TM-62M tipli tank əleyhinə mina, həmçinin Daşkəsən rayonu ərazisində 108 ədəd PMN-G tipli piyada əleyhinə mina aşkar olunub. Aşkar edilən bütün minalar mühəndis-istehkamçılarımız tərəfindən təhlükəsizlik qaydalarına riayət olunmaqla zərərsizləşdirilib.

Azərbaycan Ordusunun mühəndis-istehkam bölmələri ərazilərimizin minalardan təmizlənməsi üzrə fəaliyyətlərini yüksək peşəkarlıqla icra edir.



# ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Milli Məclisinin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri, professor Hicran Hüseynova və komitənin üzvləri Milli Məclisin deputatı Jalə Əhmədovaya həyat yoldaşı

**BABƏK ƏHMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Milli Məclisin deputatı Ağalar Vəliyev Azərbaycan Respublikası baş prokurorunun müavini, respublikanın hərbi prokuroru Xanlar Vəliyevə əzizi

**ESMİRA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin rəhbərliyi və kollektivi Milli Məclisin deputatı Jalə Əhmədovaya həyat yoldaşı

**BABƏK ƏHMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rəhbərliyi və kollektivi Milli Məclisin deputatı Jalə Əhmədovaya həyat yoldaşı

**BABƏK ƏHMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Mərkəzi Bankının rəhbərliyi və kollektivi Azərbaycan Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadəyə qardaşı

**HAFİZ HÜSEYNZADƏNİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin rəhbərliyi və kollektivi agentliyin İctimaiyyətlə əlaqələr şöbəsinin rəisi Anar Nəcəfliyə atası

**ƏŞRƏF MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

# BİLDİRİŞ

İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi tərəfindən yeni müasir tibbi avadanlıq kompleksləri ilə təchiz olunmuş 100 ədəd təcili tibbi yardım avtomobillərinin satın alınması məqsədilə "Azərbaycan" qəzetinin 27 avqust 2022-ci il tarixli buraxılışında elan olunmuş satınalma müsabiqəsinin müddəti "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 30.2-ci maddəsinə əsasən malgöndərənlərin sorğusu əsasında uzadılır. Dəyişikliyə əsasən ilkin sənədlərin qəbulu 7 oktyabr 2022-ci il saat 16:00-dək, tender təklifləri və təkliflərin təminatı sənədlərinin qəbulu isə 17 oktyabr 2022-ci il saat 18:00-dək uzadılır. Tender üzrə təklif zərflərinin açılışı 18 oktyabr 2022-ci il saat 16:00-da agentliyin Bakı şəhəri, Nəsimi rayonu, Lev Tolstoy küçəsi 170 ünvanında yerləşən baş ofisində keçiriləcəkdir.

***Tender komissiyası***


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 539-63-82, 432-37-68
Humanitar siyasət şöbəsi - 538-56-60
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-də çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 6469
Sifariş 2825
Qiyməti 40 qəpik